Bank Respublika
sizə faydalı

KOMPLEKS BANK XİDMƏTİ MÜQAVİLƏSİ

(fiziki şəxs və fərdi sahibkarlar üçün)

1. Ümumi müddəalar

Bu müqavilə "Bank Respublika" ASC-nin (bundan sonra "Bank") müştəriyə təklif etdiyi bank xidmətləri ilə bağlı tərəflərin hüquq və vəzifələrinin yaranmasına, dəyişməsinə və xitam verilməsinə dair münasibətləri tənzimləyir.

2. Müqavilədə istifadə olunan anlayışlar

2.1. **Bank** - Bank fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 83 saylı Lisenziyaya malik olan "Bank Respublika" Açıq Səhmdar Cəmiyyəti.
2.2. **Öz Müştərini Tanı Anketi (ÖMTA)** - bank xidmətlərinin göstərilməsi üçün müştəri tərəfindən təsdiq edilərək banka təqdim edilmiş, müştərinin şəxsi məlumatlarını özündə əks etdirən sənəd.
2.3. **Müştəri** - ÖMTA-da şəxsi məlumatları qeyd olunmaqla Banka müraciət etmiş fiziki şəxs.
2.4. **Müraciət** – Müştəri tərəfindən elektron sənəd dövriyyəsi vasitələri ilə identifikasiya məlumatlarından istifadə etməklə və/və ya Banka yaxınlaşmaqla Bank xidmətlərindən istifadə edilməsinə dair iradə ifadəsi.
2.5. **Bank Xidmətləri** – Bank tərəfindən bu müqaviləyə əsasən təklif edilən aşağıdakı məhsullar:

Qeyri-kredit məhsulları:

- Bank hesabının açılması, aparılması, bağlanması və bank hesabı üzrə əməliyyatların icra edilməsi;
- Ödəniş xidmətləri;
- Ödəniş kartların əldə olunması və istifadə edilməsi;
- Əmək haqqı və korporativ kartların əldə olunması və istifadə edilməsi;
- Bank Seyfinin icarəsi;
- İnkassasiya xidmətlərinin təşkili;
- Depozit-əmanət;
- Törəmə maliyyə alətləri ilə əməliyyat.

Kredit məhsulları:

- Kreditlərin verilməsi;
- Kredit limitinin açılması;
- Kredit xəttlərinin açılması (Plastik kart vasitəsi ilə);
- Taksit əməliyyatları;
- Kredit xəttlərinin açılması;
- Overdraft;
- Qarantiya;
- Akkreditiv;
- İnvoysun diskontlaşdırılması;
- Faktorinq.

Bankın məhsul və xidmətlərinin təqdim edilməsi və tərəflərin hüquq və vəzifələrinin yaranması, müştərinin bu müqavilənin 17-ci bəndinə müvafiq olaraq müraciəti və həmin xidmətlərə dair Razılaşmanın müştərinin şəxsi imzasına bərabər hesab edilən şəxsi imzanın digər analoqundan və ya gücləndirilmiş elektron imzadan istifadə etməklə iradə ifadəsinin bildirilməsi və/və ya Banka yaxınlaşmaqla təsdiqi yolu ilə həyata keçirilir.

2.6. **Razılaşma** - ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə, bu müqavilənin 17-ci bəndində qeyd edilmiş prosedura riayət etməklə tərəflərin iradə ifadəsinin bildirilməsi, habelə gücləndirilmiş elektron imza və ya Banka yaxınlaşaraq əl imzası ilə imzalanmış müqavilə. Müştəri tərəfindən bu müqavilənin 2.5-ci bəndində qeyd edilmiş xidmətlərin alınmasına dair Banka bu müqavilənin 17-ci bəndində qeyd edilən prosedura uyğun olaraq xidmət platformasındakı vasitələrdən biri və ya bir neçəsi ilə edilən müraciət və həmin müraciətə uyğun olaraq Bankın razılığı əsasında xidmətlərin təqdim edilməsi Müştəri ilə Bank arasında müvafiq xidmətlərə dair Razılaşmanın bağlanması hesab edilir.
2.7. **Bank hesabı** - müştərinin müvafiq müraciətinə əsasən açılan cari, əmanət, müvəqqəti və kart hesabları.
2.8. **Cari hesab** - hesaba daxil olan pul vəsaitini qəbul etmək və hesaba salmaq, hesabdan pul vəsaitlərini köçürmək və vermək, habelə hesab üzrə digər əməliyyatların aparılmasına dair sərəncamları yerinə yetirmək üçün açılan bank hesabı.
2.9. **Əmanət hesabı** - pul vəsaitlərinin əmanətlərə cəlb edilməsi, əmanətlərinin uçotu və müvafiq əməliyyatların aparılması üçün açılan hesab.
2.10. **Kart hesabı** - kart vasitəsilə həyata keçirilən əməliyyatların uçotunun aparılması üçün açılan cari bank hesabı.
2.11. **İcarəçi** – Bankdan Bank seyfini müvəqqəti olaraq icarəyə götürmüş müştəri (rezident fiziki şəxslər).
2.12. **Seyf** - İcarəyə verilən və yüksək mühafizə əlamətlərinə malik olan metaldan hazırlanmış bağlanan dolab.
2.13. **Açar** - Seyfin kilidini açan unikal quruluşa malik, təhvil-təslim aktı ilə "İcarəçi"yə verilən və İcarəçidə qalan fərdi açar.
2.14. **Master açar** - Seyfin kilidini açan unikal quruluşa malik və Bankda saxlanılan açar. Depozitari seyflərin saxlanıldığı və xüsusi mühafizə sistemi,o cümlədən barmaqlıqlı vəzirehli qapılar ilə təchiz edilmiş Bankın sahəsi.
2.15. **Saxlanc predmeti** - İcarəçinin saxlamaq üçün seyfə qoyduğu pul vəsaitləri, qiymətli kağızlar, qiymətli metallar, daş-qaşlar və onlardan hazırlanmış ləl-cəvahirat, digər qiymətlilər, sənədlər və s. predmetlər.
2.16. **İnkassasiya** – müştəriyə məxsus pul vəsaitinin bir təyinat nöqtəsindən digərinə daşınması.
2.17. **Törəmə maliyyə alətləri ilə əməliyyat** – müvafiq razılaşmalara əsasən müəyyən edilmiş tarixdə və təsbit edilmiş məzənnədə xarici valyutanın alışına və/və ya satışına dair Opsion və/və ya Hedcinq əməliyyatları.
2.18. **Əmanət** – müştərinin müraciəti və bu müqavilə ilə müəyyən edilmiş şərtlərlə və müddətə Banka qoyulmuş pul vəsaitidir.
2.19. **Əmanətçi** – bank hesabının sahibi, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müvafiq fəaliyyət qabiliyyətinə malik olan Azərbaycan Respublikasının vətəndaşı, xarici vətəndaş və ya vətəndaşlığı olmayan fiziki şəxsdir.
2.20. **İşçi** - müştəri ilə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxs.
2.21. **Ödəniş kartı** (bundan sonra - **kart**) - nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş aləti. Bank tərəfindən verilən kart Bankın mülkiyyətidir və Bank

tərəfindən bu müqavilə ilə müəyyən edilmiş müddətə müvəqqəti istifadə üçün verilir. Kartdan istifadə bu müqavilə, Azərbaycan Respublikası qanunvericiliyi və kartın buraxılması və istifadə edilməsinə dair kart sahibi ilə bağlanmış və beynəlxalq ödəniş sistemi ("Visa International / MasterCard Worldwide" və s.) qaydaları ilə tənzimlənir.

2.22. **Korporativ kart** - nağd pul vəsaitinin əldə edilməsi və ödənişlərin aparılması məqsədilə fiziki şəxsin kart hesabında olan pul vəsaitlərindən istifadə etmək üçün onun nümayəndəsinə (işçisinə) verilən kart.

2.23. **Kart istifadəçisi** - Bank ilə Müştəri arasında bağlanmış müqaviləyə uyğun olaraq adına kart hesabı açılmış və müvafiq kart üzrə sərəncam vermək hüququ olan şəxs.

2.24. **Kredit** - müvafiq razılaşmalara uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komissiya haqları) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Pul vəsaitinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, qarantiya, zəmanət, borc qiymətli kağızlarının diskontla və ya faizlər alınmaqla satın alınması və müqaviləyə əsasən hər hansı formada verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir.

2.25. **Kredit limiti** - əsas kredit limiti razılaşmasından irəli gələn və həmin kredit limiti razılaşmasında qeyd olunmuş, müddətə və faizlər ödənilmək şərti ilə təminatla və ya təminatsız, geri qaytarıldıqdan yenidən Bankın razılığı ilə istifadə edilə bilən (bərpa olunan) müəyyən məbləğdə borca verilən pul vəsaitidir.

2.26. **Əsas kredit limiti razılaşması** - Bank tərəfindən Müştəriyə razılaşmalarla veriləcək (ÖMTA qeyd edilmiş şəxsi imzanın digər analoqu, elektron imza və ya yazılı imzalanmaq yolu ilə) kreditlər üzrə tərəflər üçün hüquq və öhdəliklər müəyyən etməklə kreditlərin verilməsini və ödənilməsini tənzimləyən müqavilə.

2.27. **Kredit xətti** - müvafiq razılaşmalara uyğun olaraq kredit xətti razılaşmasında qeyd edilmiş müddət və məbləğ həddində yenidən Bankın razılığı ilə istifadə edilə bilən (bərpa olunan) kreditdir.

2.28. **Overdraft** - Müştərinin bank hesabında vəsaitin olub-olmamasından asılı olmayaraq müvafiq razılaşmaya əsasən müəyyən edilmiş müddət ərzində geri qaytarılması şərti ilə müvafiq məbləğədək vəsaitin (kreditin) müştəri tərəfindən istifadəsinə yaradılan şəraitdir.

2.29. **Qarantiya** - Müştərinin müraciətinə əsasən Bank tərəfindən müştərinin Benefisiarına (Müştəri ilə bağlanmış müqaviləyə əsasən (alğı-satqı, xidmət və s.) müştəridən həmin müqavilə üzrə öhdəliyin icrasını tələb etmək hüququna malik olan şəxs) təqdim edilən bank zəmanətidir.

2.30. **Akkreditiv** – Müştərinin müraciətinə əsasən müştərinin Benefisiarına (Müştəri ilə bağlanmış müqaviləyə əsasən (alğı-satqı, xidmət və s.) müştəridən həmin müqavilə üzrə öhdəliyin icrasını tələb etmək hüququna malik olan şəxs) müvafiq razılaşmada qeyd edilmiş müəyyən məbləğdə və müddətdə təqdim edilən bank öhdəliyidir.

2.31. **İnvoysun diskontaşdırılması** – Müştərinin icrası müvafiq sənədlərlə təsdiqlənən məhsul və ya xidmət üzrə üçüncü şəxslərə qarşı olan pul tələb(lər)inin (invoysların) Bank tərəfindən qəbul edilərək maliyyələşdirilməsidir.

2.32. **İnvoys** - Müştəri ilə üçüncü şəxslər arasında alğı-satqı və xidmət müqavilələrinin bağlanmasını təsdiq edən və həmin müqavilələr üzrə ödənilməli olan məbləği və müddəti özündə əks etdirən pul tələbinə dair sənəddir.

2.33. **Faktorinq** - Müştərinin üçüncü şəxslərə qarşı olan pul tələb(lər)inin Banka güzəşt edilməsi müqabilində Müştərinin maliyyələşdirilməsidir.
2.34. **Elektron sənəd mübadiləsi** - yazılı informasiya sistemində elektron formada təqdim edilən elektron sənədin nizamlanmış hərəkəti ilə bağlı informasiya prosesi.
2.35. **Elektron sənəd** - şəxsi imzanın analogundan (Elektron (Asan) imza, müştərinin müvafiq Bank xidmətlərindən istifadə niyyəti ilə bağlı istənilən hərəkət və s.) istifadə etməklə təsdiq olunmuş müqavilə, saziş, razılaşma, ərizə və s. istənilən məzmunlu əqd.
2.36. **Elektron sənəd dövriyyəsi vasitələri** - elektron sənəd mübadiləsində istifadə olunan Bank proqramları, texniki vasitələr, texnologiyalar və elektron cihazlar.
2.37. **Elektron cihaz** - kompüter, telefon, mobil telefon, smartfon, ATM (bankomat- kartlarla nağd pulun verilməsi üçün istifadə olunan bank avtomatlarıdır), özünə xidmət (ödəniş) terminalları və bu məqsədlə istifadə edilə bilən istənilən digər elektron cihaz nəzərdə tutulur.
2.38. **Elektron imza** - digər verilənlərə əlavə edilən və ya onlarla məntiqi əlaqəli olan, yalnız imza sahibinə məxsus olmaqla əlaqəli olduğu imza sahibini identikləşdirməyə imkan verən verilənlərdir.
2.39. **Elektron xidmət** - identifikasiya məlumatlarından istifadə etməklə bank xidmətlərinin alınması, müvafiq əməliyyatların aparılması və/və ya müəyyən məlumatların verilməsi, müraciətlərin (ərizələrin) emalı ilə bağlı internet, elektron poçt, mobil applikasiyalar (qoşulmalar), SMS və ya digər elektron sənəd dövriyyəsi vasitələri ilə məsafədən bankın təklif etdiyi Bank xidmətləri nəzərdə tutulur.
2.40. **SMS (Short Message Service)** - qısa mətnli məlumatların göndərilməsi və qəbul edilməsi imkanı verən texnologiya.
2.41. **İdentifikasiya məlumatları -** ÖMTA-da əks olunmuş şəxsiyyəti təsdiq edən sənədin seriya nömrəsi, mobil nömrəsi, elektron poçt ünvanı, bank xidmətlərindən istifadə üçün nəzərdə tutulmuş, müştərinin istifadəsində olan fərdi istifadəçi adı (login), parol(password), giriş kodu, təhlükəsizlik şifrəsi, təsdiq SMS şifrəsi, ödəniş kartının ŞEN-i, elektron imza və qanunvericiliklə nəzərdə tutulmuş müştərini eyniləşdirməyə imkan verən digər bu kimi məlumatların ayrı-ayrılıqda və/ və ya birgə istifadəsi nəzərdə tutulur. İdentifikasiya məlumatları müştərinin öz əl imzasının analoqu kimi qəbul olunur və həmin məlumatlar müştəri tərəfindən Bank xidmətlərinin məsafədən (Banka yaxınlaşmadan) də alınması üçün istifadə olunur.
2.42. **Şifrə** - İnternet (Elektron) Bank Xidmətindən istifadə zamanı müştərinin eyniləşdirməsi üçün istifadə olunan simvolların unikal ardıcıllığı.
2.43. **Məlumat daşıyıcısı** – İnternet Müştəri Sisteminə daxil olmaq üçün istifadə edilən açar, login, şifrə.
2.44. **İnternet Müştəri Sistemi** – müştərinin məlumat daşıyıcısından istifadə etməklə daxil olduğu və İnternet Bank Xidmətlərinin aparılması üçün istifadə edilən baza.
2.45. **Tariflər** – Bankın göstərdiyi xidmətlərə görə Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd olunan və Müştəri tərəfindən ödənilməli olan məbləğlər: komissiya haqları, cərimələr, faizlər və s. Tariflərdə edilən dəyişikliklər https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində yerləşdirildikdən sonra qüvvəyə minəcək və dəyişiklik edildiyi andan Müştəri tərəfindən qəbul edilmiş hesab olunacaqdır.
2.46. **www.bankrespublika.az** - Bankın rəsmi internet səhifəsidir.

2.47. **Limit** - Hesab sahibi, Kart Sahibi və yaxud Kart İstifadəçisi tərəfindən çəkilən xərc və nağd alınan pulların ümumi həcminin son həddi və aşılmayacağı məbləğ.
2.48. **Skiminq** - xüsusi avadanlıqlar (skimer) vasitəsilə ödəniş kartının maqnit zolağında yazılmış məlumatın və ya kartın ŞEN kodunun dələduzluq əməliyyatlarının aparılması məqsədilə əldə edilməsi.
2.49. **Texniki overdraft** - ödəniş və\və ya əməliyyatlar üzrə məbləğlərin hesabda olan qalıq məbləği üstələməsi nəticəsində yaranmış icazəsiz borc.
2.50. **Bank iş günü** – həmin tarixə aid ödəniş əməliyyatlarının aparıldığı, bankın sutka ərzində iş saatları. Bankın əməliyyat vaxtı www.bankrespublika.az internet səhifəsində yerləşdirilir. Bank əməliyyat vaxtını birtərəfli qaydada dəyişmək hüququnu öz üzərində saxlayır. Bu zaman Bank internet səhifəsi vasitəsi ilə müştərilərini məlumatlandırır.
2.51. **Şəxsi eyniləşdirmə nömrəsi (PİN-kod)** - Bank tərəfindən kart sahibinə və ya onun tərəfindən vəkil edilmiş şəxsə təqdim edilən və kartla əməliyyatların həyata keçirilməsi zamanı kart istifadəçisinin tanınmasında istifadə olunan gizli şifrə.
2.52. **OTP (one-time password)** - Bir komputer sistemində və ya elektron cihazlarda yalnız bir əməliyyat üçün istifadə edilən birdəfəlik PİN və ya parol.
2.53. **ESİ faktorları** – Ekoloji, Sosial və İdarəetmə faktorları.
2.54. **Xidmət Platforması** - Bank xidmətlərinin elektron qaydada məsafədən göstərilməsi üçün bu müqavilənin 17.1-ci maddəsində qeyd olunan üsul və vasitələr.
2.55. **Bu müqavilənin bağlanması anı** - Bu müqavilədə və/və ya razılaşmada qeyd edilmiş prosedura riayət edilməklə iradə ifadəsininin bildirilməsi.
2.56. "**Refund" əməliyyatı**" dedikdə Kart istifadəçisinin Partnyora və ya Müştəriyə müraciəti əsasında alınmış malların, xidmətlərin və işlərin geri qaytarılması və ödənilmiş vəsaitin Kart istifadəçisinin hesabına geri qaytarılması başa düşülür.
2.57. "**Chargeback" əməliyyatı**" dedikdə Kart istifadəçisi tərəfindən əməliyyatın həyata keçirildiyi ödəniş kartının emitentinə təqdim edilmiş etiraz ərizələri ilə Azərbaycan Respublikasının qanunvericiliyində, Bankın daxili qaydalarında, banklararası sazişlərdə və beynəlxalq ödəniş sistemlərinin qaydalarında nəzərdə tutulmuş hallara görə (bununla məhdudlaşmamaq şərtilə, dələduzluq və ya səhvən aparılmış əməliyyatlar, malların, iş və ya xidmətlərin vaxtında və lazımi keyfiyyətdə təqdim edilməməsi (göstərilməməsi) və s.) kart hesablarından silinmiş məbləğlərin Bank tərəfindən geri qaytarılması proseduru başa düşülür.
2.58. "**Mübahisəyə dair təsdiqedici sənədlər**" dedikdə "chargeback" əməliyyatı zamanı mübahisəli hallara dair Partnyorun müdafiə xarakterli təqdim etdiyi (etməli olduğu) sənədlər başa düşülür.

I FƏSİL. QEYRİ-KREDİT MƏHSULLARI

3. Bank hesabı

Bank Müştəriyə onun müraciəti əsasında aşağıda göstərilən şərtlərlə bank əməliyyatlarının aparılması üçün bank hesabı açır:
3.1. **Bank hesabının açılması və əməliyyatların aparılması:**

3.1.1. Bank hesabının açılması üçün Müştəri Banka müraciət edir və hesabın açılması üçün qanunvericiliklə və bankdaxili qaydalarla nəzərdə tutulmuş sənədləri təqdim edir;
3.1.2. Müştəriyə Bankın hesab açа biləcəyi valyuta növləri nəzərə alınmaqla onun müraciətində qeyd edilən valyutada bank hesabı açılır;
3.1.3. Bankın razılığı olmadan hesabdakı vəsaitdən artıq vəsaitin istifadə edilməsi (Limitin aşılması) "Texniki overdraft" hesab olunur;
3.1.4. Ödəniş tapşırığının və onunla birlikdə təqdim edilən hesablaşma sənədlərinin məzmunu və forması qanunla və ona uyğun müəyyənləşdirilmiş Bank qaydaları ilə nəzərdə tutulmuş tələblərə uyğun gəlmədikdə, Bank tapşırığın məzmununu dəqiqləşdirə bilər. Ödəyiciyə bu cür sorğu tapşırıq alındıqdan dərhal sonra verilir. Qanunla və ya ona uyğun müəyyənləşdirilmiş Bank qaydaları ilə nəzərdə tutulmuş müddətdə, bunlar olmadıqda isə ağlabatan müddətdə cavab almadıqda Bank tapşırığı icra etmədən ödəyiciyə qaytara bilər;
3.1.5. Elektron xidmətdən istifadə etməklə icra üçün göndərilən ödəniş sənədləri təsdiq edildiyi tarixdən (təsdiq edilmə tarixi nəzərə alınmadan) 3 (üç) iş günü ərzində Banka təqdim edilir və həmin müddət nəzərə alınmaqla Bank tərəfindən hesabda yetərincə vəsait olduğu halda icra olunur. Sənədin təsdiq edilmə tarixindən 3 (üç) iş günündən sonra ödəniş sənədi qüvvədən düşmüş sayılır və həmin ödəniş sənədinə əsasən hesab üzrə heç bir əməliyyat aparılmır.
3.1.6. Hesab üzrə əməliyyatlar aparıldıqda Müştəriyə onun istəyi ilə hesabdan çıxarışlar verilir.
3.1.7. **Müştəri tərəfindən bank əməliyyatlarının həyata keçirilməsi zamanı Bankın mülahizəsinə əsasən birtərəfli qaydada müəyyən limitlər (məhdudiyyətlər) tətbiq edilə bilər.**
3.2. **Bankın vəzifələri:**
3.2.1. Müştəridən və ya Müştəri üçün daxil olan pul vəsaitini qəbul edərək onun üçün açılmış hesaba salır, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə dair Müştərinin sərəncamlarını yerinə yetirir;
3.2.2. Müştərinin bank hesabı, həmin hesab üzrə aparılan əməliyyatların və Müştəri haqqında məlumatların məxfiliyinə, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, qarantiya verir;
3.2.3. Əmanət hesabına qoyulmuş əmanətin Əmanətçiyə qaytarılmasını təmin edir;
3.2.4. Əmanət üzrə bu müqavilənin Əmanətin şərtləri bölməsində göstərilmiş faiz dərəcəsi ilə faizlərin vaxtında və bu məbləğdən Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş vergilərin və sair ödənişlərin çıxılması şərti ilə verilməsini təmin edir.
3.3. **Müştərinin vəzifələri:**
3.3.1. Cari hesabın açılması üçün Banka təqdim olunan sənədlərdə həqiqi və dürüst məlumatların olmasını təmin edir;
3.3.2. Ünvanı və rekvizitləri dəyişdiyi hallarda, bu dəyişiklik baş verdiyi gündən etibarən 3 (üç) gün ərzində Bankı yazılı xəbərdar edir;
3.3.3. Hesab üzrə əməliyyatları hesabındakı qalıq həddində aparır;
3.3.4. Bank qarşısında yaranmış öhdəliklərinin (kredit, zaminlik, ipoteka, girov, xidmət haqqı üzrə borc və bunlarla məhdudlaşmadan digər öhdəliklərin) icrasının təminatı üsulu olaraq, öz hesablarında olan pul vəsaitlərinin, habelə müştərinin hesabına səhvən və ya texniki xəta əsasında (bankın özünün müstəqil

mülahizəsi əsasında müəyyən edilməklə) köçürülmüş vəsaitlərin, mübahisəsiz (akseptsiz) qaydada silinməsinə razılıq verir;

3.3.5. **Yaranmış "Texniki overdraft"a görə pul vəsaitlərini Bankın tələbi olarsa hesablanmış faizləri ilə birlikdə (illik 42 faiz olmaqla) geri qaytarır;**

3.3.6. Bank tərəfindən bu müqaviləyə uyğun olaraq əlavə sənədlər tələb edildikdə, həmin sənədləri Banka təqdim edir;

3.3.7. Müştərinin müraciəti əsasında əmanət hesabı açıldıqda əmanət məbləğini həmin müraciətin Banka təqdim edildiyi gün əmanət hesabına nağd və ya köçürmə yolu ilə ödəyir.

3.4. Göstərilən xidmətlər üçün tutulan haqların tarif dərəcələri Bank tərəfindən müəyyən edilir və bu haqlar Müştərinin hesabından akseptsiz qaydada silinir. Tarif dərəcələri Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində yerləşdirildikdən sonra Müştəriyə çatdırılmış hesab olunur.

3.5. Bank hesabına aid müddəalar Müştəriyə hesabın açıldığı gündən qüvvəyə minir və qeyri-müəyyən vaxt ərzində qüvvədədir (müqaviləyə xitam verilməsi halı istisnadır).

3.6. Bu müqavilənin bank hesabına aid müddəalarının qüvvədən düşməsi bank hesabının bağlanması üçün əsasdır. Müddəalar aşağıdakı hallarda qüvvədən düşmüş hesab edilir:

3.6.1. Müştərinin müraciəti əsasında - istənilən vaxt;

3.6.2. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında;

3.6.3. Müştərinin hesabında saxlanılan pul vəsaitinin məbləği 6 (altı) ay ərzində 10 (on) manatdan (və ya hesabdakı pul vəsaiti xarici valyutada olduqda bu məbləğin xarici valyutada ekvivalentindən) az olduqda;

3.6.4. Müvəqqəti hesab açılmasından 1 (bir) ay sonra müştəri həmin hesabın bağlanması barəsində Banka ərizə təqdim etmədikdə, Bank tərəfindən birtərəfli qaydada;

3.6.5. Bank tərəfindən birtərəfli qaydada hesab sahibini 1 (bir) ay əvvəlcədən xəbərdar etməklə;

3.6.6. Kart hesabları bu müqavilənin bank kartlarının verilməsi və istifadəsinə dair müddəalarında nəzərdə tutulmuş qaydada ödəniş kartları ləğv edilərsə;

3.6.7. Bank tərəfindən birtərəfli qaydada dərhal, ciddi əsaslar olduqda (çirkli pulların yuyulması, korrupsiya və terrorizmin maliyyələşdirilməsi) və bank hesabı sahibinin bank hesabından digər qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübuta yetirildikdə;

3.6.8. Bu müqavilənin əmək haqqı və/və ya korporativ kartların verilməsi və istifadəsi xidmətinin dayandırılması ilə;

3.6.9. Müştəri yerli və xarici ölkələrin, habelə beynəlxalq sanksiya siyahısına düşdükdə - dərhal;

3.6.10. Hesab üzrə 1 (bir) il ərzində hər hansı əməliyyat aparılmadıqda;

3.6.11. Müştərinin eyniləşdirilməsi və verifikasiyası ilə bağlı tələblər yerinə yetirilə bilinmədiyi, Müştəri ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduğu və/və ya Müştərinin hesab üzrə apardığı əməliyyatların mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün olmadığı hallarda;

3.6.12. Müştərinin Banka təqdim etdiyi sənəd və/və ya məlumatlarda qeyri-dürüst, təhrif olunmuş və ya ziddiyyətli məlumatlar aşkarlandıqda;

3.6.13. Bu müqavilə və qanunvericiliklə tələb olunan sənədlər və/və ya məlumatlar Müştəri tərəfindən 3 (üç) iş günü ərzində Banka təqdim edilmədikdə - dərhal;

3.6.14. Müştərinin ölümü və/və ya məhkəmə qaydasında ölmüş elan edilməsi, o cümlədən xəbərsiz itkin düşmüş hesab edilməsi barədə Banka rəsmi yazılı məlumat təqdim olunduqda;
3.6.15. Bu müqavilə çərçivəsində bağlanan Razılaşmalar üzrə öhdəliklərin icrası Müştəri tərəfindən pozulduqda;
3.6.16. Qanunvericilik və müqavilədə nəzərdə tutulmuş digər hallarda.
3.7. Hesabın qalığı müştəri tərəfindən geri alınmadıqda və ya vəsaitin köçürülməli olduğu yeni hesab Banka bildirilmədikdə, həmin vəsait «Bağlanmış müştəri hesabları» adlı hesaba köçürülür və müştəriyə bu barədə 7 iş günü ərzində yazılı məlumat verilir.
3.8. Bank Müştərinin hesabında olan pul vəsaitindən istifadəyə görə faiz ödəmir.
3.9. Müştərinin vermiş olduğu bank hesablarının açılmasına dair müraciət bu müqavilənin tərkib hissəsi sayılır və müştəriyə müraciətində qeyd etdiyi valyutada bank hesablarının açılması üçün əsasdır.
3.10. Bank hesabları üzrə hesablaşmalar ödəniş anında deyil, bank iş günü ərzində həyata keçirilir.
3.11. Müştərinin müraciəti əsasında açılmış bütün valyutalarda olan bank hesabları ilə əlaqədar Bank ilə müştəri arasındakı münasibətlər bu müqavilə ilə tənzimlənir.
3.12. Tarif dərəcələrinin dəyişdirilməsi halları istisna olmaqla, bu müqaviləyə bütün əlavələr və dəyişikliklər Razılaşmanın bağlanması yolu ilə qüvvəyə minir və hazırkı müqavilənin ayrılmaz tərkib hissəsi sayılır.
3.13. Hesab üzrə Bank ilə olan münasibətlərdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qeyri-iş günləri rəsmi olaraq iş günləri hesab edilmir.
3.14. Bank tərəfindən qəbul edilərkən müştərinin ödəniş sənədlərinin/sərəncamının qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğunluğu yoxlanılır. Ödəniş sənədlərinin/sərəncamının məzmunu və forması qanunvericiliklə və ona uyğun müəyyənləşdirilmiş bankdaxili qaydalarla nəzərdə tutulmuş tələblərə uyğun gəlməlidir. Bu tələblərin pozulması ilə tərtib edilmiş, habelə qüsurlu ödəniş sənədləri qəbul edilmir.
3.15. Müştəri ödəniş sərəncamı verdikdə, ödəniş əməliyyatı avtorizə edilmiş hesab olunur. Ödəniş sisteminə göndərilən ödəniş sərəncamı ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən andan gerigötürülməz hesab olunur. Həmin anadək ödəniş sərəncamından istənilən vaxt imtina edilə bilər. Dövri ödəniş əməliyyatlarının icrası üzrə verilmiş sərəncamdan imtina nəticəsində Müştərinin seçimindən asılı olaraq ancaq icra vaxtı çatmış əməliyyat və ya bütün növbəti ödəniş əməliyyatları avtorizə edilməmiş hesab edilir və icra olunmur.
3.16. Müştəri, Bank ilə ödəniş sərəncamının icra olunması üçün müəyyən günü razılaşdırdıqda, Müştəri ödəniş sərəncamını ən geci razılaşdırılmış gündən əvvəlki iş gününün sonunadək geri götürə bilər.
3.17. Birbaşa debitləşmə alətindən istifadə edildikdə Müştəri ən geci pul vəsaitinin ödəniş hesabından silinməsi üçün müəyyən etdiyi gündən əvvəlki iş gününün sonunadək ödənişin həyata keçirilməsi üzrə verdiyi sərəncamı geri götürə bilər.
3.18. Müqavilənin 3.15 - 3.17-ci bəndlərində qeyd olunmuş müddətlərdən sonra ödəniş sərəncamı yalnız Bank ilə Müştəri arasında bağlanılmış müqavilədə nəzərdə tutulduğu halda və pul vəsaiti vəsait alanın ödəniş hesabına mədaxil edilmədiyi təqdirdə geri götürülə bilər.
3.19. Bank ödəniş sərəncamı qüsurlu olmadıqda, habelə Müştəri ilə bağlanılmış müqavilə ilə müəyyən edilmiş bütün şərtlər yerinə yetirildikdə avtorizə edilmiş ödəniş sərəncamını icraya qəbul edir.

3.20. Avtorizə edilmiş ödəniş sərəncamı əməliyyat günündən sonra təqdim olunduqda ödəniş sərəncamı növbəti əməliyyat günü icraya qəbul edilmiş hesab olunur.
3.21. Bank ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra edir.
3.22. Ödəniş sərəncamında həmin sərəncamın icrası üçün fərqli müddət razılaşdırıla bilər. Razılaşdırılan müddət ödəniş sərəncamının icra müddəti hesab edilir və həmin gün icra edilir. Bu müddət qeyri-iş gününə düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir.
3.23. Ödəniş xidmətinin ödəniş terminalları vasitəsilə göstərildiyi hal istisna olmaqla, digər hallarda Müştərinin xeyrinə Banka daxil olan pul vəsaiti həmin əməliyyat günü Müştərinin ödəniş hesabına mədaxil edilir və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılır. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaiti 5 (beş) iş günündən gec olmayaraq hesaba mədaxil edilir.
3.24. Ödəniş xidmətləri ödəniş terminalları vasitəsilə göstərdikdə ödəyicidən qəbul olunmuş pul vəsaiti 5 (beş) iş günündən gec olmayaraq vəsait alanın ödəniş hesabına köçürülür.
3.25. Bank tərəfindən ödəniş əməliyyatının icra edilməsindən əvvəl ödəniş xidmətləri üzrə "Ödəniş xidməti və ödəniş sistemləri haqqında" Qanunla tələb olunan məlumatlar bankrespublika.az saytında daimi olaraq yerləşdirilmişdir.
3.26. Bank ödəniş sərəncamını icra etdikdən sonra dərhal "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunla tələb olunan məlumatlarla Müştərini mobil əlavə vasitəsilə pulsuz şəkildə məlumatlandırır. Sözügedən məlumatların müştəriyə təqdim edilməsi üçün müştəri mobil cihazına mobil əlavəni yükləməyi öhdəsinə götürür. Müştərinin sözügedən məlumatlar ilə digər əlaqə vasitələri ilə məlumatlandırılması Tariflərə uyğun olaraq həyata keçirilir.
3.27. Müştəri ödəniş əməliyyatının icrasından sonra 6 (altı) ay müddətindən gec olmayaraq hər hansı avtorizə edilməmiş və ya səhv icra olunmuş ödəniş əməliyyatlarını müəyyən etdikdə bu barədə Bankı dərhal məlumatlandırmalıdır. Bank avtorizə edilməmiş ödəniş əməliyyatı haqqında Müştəri bildirişi aldıqdan sonra bu bənddə qeyd olunmuş sübutları 5 (beş) iş günündən gec olmayaraq (ödəniş alətləri ilə ölkə xaricində aparılan əməliyyatlarda isə iştirakçısı olduğu ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilmiş müddətdə) təqdim edə bilmədikdə ödəniş əməliyyatının məbləğini Müştəriyə növbəti iş günündən gec olmayaraq geri ödəyir.
3.28. Bank avtorizə edilməmiş ödəniş əməliyyatının məbləğini bu ödəniş əməliyyatının icrası üçün Müştəridən tutulan bütün xidmət haqları ilə birgə Müştəriyə geri ödəyir.
3.29. Müştəri ödəniş əməliyyatını avtorizə etdiyini inkar etdikdə və ya ödəniş əməliyyatının səhv icra olunduğunu bildirdikdə, Bank ödəniş əməliyyatının autentifikasiya olunduğunu, düzgün qeydə alındığını, ödəniş əməliyyatı üzrə məbləğin Müştərinin müəyyən etdiyi ödəniş hesabına mədaxil edildiyini və ödəniş əməliyyatının texniki nasazlıq və ya ödəniş xidməti təchizatçısının digər nöqsanı nəticəsində təsirə məruz qalmadığını sübuta yetirməlidir.
3.30. Müştəri icra olunmuş ödəniş əməliyyatını avtorizə etdiyini inkar etdikdə, ödəniş alətinin istifadəsi faktı Müştərinin ödəniş əməliyyatını avtorizə etməsini və ya onun dələduzluq məqsədilə hərəkət etməsinə şübhə olmasını və ya təhlükəsizliyin qorunmasıyla bağlı vəzifələri qəsdən və ya kobud ehtiyatsızlıqdan yerinə yetirmədiyini sübuta yetirmək üçün kifayət deyildir. Bu halda Bank fırıldaqçılıq əməliyyatının baş verdiyini və Müştəri tərəfindən kobud ehtiyatsızlığın olunduğunu təsdiq edən aidiyyəti sübutları Müştəriyə təqdim etməlidir.

3.31. Ödəniş xidməti təchizatçısı ödəyici tərəfindən verilən ödəniş sərəncamının icra olunmamasına, səhv icra edilməsinə, həmçinin pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə ödəyici qarşısında məsuliyyət daşıyır. Bu halda ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısı səhv icra edilmiş, əsassız olaraq ödəniş hesabından silinmiş ödəniş əməliyyatı üzrə məbləği dərhal ödəyicinin ödəniş hesabına bərpa etməlidir.
3.32. Ödəyiciyə xidmət edən ödəniş xidməti təchizatçısı ödəniş əməliyyatının vaxtında və düzgün icrasını sübut etdikdə, vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı vəsait alan qarşısında ödəniş əməliyyatının düzgün icra olunmasına görə məsuliyyət daşıyır. Bu halda vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı dərhal ödəniş əməliyyatı üzrə məbləği vəsait alanın ödəniş hesabına daxil etməli və ya ödəniş hesabı olmadıqda vəsait alanın sərəncamına verməlidir.
3.33. Ödəniş xidməti təchizatçısı icra edilməmiş, səhv icra edilmiş ödəniş əməliyyatlarının icrası üzrə və ya pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə məsuliyyət daşıdığı halda, ödəniş xidməti istifadəçisi tərəfindən ödənilən xidmət haqları və digər xərclərin məbləği də kompensasiya edilməlidir.
3.34. Ödəniş xidməti istifadəçisi icra edilməyən, səhv icra edilən ödəniş əməliyyatlarına və ya pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə ödəniş xidməti təchizatçısından ödəniş əməliyyatı üzrə məbləğ, xidmət haqqı və digər xərclərdən əlavə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449-cu maddəsinə uyğun olaraq faizlərin ödənilməsini tələb edə bilər.
3.35. Ödəniş xidməti təchizatçısı ödəniş xidməti istifadəçisi tərəfindən ödəniş sərəncamında səhv göstərilmiş məlumatlara görə ödəniş sərəncamının icra edilməməsi və ya səhv icra olunması üçün məsuliyyət daşımır.
3.36. Ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısı icra edilməmiş, səhv icra edilmiş ödəniş əməliyyatı üzrə və pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsi üzrə ödəyicinin tələbi əsasında xidmət haqqı tələb etmədən ödəniş əməliyyatının icrasını izləməli və bu haqda ödəyicini məlumatlandırmalıdır. Bu halda vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısına qanunla qadağan olunmayan məlumatları təqdim etməlidir.
3.37. Ödəniş sərəncamı vəsait alan tərəfindən verildikdə ona xidmət göstərən ödəniş xidməti təchizatçısı ödəniş sərəncamının ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısına vaxtında və düzgün göndərilməsi üzrə vəsait alan qarşısında cavabdehdir.
3.38. Ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısı vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı tərəfindən göndərilən ödəniş sərəncamının icra edilməməsinə və ya səhv icra edilməsinə görə məsuliyyət daşıyır. Bu halda, ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısı səhv icra edilmiş ödəniş sərəncamı üzrə vəsaitin dərhal ödəyicinin ödəniş hesabına bərpa edilməsini və ya tələb olunduqda ödəniş sərəncamının düzgün icrasını təmin etməlidir.
3.39. Vəsait alan tərəfindən ödəniş sərəncamı ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısına birbaşa təqdim edildikdə ödəniş xidməti təchizatçısı yuxarıda qeyd olunmuş qaydada məsuliyyət daşıyır.
3.40. Ödəniş sərəncamı vəsait alan tərəfindən verildikdə, ona xidmət göstərən ödəniş xidməti təchizatçısı icra edilməmiş və ya səhv icra edilmiş ödəniş əməliyyatı üzrə vəsait alanın tələbi əsasında xidmət haqqı tələb etmədən ödəniş əməliyyatının icrasını izləməli və bu haqda vəsait alanı məlumatlandırmalıdır.

3.41. Ödəyici birbaşa debitləşmə üzrə ödəniləcək məbləğ limitini müəyyən etməlidir. Ödəyiciyə xidmət edən ödəniş xidməti təchizatçısı vəsait alan tərəfindən verilən ödəniş sərəncamı üzrə ödəyicinin müəyyən etdiyi ödəniş məbləğindən yüksək məbləğdə ödəniş əməliyyatı apardığı təqdirdə artıq ödənilmiş məbləği geri ödəməlidir. Ödəyici bu halda vəsaitin onun ödəniş hesabından silindiyi tarixdən 2 (iki) ay müddətində ona xidmət göstərən ödəniş xidməti təchizatçısına müraciət edə bilər.
3.42. Ödəniş xidməti təchizatçısı ödəniş əməliyyatı üzrə məbləğin geri ödənilməsi barədə ödəyicinin müraciəti daxil olduqdan sonra 5 (beş) iş günü müddətində yuxarıda qeyd olunmuş hala uyğun olaraq artıq ödənilmiş məbləğin geri ödənilməsini təmin etməli və ya imtinanın səbəbləri haqqında əsaslandırılmış məlumatı ödəyiciyə təqdim etməlidir.

3.43. Əmanətlərin Sığortalanması Fondu, Bank və Əmanətçi

3.43.1. Bank «30» İyul 2007-ci il tarixindən Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra – «Fond») iştirakçısı olaraq (10 saylı Şəhadətnamə) Fonda sığorta haqqı ödəyir (bu haqq Əmanətçidən tutulmur);
3.43.2. Bank tərəfindən Əmanətçidən bütün müvafiq valyutalarda qəbul edilmiş əmanətlər Fond tərəfindən sığortalanır.
3.43.3. Sığorta hadisəsi - Bankın məcburi ləğvi və ya müflis elan olunması, Bankın Əmanətçi qarşısında əmanət üzrə öhdəliklərinin yerinə yetirilməsinə məhkəmə tərəfindən moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və Bankın Əmanətçi qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra Mərkəzi Bank) tərəfindən təsdiq edilməsidir;
3.43.4.Sığorta hadisəsi baş verdikdə, Fond aşağıdakı kütləvi informasiya vasitələrində Əmanətçiyə kompensasiya ödənilməsi yeri və vaxtı haqqında elan verir: AzTV; İctimai TV; Azərbaycan qəzeti; Respublika qəzeti; Xalq qəzeti; AzərTAC informasiya agentliyi; APA informasiya agentliyi;
3.43.5. Fonddan kompensasiya almaq üçün Əmanətçi kütləvi informasiya vasitələrində göstərilən yerə yazılı ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

a) Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiqləyən digər sənəd;
b) Əmanət kitabçası və ya əmanəti təsdiqləyən digər sənəd;
c) Bank əmanəti müqaviləsi;
d) Kompensasiya almaq üçün əmanətçinin nümayəndəsi müraciət etdikdə o, əlavə olaraq notariat qaydasında təsdiq olunmuş etibarnaməni Fonda təqdim etməlidir.

3.43.6. Ərizənin verildiyi tarixdən etibarən 30 (otuz) gün müddətində Fond tərəfindən Əmanətçiyə kompensasiya ödənilməlidir. Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Əmanətçinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında elanı ilk dəfə dərc etdiyi gündən 5 (beş) il müddətində saxlanılır;
3.43.7. Aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:

a) Bankın AR ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;

b) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;

c) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;

d) üzərinə həbs qoyulmuş əmanətlər;

e) cəlb edildiyi günə "Əmanətlərin sığortalanması haqqında" AR Qanunun 8.1.20-ci bəndinə uyğun olaraq müəyyən edilmiş həddən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər (qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi Mərkəzi Bankla razılaşdırılmaqla Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilir);

f) fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 (iyirmi) min manatdan yuxarı pul vəsaitləri;

g) fiziki şəxslərin Bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri.

3.43.9. Fond sığorta hadisəsi baş verdikdə Əmanətçiyə əmanətin məbləğinin qanunvericiliklə nəzərdə tutulmuş həcmində kompensasiya ödəyir.

3.43.10. Fond kompensasiyanı milli valyutada olan əmanət üzrə manatla, ABŞ dollarında olan əmanət üzrə ABŞ dollarında, AVRO-da olan əmanət üzrə isə AVRO-da Əmanətçiyə ödəyir. Əmanət ABŞ dolları və ya AVRO-da olmadıqda kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Azərbaycan Respublikasının Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir. Fond əmanət üzrə faizləri sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə Əmanətçiyə ödəyir;

3.43.11. Əmanətçinin Bankda bir neçə əmanəti yaxud həmin əmanətlər müxtəlif valyutalarda olduğu zaman, Fond həmin əmanətləri toplayır və bir əmanət kimi kompensasiya olunur. Əmanətçinin Fondun hər hansı digər iştirakçı Bankında olan əmanətinə isə ayrıca əmanət kimi baxılır və kompensasiya ödənilir;

3.43.12. Fond kompensasiyanın ödənilməsi üçün səhv və ya yanlış məlumatlar təqdim etmiş, yaxud qanunsuz olaraq kompensasiya alınması üçün müraciət etmiş şəxslərə kompensasiya ödəməkdən imtina edir və ya ödənilmiş məbləğin geri qaytarılmasını tələb edir.

3.43.13. Bank Əmanətçinin yazılı və ya şifahi sorğularına cavab olaraq, Bankın sığorta sistemində iştirakı, qorunan əmanətlər və kompensasiyalar barədə Əmanətçiyə məlumat verir;

3.43.14. Əmanətçi aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsi ilə Fondla əlaqə saxlaya bilər: AZ1014, Bakı şəhəri, Bül-bül prospekti 40, 4-cü mərtəbə; əlaqə tel: (99412) 596 65 91, 596 65 92, 596 65 93; Faks: (99412) 596 65 94; e-mail: adif@adif.az; sayt: www.adif.az

3.43.15. Faizləri "Əmanətlərin sığortalanması haqqında" AR Qanununun 8.1.20-ci maddəsinə müvafiq olaraq Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər məbləğindən asılı olmayaraq Fondun iştirakçı bankları tərəfindən "Əmanətlərin tam sığortalanması haqqında" AR Qanununa əsasən tam sığortalanır.

4. Əmanət hesabının açılması

4.1. Müştərinin müraciəti ilə əmanət hesabı açıldıqda Bank Əmanətçidən pul məbləğini qəbul edərək sözügedən müraciətdə nəzərdə tutulmuş şərtlərlə və qaydada Əmanət məbləğini Əmanətçiyə qaytarır və onun üçün faizlər ödəyir.
4.2. Bankla Əmanətçi arasında bütün hesablaşmalar Əmanətin qoyulduğu valyuta ilə aparılır.
4.3. Əmanət hesabına qoyulmuş pul vəsaitləri (Əmanət məbləği) buna dair Bank və Müştəri arasında müvafiq razılaşmanın bağlanması tarixinədək artırılmır və/və ya azaldılmır.
4.4. Əmanətin müddəti bitərsə və ya əmanət vaxtından əvvəl götürülərsə, əmanət məbləğinin Əmanətçinin və ya üçüncü şəxslərin Bank qarşısında olan öhdəliklərinin (kredit, qarantiya və s.) təminatı kimi girov ilə yüklü edildiyi hallar istisna olmaqla Əmanətçinin cari hesabına köçürülür.
4.5. Əmanətin məbləğinə faizlər bu məbləğin əmanət hesabına daxil olduğu günün ertəsi günündən məbləğin Əmanətçiyə qaytarılmasından və ya başqa əsaslarla Əmanətçinin hesabından silinməsindən əvvəlki günədək hesablanır.
4.6. Faizlər faktiki alınmasından və ya verilməsindən asılı olmayaraq gündəlik hesablanır. Bu zaman hesabat ili 360 gün, hesabat rübü 90 gün, hesabat ayı isə 30 gün nəzərdə tutulur. Hesablama aparılarkən günlərin sayı 31 gün olan aylarda sonuncu gün nəzərə alınmır, fevral ayında isə müvafiq olaraq 1 - 2 gün əlavə olunur.
4.7. Əmanətin məbləğinə hesablanan faizlər Əmanətçiyə bu müqavilədə nəzərdə tutulmuş qaydada əmanətin məbləğindən ayrılıqda ödənilir. Faizlər Əmanətçiyə köçürmə yolu ilə ödənilir. Hesablanan, lakin götürülməyən faiz məbləği Əmanət məbləğini artırmır.
4.8. Əmanət müştərinin müraciətində qeyd edilmiş müddətin sona çatmasından əvvəl Əmanətçinin tələbi ilə ona qaytarıldıqda və ya digər qanuni əsaslarla onun hesabından silindikdə Əmanət vaxtından əvvəl çıxarılmış hesab olunur və əmanət hesabı bağlanılır. Bu halda Əmanət üzrə Əmanətin Bankda faktiki qaldığı müddətdən asılı olaraq faiz məbləğinin hesablanması və ödənilməsi qaydası müvafiq əmanət hesabının açılmasına dair əlavə ilə tənzimlənir.
4.9. Faktiki ödənilmiş faiz məbləği ödənilməli olan faiz məbləğindən çoxdursa, onlar arasında olan fərq bankın seçiminə uyğun olaraq ya Əmanətin məbləğindən ya da gələcəkdə hesablanacaq faizdən çıxılır.
4.10. Azərbaycan Respublikasının vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada ödəmə mənbəyindən vergi tutulur və büdcəyə köçürülür.
4.11. Əmanətin müddəti bitdikdən onun müddətinin birtərəfli qaydada uzadılması Müştəri ilə Bank arasında bağlanılacaq Razılaşmalar əsasında müəyyən edilir.
4.12. Hesabın açılması və Bank xidmətlərinin göstərilməsinə görə Müştəri Bankın qüvvədə olan və https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən xidmət tariflərinə uyğun olaraq komissiya haqları ödəyir.
4.13. **Əmanətçi ilə Bank arasında əmanət məbləğinə aid olan və bu müqavilə ilə tənzimlənməyən digər məsələlər (müddət, faiz və s.), həmçinin, əmanət növünün seçilməsi (standart əmanət, yığım əmanəti və s.) tərəflər arasında əmanət yerləşdirilərkən bağlanılacaq müvafiq Razılaşma ilə tənzimlənəcək. Həmin Razılaşma bu müqavilənin tərkib hissəsi hesab ediləcək**.
4.14. Elektron sənəd mübadiləsi yolu ilə əmanət məbləğinin müvafiq əmanət hesabına mədaxil edilməsi və/və ya əmanət hesabının açılmasına dair müvafiq Razılaşmanın bağlanması, bank hesabından çıxarış müştəri tərəfindən əmanət məbləğinin Bankda yerləşdirilməsini təsdiq edir.

4.15. Əmanət müqaviləsinə xitam verilməsi əsasları bu müqavilənin 4.15-ci bəndində qeyd edilmiş Razılaşma və qanunvericiliklə tənzimlənir.

5. Ödəniş kartlarının əldə olunması və istifadəsi

5.1. Aşağıda qeyd olunan müddəalar Bank tərəfindən buraxılan, Respublika ərazisində və xaricdə istifadəsi nəzərdə tutulan kartların verilməsi və ondan istifadə edilməsi ilə bağlı Bank və Kart sahibi, yaxud Kart istifadəçisi arasında hüquq münasibətlərini tənzimləyir.

5.2. Kartın verilməsi müştərinin müraciəti və bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən Razılaşma əsasında həyata keçirilir. Razılaşma əsasında Müştəriyə kartın verilməsi bu müqavilənin Bank kartlarının verilməsinə və istifadəsinə dair müddəalarında qeyd olunmuş hüquq və öhdəliklərin icrasını tərəflər üçün məcburi qüvvəyə malik edir. Müştərinin müraciəti Bankda ona kart verməsi öhdəliyini yaratmır.

5.3. Əlavə kartlarla aparılan bütün əməliyyatlar üçün tam məsuliyyəti Kart sahibi daşıyır.

5.4. Əlavə kart sahibinin adına arayış hesab sahibinin özünə və ya onun razılığı ilə (şəxsi iştirakı və ya notarial qaydada təsdiqlənmiş razılıq ərizəsi ilə) əlavə kart sahibinə təqdim edilə bilər.

5.5. **Kart sahibi əlavə kart istifadəçisini bu müqaviləyə əlavə edilən "Bank Respublika" ASC-nin bank kartlarından istifadə və xidmət Qaydaları" və Bankın** https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində olan **tariflərlə bağlı məlumatlandırmalıdır.**

5.6. Kart sahibi kartdan istifadə ilə bağlı yaranan borcu, faizləri, komissiya haqlarını və digər ödəmələri ödəməyi öhdəsinə götürür. Bank əməliyyat vaxtı (hesabdan pul vəsaiti silinərkən) xarici valyutanın hesablaşma valyutasına konvertasiya üçün əlavə komissiya haqqı almaq hüququna malikdir.

5.7. Kart sahibi kart əməliyyatlarının aparıldığı tarixdən asılı olmayaraq əməliyyat məbləğinin hesabdan silindiyi tarixdə qüvvədə olan faiz və komissiya haqları ilə hesabından silinəcəyi və ya borc kimi qeyd ediləcəyini qəbul edir.

5.8. **Borcların ödənilməsi:**

5.8.1. Kart sahibi yaranmış borcu Banka ödəməlidir. Nağd pul alma əməliyyatına görə hesablanan komissiya haqqı Bank tərəfindən nağd pul alma tarixində tətbiq olunur;

5.8.2. Kart sahibi və ya Kart istifadəçisi limitini aşdığı təqdirdə, kartın istifadəsini dayandıracağını qəbul edir, bu müqaviləyə əsasən olan bütün borc və öhdəlikləri təcili yerinə yetirəcəyini və bununla əlaqədar hesablanacaq cəriməni ödəməyi öhdəsinə götürür;

5.8.3. Kart sahibi və ya Kart istifadəçisi tərəfindən bu müqaviləyə əsasən yaranmış borclar vaxtında ödənilmədiyi təqdirdə, Bank Kart sahibinin istənilən hesabında olan vəsait hesabına məhkəmədənkənar qaydada borcu bağlamaq hüququna malikdir.

5.9. Kartın üzərində yazılan sonuncu istifadə etmə tarixindən sonra kartın istifadə edilməsi ilə bağlı olan hər cür məsuliyyəti Kart sahibi və ya Kart istifadəçisi daşıyır.

5.10. Əlavə kartın bağlanması üçün Kart sahibi Banka yazılı ərizə ilə müraciət etməli və əlavə kartı geri qaytarmalıdır.

5.11. Kart sahibi hər bir kart üçün Bank tərəfindən müəyyən edilmiş miqdarda xidmət haqqı ödəyir. Kart sahibi kartı dəyişmək barədə Banka müraciət etdikdə, xidmət haqqı Kart sahibinin hesabından silinir, nağd şəkildə Kart sahibi tərəfindən ödənilir və ya borc kimi yazılır. Kart Bankın mülkiyyətidir və lazım olduqda Bank kartı Kart sahibi və ya Kart istifadəçisindən ala bilər. Kart sahibi və ya Kart istifadəçisi kartın itməsi, oğurlanması və ya üzərində təhriflər edilməsi üçün məsuliyyət daşıyır. Bu barədə məlumatın daxil olduğu vaxtdan etibarən 30 (otuz) təqvim günü ərzində bu kartla aparılan əməliyyatlara görə Kart sahibi məsuliyyət daşıyır.

5.12. Kartın sonuncu istifadə etmə tarixindən əvvəl qanunazidd məqsədlərlə istifadə edilməsi, limitin aşılması və ya Kart sahibinin bu müqavilə ilə müəyyən edilmiş şərtlərin hər hansı bir müddəasına əməl etməməsi, altı ay ərzində fasiləsiz olaraq kartla heç bir əməliyyatın aparılmaması səbəbi ilə yaxud səbəb göstərmədən bank kartın istifadə edilməsini dayandıra bilər. Bundan əlavə, Kart sahibinin müflisləşməsi və onun başqa şəxsin qəyyumluğuna, himayəçiliyinə, tabeçiliyinə keçməsi ilə əlaqədar olaraq Bank bu müqaviləni və bu müqavilənin 5.2-ci bəndində qeyd edilmiş Razılaşmanı birtərəfli qaydada ləğv etmək və Kart sahibindən alacağı məbləği tələb etmək hüququna malikdir.

5.13. Bank səbəb göstərmədən, Kart sahibi və ya Kart istifadəçisindən kartın geri qaytarılmasını tələb edə, kartdan Kart sahibinin və ya Kart istifadəçisinin iradəsi əleyhinə, qanunazidd məqsədlərlə və qanunla nəzərdə tutulmamış qaydada istifadə edildikdə kartı bloklaşdıra və bu barədə Kart sahibinə məlumat verə bilər. Bundan əlavə, Bank istifadə müddəti başa çatmış kartın dəyişdirilməsindən imtina edə bilər. Bank tərəfindən kartın fəaliyyətinin dayandırıldığı və kartın dəyişdirilməsindən imtina edildiyi halda, Kart sahibi Bank qarşısında olan borc və başqa öhdəliklərini bütövlüklə yerinə yetirənə qədər bu müqavilənin müddəalarının qüvvədə olduğunu qəbul edir.

5.14. Kart sahibi kartın fəaliyyətinin dayandırılmasına baxmayaraq, ondan istifadə etdiyi halda yaranacaq borc və cərimələrin ödənilməsini öhdəsinə götürür.

5.15. **Kart sahibi və ya Kart istifadəçisinin məsuliyyəti:**

5.15.1. Kart sahibi hər hansı bir səbəbə görə kartın üçüncü şəxslər tərəfindən istifadə edilməsinə məsuliyyət daşıdığını, bu barədə Banka şikayət və etiraz etməyəcəyini, belə hallarda Bankın çəkəcəyi ziyanı ödəyəcəyini qəbul edir və öhdəsinə götürür;

5.15.2. Kart sahibi və ya Kart istifadəçisi hər hansı bir səbəb üzündən avtorizasiyaya etiraz edilməsində Bankın cavabdehlik daşımadığını qəbul edir. Kart sahibi və ya Kart istifadəçisi kartın heç bir qanunsuz əməliyyatda, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olan hər hansı bir mal və xidmətin alınmasında istifadə etməməyi öhdəsinə götürür;

5.15.3. Kart hesabını bağlamaq üçün Kart sahibi Bankın istənilən filial və şöbəsinə yazılı müraciət təqdim etməli və kartını, hesabına bağlı olan əlavə kartlar olduğu təqdirdə, bütün əlavə kartları təhvil verməlidir. Kart Banka təhvil verilmədikdə itirilmiş hesab olunur. Kartın itirilməsinə görə Bank müvafiq komissiya tətbiq edir.

5.15.4. Kartın üzərində qeyd edilmiş ondan istifadə müddəti bitdiyi təqdirdə Kart sahibi həmin müddətin bitməsindən sonra ən geci 3 (üç) ay müddətində kartın müddətinin uzadılması və ya kartın geri qaytarılması məqsədi ilə Banka müraciət etməlidir.

5.15.5. Kart sahibi və ya Kart istifadəçisi kartdan istifadə etməklə yalnız hesabdakı qalıq pul vəsaitləri həcmində əməliyyatlar həyata keçirməli, hesab üzrə overdrafta yol verməməlidir. Texniki overdraft yaranarsa, həmin vəsaitə texniki overdraftın yarandığı tarixin 6-cı günündən (biznes kartlara münasibətdə

15-ci günündən) etibarən Bank tərəfindən illik 42% olmaqla faiz hesablanır. Qeyd olunan faizlərin hesablanması limitdən artıq vəsaitin istifadə olunduğu halda tətbiq olunur;
5.15.6. Bank saxta kartlar üzrə aparılmış əməliyyatlara görə heç bir məsuliyyət daşımır;
5.15.7. Bank Skiminqə görə məsuliyyət daşımır. Belə kartlarla aparılmış əməliyyatlar nəticəsində Kart sahibinə dəymiş ziyana görə Kart sahibi özü məsuliyyət daşıyır;
5.15.8. Əgər Kart sahibinin hesabından silinmə tarixindən 90 təqvim günü keçərsə və Kart sahibi həmin əməliyyat barədə Banka irad bildirməzsə, həmin əməliyyat Kart sahibi tərəfindən qəbul olunmuş hesab edilir və Banka qarşı bu əməliyyatla bağlı, Kart sahibi hər hansı bir etiraz etməyəcəyini qəbul edir və öhdəsinə götürür.
5.16. Bankın sənədləri, yazıları, kompüter məlumatları daxil olmaqla irad bildirilmə tarixindən asılı olmayaraq bütün hallarda qəti dəlil sayılır.
5.17. Bu müqavilə ilə nəzərdə tutulmuş və əsas karta aid edilən müddəalar əlavə karta da şamil edilir və əlavə kart üzrə yaranan münasibətlər bu müqavilə ilə tənzimlənir.
5.18. Müştəriyə təqdim edilən kartlarda yeni texnoloji və ya digər xüsusiyyətlər (yeni funksiyalar) tətbiq edilə və ya Müştəriyə yeni funksiyalı kartlar təqdim edilə bilər. Müştəri həmin funksiyaları əldə etmək üçün Bankın müəyyən etdiyi prosedurları icra etməklə (və ya funksiyalardan istifadə etməklə) onlarla razı olduğunu, onların şərtlərini anladığını və bununla bağlı öhdəlik daşıdığını təsdiq edir. Tətbiq ediləcək yeni funksiyalar üzrə Bankın tarifləri və şərtləri tətbiq edilir. Həmin funksiyalar barədə ətraflı məlumat və ümumiyyətlə, bankın əmlakı sayılan kartlar, onların verilməsinə görə tələb edilən minimum mədaxil məbləğləri və qaydalar Bankın rəsmi internet səhifəsində yerləşdirilə və ya Müştəriyə digər formada çatdırıla bilər.
5.19. Ödəniş kartı ilə əməliyyatlar hesabdakı valyutadan fərqli valyutada aparıldıqda vəsait əməliyyatın aparıldığı gün deyil, hesabdan silindiyi günün məzənnəsinə uyğun olaraq hesabdan silinir.
5.20. Ödəniş kartları ilə mübadilə əməliyyatları Bankın ödəniş kartları üçün tətbiq etdiyi məzənnələr əsasında həyata keçirilir. Sözügedən məzənnələr Bankın rəsmi internet səhifəsində yerləşdirilir.
5.21. Məsuliyyətin ötürülməsi qaydasının (liability shift rule) tətbiq edilmədiyi ölkələrdə icra olunan əməliyyatlar zamanı yaranan fırıldaqçılıq hallarına görə Bank kart istifadəçisi qarşısında məsuliyyət daşımır. Bu kateqoriyaya aid ölkələrdə aparılan əməliyyatlar zamanı Bankın rəsmi saytında https://www.bankrespublika.az/az/pages/tehlukesizlik-qaydalari_1270 yerləşdirilmiş təhlükəsizlik qaydalarına riayət edilməlidir.
5.21. **Mübahisəli əməliyyatlar**
5.21.1. "Refund" əməliyyatları Partnyor və Müştəri arasında ayrıca tənzimlənir. Bank həmin əməliyyatlar üçün, o cümlədən pul vəsaitinin geri qaytarılması zamanı ödənilmiş komissiya haqqının geri qaytarılması üçün məsuliyyət daşımır.
5.21.2. "Refund" əməliyyatları zamanı Bank öz daxili qaydalarında nəzərdə tutulan hallarda və müddət ərzində Müştərinin müraciəti əsasında müvafiq məbləğlərin onun hesabından silinərək Kart istifadəçisinin hesabına köçürülməsini təmin edə bilər. Bu halda Bank Müştərinin hesabından müvafiq vəsaiti akseptsiz qaydada silə bilər.
5.21.3. "Chargeback" əməliyyatları zamanı mübahisələrin (əməliyyatların) araşdırılması üçün Bank vəsaitin köçürüldüyü hesabın sahibi ilə əlaqə saxlayır. Mübahisənin araşdırılması Bankın daxili qaydalarına uyğun olaraq həll edilir.

5.21.4. "Chargeback" əməliyyatları zamanı müvafiq mübahisəyə dair təsdiqedici sənədlərin təqdim edilməsi Müştərinin öhdəliyidir. Lakin Bank öz mülahizəsinə uyğun olaraq müvafiq mübahisəyə dair təsdiqedici sənədləri Müştəridən də tələb edə bilər.

6. "Əmək haqqı" və/və ya "Korporativ" kartların əldə edilməsi və istifadə olunması

6.1. Bu müqaviləyə qoşulmaqla Müştəri işçiləri üçün korporativ və ya əmək haqqı kartları sifariş edə bilər.
6.2. Korporativ kart fiziki şəxsin (Müştərinin) işçilərinin ezamiyyə, nümayəndəlik və digər xərclərinin ödənilməsində istifadə olunur.
6.3. Bank Müştərinin işçiləri üçün Azərbaycan manatı ilə kart hesabı (manat hesabı) açır və hesablaşma əməliyyatlarının, nağdsız ödənişlərin və nağd pul vəsaitinin əldə edilməsi ilə bağlı əməliyyatların aparılmasını təmin edir.
6.4. Bank Müştərinin göstərişinə və vəsaiti hesabına işçilərin (ərizə ilə müəyyən edilmiş) kart hesablarına pulun (əmək haqqı) yerləşdirilməsini həyata keçirir, Müştəri isə hər ay onun bank hesabındakı vəsaitin kart hesablarına silinmələrlə əlaqədar xidmət haqqının tutulmasına və digər xərclərin silinməsinə kifayət edəcək qədər olmasını təmin edir.
6.5. Bank tərəfindən xidmətlərin göstərilməsi ilə bağlı xidmət haqqı Müştərinin hesabından Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən tariflərinə uyğun olaraq bu müqavilə əsasında Bank tərəfindən əlavə sənəd təqdim edilmədən müvafiq xidmətin göstərildiyi vaxta mövcud olan tariflərlə silinir.
6.6. Müştərinin səlahiyyətli nümayəndəsi etibarnamə ilə Banka yaxınlaşaraq Müştəriyə məxsus olan kartların, kart hesablarının nömrələrini və şən zərfləri götürə bilər.
6.7. Müştərinin işçiləri şəxsiyyətlərini təsdiq edən sənəd ilə Banka yaxınlaşaraq özlərinə məxsus kartları, kart hesablarının nömrələrini və ŞEN zərfləri götürə bilər.
6.8. **Müştərinin hüquqları:**
6.8.1. Bu müqavilə ilə müəyyən edilmiş qaydada təqdim edilmiş ödəniş tapşırığına uyğun olaraq işçilərin kart hesablarına vəsaitin vaxtlı-vaxtında köçürülməsini tələb etmək;
6.8.2. Kart İstifadəçisinin kartdan istifadə etmək hüququnu istənilən vaxt ləğv etmək;
6.8.3. Korporativ kartı blokdan azad etməklə bağlı Banka müraciət etmək.
6.9. **Müştərinin öhdəlikləri:**
6.9.1. Kartların istifadə edilməsi zamanı yaranmış problemlərin aradan qaldırılması və sualların cavablandırılması istiqamətində bir neçə məsul şəxs təyin edir və həmin şəxslər barədə Banka yazılı məlumat verir (telefon nömrəsi, e-mail adresi və s);
6.9.2. Bu müqavilənin şərtlərinə əsasən, Bankdan işçilərin adına kartları və şəxsi eyniləşdirmə nömrələrini (PİN kod) alacaq, onları işçilərə təqdim edəcək və işçilərini "Bank Respublika" ASC-nin bank kartlarından istifadə və xidmət qaydaları və tariflərlə bağlı məlumatlandıracaq;
6.9.3. Kart istifadəçilərini bu müqavilənin 6.11.3-cü bəndində qeyd olunan silinmələrin beynəlxalq ödəniş sistemi olan "Visa International / MasterCard Worldwide" qaydaları ilə həyata keçirilməsi barəsində məlumatlandırır və həmin Qaydalarla onları www.mastercard.com və www.visa.com saytlarından istifadə etməklə təlimatlandırır;

6.9.4. Bank tərəfindən məlumatların uyğunsuzluğu ilə bağlı müraciət daxil olduğu halda dərhal Banka düzgün məlumatların təqdim edilməsini təmin edir;
6.9.5. İşçilərin işdən azad edilməsi ilə bağlı əmr imzalandıqdan sonra 3 gün ərzində Bankı bu barədə məlumatlandırır;
6.9.6. Kart İstifadəçisinin kartdan istifadə hüququnu ləğv etmək haqqında niyyətini (olduqda) Banka dərhal bildirməlidir;
6.9.7. Kart istifadəçilərini şəxsi eyniləşdirmə nömrəsinin (PİN kod) itirilməsi və ya internet resurslarından istifadə edilməsi ilə bağlı yaranmış problemlərə görə özlərinin məsuliyyət daşıması barədə məlumatlandırır;
6.9.8. İşçilərinə bu müqaviləyə edilmiş "Bank Respublika" ASC-nin "Ödəniş kartından istifadəyə dair" Əlavəni təqdim etməklə onlar tərəfindən imzalanmasını həyata keçirir. Sözügedən Əlavənin işçilər tərəfindən imzalanmaması və/və ya imzalanıb Banka təqdim edilməməsinə görə Banka dəymiş zərərə görə Müştəri məsuliyyət daşıyır;
6.9.9. Korporativ kartdan təyinatı üzrə hesablaşmalar aparılmasını təmin edir;
6.9.10. Korporativ kartın alınması üçün hər yeni müraciət əsasında, seçimi əsasında yeni cari hesab açmalı və ya köhnə cari hesaba bağlamalı, həmin hesab əsasında korporativ kart əldə etməlidir;
6.9.11. Hər bir korporativ karta münasibətdə müvafiq limitlər müəyyən edə, limitlər müəyyən olunmadığı halda qüvvədə olan qanunvericiliyə əsasən vəsaitdən istifadə edə bilər;
6.9.12. Bu Razılaşmanı imzalamaqla razılaşır ki, Banka təqdim edilmiş siyahıya əsasən ödəyicilərə verilmiş müvafiq kodla, hasilat təyinatı göstərilməklə ödəniş terminalları vasitəsilə korporativ karta (kartlara) qanunvericiliklə nəzərdə tutulan həddə vəsait mədaxil oluna bilər;
6.9.13. Kartlar Müştərinin özünə və ya onun müvafiq qaydada müvəkkil edilmiş şəxsinə təhvil verilir. Kartlar Bank tərəfindən müvafiq şəxslərə təhvil verildiyi andan bu kartlarla bağlı yarana biləcək istənilən və bütün risklərin, zərər daxil olmaqla, öz üzərində olduğunu təsdiq edir.
6.9.14. İstifadəçi və ya üçüncü şəxslər tərəfindən elektron cihazlar vasitəsilə (kompüter, mobil telefon, ATM (bankomat kartlarla nağd pulun verilməsi üçün istifadə olunan bank avtomatlarıdır), özünə xidmət (ödəniş) terminalları və bu məqsədlə istifadə edilə bilən istənilən digər elektron cihaz nəzərdə tutulur) və/və ya elektron xidmətlərlərdən istifadə zamanı korporativ kart(lar) aid olan hesablar haqqında məlumatların əldə edilməsinə razılığını bildirir, habelə Müştəri razılaşır ki, həmin məlumatların hər hansı səbəbdən üçüncü şəxslərə yayılmasına görə Bank məsuliyyət daşımır.
6.9.15. Özü, işçi və ya istifadəçi barəsində olan şəxsi məlumatlar (adı, soyadı, atasının adı, şəxsiyyətini təsdiq edən sənəd, yaşayış yeri və s.) dəyişdikdə, bu barədə Bankı dərhal yazılı surətdə məlumatlandırır;
6.9.16. Hesabda olan pul vəsaitindən hər hansı qeyri-qanuni məqsəd, o cümlədən çirkli pulların yuyulması (qeyri-qanuni yolla əldə edilmiş gəlirlərin leqallaşdırılması) və terrorizmin maliyyələşdirilməsi üçün istifadə etməyəcəyinə təminat verir, habelə Unique, Quasi Cash və s. qanunvericiliklə qadağan edilən mərc, qumar oyunlarında oynanılmamasına təminat verir və buna görə məsuliyyət daşıyır və bununla bağlı işçiləri və istifadəçilərini məlumatlandırır;
6.9.17. Müştərinin hesabından pul vəsaitinin öz işçilərinin kart hesablarına silinməsinin həyata keçirilməsini Banka həvalə edir.
6.10. **Bankın öhdəlikləri:**

6.10.1. Bu müqaviləyə əsasən Müştəri tərəfindən təqdim edilmiş ərizənin bankdaxili qaydalara uyğunluğunu yoxlayır, işçilər üçün kart hesabı açır və açılmış hesablar barədə siyahı tərtib edərək Müştəriyə təqdim edir;
6.10.2. Kart və PİN kodların yerləşdirildiyi zərfləri hazırlayır və bu barədə Müştərini məlumatlandırır, korporativ kart üçün PİN kodun təyini ilə əlaqədar "PİN Set" (Yeni PİN kodun təyini) xidmətini təklif edir;
6.10.3. Əməliyyat günü ərzində Banka təqdim olunmuş ərizə əsasında Müştərinin işçilərinin kart hesablarına vəsaiti köçürür;
6.10.4. Korporativ karta bağlı olan hesab haqqında məlumatı ancaq Müştəriyə və ya Müştəri tərəfindən müvafiq qaydada müvəkkil edilmiş şəxsə verir.
6.10.5. Bu müqavilənin şərtləri nəzərə alınmaqla, müştərinin sifarişi əsasında bir və ya bir neçə korporativ kart təqdim edir.
6.10.6. Kartın bloklaşdırılması ilə bağlı Müştərinin/istifadəçinin/işçinin müraciəti əsasında onu bloklaşdırır və məlumatlandırır;
6.10.7. Müştərinin müraciəti əsasında korporativ kartı blokdan azad edir.
6.11. **Bankın hüquqları:**
6.11.1. Aşağıdakı hallarda müvafiq əməliyyatları icra etməkdən imtina etmək:
6.11.1.1. Müştərinin hesabında kart hesablarına pulun silinməsi üçün kifayət qədər vəsait olmadıqda;
6.11.1.2. Məsul şəxs barədə məlumatlar düzgün olmadıqda;
6.11.1.3. Bu müqavilə ilə müəyyən edilmiş kartların buraxılması şərtləri pozulduqda;
6.11.1.4. Müştəri tərəfindən Bankın xidmət haqqının ödənilmədiyi və həmin xidmət haqqı ilə bağlı Müştərinin borcu yarandığı təqdirdə.
6.11.2. "Texniki overdraft"a görə kart istifadəçilərinin istifadə etdiyi pul məbləğlərini faizləri ilə birlikdə (illik 42 faiz olmaqla) Müştəridən və kart istifadəçilərindən müştərək qaydada tələb etmək;
6.11.3. Kart istifadəçiləri ödəniş kartı ilə əməliyyatları hesabdakı valyutadan fərqli valyutada apardıqda vəsaiti əməliyyatın aparıldığı gün deyil, hesabdan silindiyi günün məzənnəsinə uyğun olaraq hesabdan silmək.
6.11.4. Bank Müştərinin Bank qarşısında yaranmış öhdəliklərinin (kredit, zaminlik, ipoteka, girov, xidmət haqqı üzrə borc və bunlarla məhdudlaşmadan digər öhdəliklərin) icrasının təminatı üsulu olaraq bank hesablarında olan pul vəsaitlərini, habelə müştərinin hesabına səhvən və ya texniki xəta əsasında (bankın özünün müstəqil mülahizəsi əsasında müəyyən edilməklə) köçürülmüş vəsaitlərin, mübahisəsiz (akseptsiz) qaydada silmək hüququna malikdir.
6.11.5. Bu maddə ilə əhatə olunmayan məsələlər bu müqavilənin (kartlara, hesablara və s. aid hissədə) digər müvafiq maddələri ilə tənzimlənir.
6.12. Ödəniş kartları ilə mübadilə əməliyyatları Bankın ödəniş kartları üçün tətbiq etdiyi məzənnələr əsasında həyata keçirilir. Sözügedən məzənnələr Bankın rəsmi internet səhifəsində yerləşdirilir.

7. NeoKart ilə əməliyyatlar

7.1. **NeoKart standard** – Bank tərəfindən "Mastercard World", "Visa Rewards" tipli kart bazasında emissiya edilən ödəniş kartı;
7.2. **NeoKart premium** - Bank tərəfindən "Mastercard Black Edition", "Visa Signature" tipli kart bazasında emissiya edilən ödəniş kartı;
7.3. **NeoBonus** – hər bir NeoKart sahibinin nağdsız ödənişlər (Bank tərəfindən müəyyən edilmiş və Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən ödəniş növləri istisna olmaqla) qarşılığında qazandığı bonus xallar;
7.4. **Keşbək** – toplanmış NeoBonus xallarının Bankın "Mobil Şöbə" tətbiqi və müştərinin "Şəxsi kabinet"i üzərindən Bank tərəfindən müəyyən edilmiş və Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən əmsala bölünməsi ilə formalaşan və müştərinin NeoKart hesabına geri qaytarılan nağd vəsait;
7.5. **Mil** – toplanmış NeoBonus xallarının Bankın "Mobil Şöbə" tətbiqi müştərinin "Şəxsi kabinet"i üzərindən Bank tərəfindən müəyyən edilmiş və Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən əmsala bölünməsi ilə formalaşan və müştərinin öncədən turizm sferasında ona məxsus NeoKart vasitəsilə həyata keçirdiyi nağdsız əməliyyat üzrə NeoKart hesabına geri qaytarılan nağd vəsait;
7.6. **Dəqiqə** - Bank tərəfindən müəyyən edilmiş və Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən NeoBonus xallar ekvivalentində Bankın "Mobil Şöbə" tətbiqi və müştərinin "Şəxsi kabinet"i üzərindən müştərinin seçiminə əsasən qeyd etdiyi mobil nömrələrin balansına yüklənən şəbəkədaxili dəqiqələr;
7.7. **İnternet** - Bank tərəfindən müəyyən edilmiş və Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən NeoBonus xallar ekvivalentində Bankın "Mobil Şöbə" tətbiqi və müştərinin "Şəxsi kabinet"i üzərindən müştərinin seçiminə əsasən qeyd etdiyi mobil nömrələrin balansına yüklənən mobil internet;
7.8. **Kart yeniləmə** - kart sahibinin ona məxsus NeoKart standard növlü kartı Bankın "Mobil Şöbə" tətbiqi və müştərinin "Şəxsi kabinet"i üzərindən Bank tərəfindən müəyyən edilmiş və Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən NeoBonus xallar ekvivalentində NeoKart premium karta yeniləmək imkanı;
7.9. **Lonj açar (Lounge key)** - kart sahiblərinə dünyanın bir çox hava limanlarında yerləşən biznes zallara giriş imkanı verən xüsusi proqram;
7.10. Kartın verilməsi müştərinin müraciəti və bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən Razılaşma əsasında həyata keçirilir. Razılaşma əsasında Müştəriyə kartın verilməsi bu müqavilənin Bank kartlarının verilməsinə və istifadəsinə dair müddəalarında qeyd olunmuş hüquq və öhdəliklərin icrasını tərəflər üçün məcburi qüvvəyə malik edir. Müştərinin müraciəti Bankda ona kart verməsi öhdəliyini yaratmır.
7.11. **Partnyor subyektləri** - Bankla əməkdaşlıq sazişi bağlamış ticarət, iaşə, xidmət subyektləri;
7.12. **Partnyor taksit** - Müştəri üçün Bankla taksit layihəsi çərçivəsində əməkdaşlıq edən təsərrüfat subyektlərində əlavə faiz ödəmədən mal və xidmətlərin dəyərini POS-terminalda seçim edərək 3 ay/6 ay/9

ay/12 ay/18 ay/24 ay (təsərrüfat subyekti ilə Bank arasında öncədən imzalanmış razılaşmaya əsasən) olmaqla hissələrlə ödəmək imkanı yaradır.

7.13. **Fərdi taksit** - Müştəri üçün qeyri-partnyor şəbəkədə həyata keçirdiyi istənilən növ əməliyyat üzrə (nağdsız əməliyyat/nağdlaşdırma əməliyyatı) yaranmış borcu əməliyyatı həyata keçirdiyi ay ərzində Mobil Şöbə və ya şəxsi kabinet üzərindən öz seçiminə uyğun olaraq 3 ay/6 ay/9 ay/12 ay olmaqla Bankın təyin etdiyi müvafiq faiz dərəcəsi tətbiq edilməklə hissələrlə ödəmək imkanı yaradır. Bu zaman sistemdə müvafiq ay və faizə uyğun annuitet qrafik formalaşır.

7.14. NeoKartın istifadə şərtləri (faiz, komissiya, bonus, kompaniya və s.) barədə məlumatlar Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində yerləşdirilir və müştəri ilə NeoKartın əldə edilməsinə dair razılaşma bağlandığı andan həmin şərtlər müştəri üçün məcburi hüquqi qüvvəyə malik olacaqdır.

7.15. Bu müqavilənin 7.14-cü bəndində qeyd edilən istifadə şərtləri Bank tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər və həmin şərtlər dəyişdirilərək Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində yerləşdirildikdən sonra müştəri tərəfindən qəbul edilmiş hesab olunacaqdır.

7.16. Bank NeoKart vasitəsilə kredit məhsulu istifadəyə verəcəyi təqdirdə bu barədə Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində məlumat yerləşdirildikdən sonra Müştəri həmin məhsul şərtlərindən istifadə etmək üçün Banka müraciət edə bilər.

7.17. Müştəri (Kart sahibi) Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilmiş şərtlər və qaydalar çərçivəsində toplanmış bonusları maddi və qeyri-maddi dəyərə konvertasiya edərək istifadə edə bilər.

7.18. Taksit əməliyyatları üzrə Bank tərəfindən müəyyən edilən güzəşt müddəti və ödəniş günləri Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd ediləcəkdir.

7.19. Müştərilər üçün aşağıdakı kateqoriyalar üzrə gecikmə halları müəyyən edilir:

7.19.1. Yalnız taksit əməliyyatı etmiş müştərilər aylıq taksit borcunu ödəmədikdə və ya qismən ödədikdə;

7.19.2. Yalnız güzəşt müddətli əməliyyatlar etmiş müştərilər güzəşt müddəti bitdikdən sonra aylıq borcunu ödəmədikdə və ya qismən ödədikdə;

7.19.3. "Mobil şöbə" və ya şəxsi kabinet üzərindən qrafik seçmiş müştərilər aylıq annuitet üzrə ödəniş məbləğini ödəmədikdə və ya qismən ödədikdə;

7.19.4. Ay ərzində hər 3 mexanizmdən istifadə etmiş müştərilər müəyyən edilmiş aylıq ödəniş məbləğini ödəmədikdə.

7.20. Müştəri tərəfindən ödəniş həyata keçirildikdə ödənişin silinməsi aşağıda qeyd olunan ardıcıllığa əsasən həyata keçiriləcəkdir:

7.20.1. Gecikdirilmiş borc üzrə hesablanmış dəbbə pulu;

7.20.2. Ödənilməli faizlər;

7.20.3. Texniki overdraft faizi;

7.20.4. Texniki overdraft üzrə əsas borc;

7.20.5. Gecikdirilmiş əsas borc;

7.20.6. Partnyor taksit borcu;

7.20.7. Güzəşt müddətli əməliyyatlar üzrə borc.

7.21. Bank tərəfindən hər ayın son təqvim günü Müştərinin mobil nömrəsinə borc haqqında SMS, ödəniş tarixində ödəniş etməyən müştərilərin mobil nömrəsinə isə ödəniş tarixindən sonrakı gün SMS göndərilir.
7.22. Bu bəndin müddəaları ilə nəzərdə tutulmuş və müştəri tərəfindən edilmiş əməliyyatlar üzrə qazanılmış keşbək, bonus, mil, dəqiqə, internet və s. həmin əməliyyatların sonradan ləğv ediləcəyi hallarda müştəri tərəfindən qazanılmış vəsaitin onun cari hesabından akseptsiz qaydada Bank tərəfindən silinməsinə öz razılığını verir.
7.23. **Bankın hüquqları:**
7.23.1. Müştərinin hesabına səhvən daxil olmuş məbləğləri öhdəlik həcmində Müştərinin hesabında bloklaşdırmaq və həmin məbləğlər Müştəri tərəfindən könüllü geri qaytarılmazsa, onun hesabından silmək;
7.23.2. Bank qarşısında yaranmış öhdəliklərin (kredit, zaminlik, ipoteka, girov, xidmət haqqı üzrə borc və bunlarla məhdudlaşmadan digər öhdəliklərin) icrasının təminatı üsulu olaraq müştəri hesablarında olan pul vəsaitlərini mübahisəsiz (akseptsiz) qaydada silmək;
7.23.3. Debet qalığına gündəlik əsasda illik faiz dərəcəsini hesablamaq;
7.23.4. Nağdsız hesablaşmalar qarşılığında bonuslar hesablamaq və bonusların istifadə edilməsi imkanını təmin etmək;
7.23.5. Toplanmış bonusları maddi və qeyri - maddi dəyərə konvertasiya edərək kart sahibinin istifadəsinə təqdim etmək;
7.23.6. Müştəri üçün Bank Partnyor taksit layihəsi çərçivəsində əməkdaşlıq edən təsərrüfat subyektlərində əlavə faiz ödəmədən mal və xidmətlərin dəyərini POS terminalda seçim edərək 3 ay/6 ay/9 ay/12 ay/18 ay/24 ay (təsərrüfat subyekti ilə Bank arasında öncədən imzalanmış razılaşmaya əsasən) olmaqla hissələrlə ödəmək imkanı yaratmaq;
7.23.7. Müştəri üçün Fərdi taksit layihəsi çərçivəsində təsərrüfat-subyektlərində həyata keçirdiyi istənilən növ əməliyyat üzrə (nağdsız əməliyyat/nağdlaşdırma əməliyyatı) yaranmış borcu əməliyyatı həyata keçirdiyi ay ərzində Mobil Şöbə və ya şəxsi kabinet üzərindən öz seçiminə uyğun olaraq 3 ay/6 ay/9 ay/12 ay olmaqla Bankın təyin etdiyi müvafiq faiz dərəcəsi tətbiq edilməklə hissələrlə ödəmək imkanı yaratmaq (Bu zaman sistemdə müvafiq ay və faizə uyğun annuitet qrafik formalaşır).
7.23.8. Müştəridən göstərdiyi bank xidmətlərinə görə xidmət haqqı almaq.
7.24. **Bankın vəzifələri:**
7.24.1. Müştəriyə Bankın https://www.bankrespublika.az/uploads/neodebet%20rates.pdf internet səhifəsində qeyd edilmiş şərtlər və qaydalar çərçivəsində aşağıdakı xidmətləri birlikdə və ya ayrılıqda təmin etmək;
7.24.2. Müştəriyə Azərbaycan Respublikasının, bu müqavilənin, onun əlavə razılaşmalarının və kartın şərtlərinə uyğun olaraq ödəniş xidmətləri göstərmək.
7.25. **Müştərinin hüquqları:**
7.25.1. Hesab üzrə qanunvericiliyə zidd olmayan ödəniş əməliyyatları aparmaq;

7.25.2. Bankın https://www.bankrespublika.az/uploads/neodebet%20rates.pdf internet səhifəsində qeyd edilmiş şərtlər və qaydalar çərçivəsində toplanmış bonusları maddi və qeyri-maddi dəyərə konvertasiya edərək istifadə etmək.

7.26. **Müştərinin vəzifələri:**

7.26.1. Bankın https://www.bankrespublika.az/uploads/neodebet%20rates.pdf internet səhifəsində qeyd edilmiş şərtlər və qaydalar ilə bu razılaşmanı imzalamamışdan əvvəl tanış olmaq və rəsmi internet səhifəsində qeyd edilmiş xidmət haqqlarını banka ödəmək;

7.26.2. Partnyor taksit layihəsi çərçivəsində əməkdaşlıq edən təsərrüfat-subyektlərində icra edilmiş əməliyyatlara görə tələb olunan ödənişləri hər növbəti ayın 5-dən gec olmamaqla Banka ödənilməsini təmin etmək;

7.26.3. Partnyor Taksit layihəsi, Fərdi taksit layihəsi və kredit xətti əməliyyatları üzrə yaranmış borc öhdəliklərini vaxtında və lazımi qaydada Banka geri ödəmək. Müştərinin hesabından çıxarışı onun taksit üzrə və ya kredit xətti üzrə borcun olmasını təsdiq edən sənəddir;

7.26.4. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər vəzifələri daşımaq.

7.27. Müştəri kartda olan vəsaitlərin, habelə qazanılmış bonusların (vəsaitə konvertasiya edilərək) bu Razılaşma üzrə yaranmış borc öhdəliklərinin ödənilməsi üçün akseptsiz qaydada Bank tərəfindən silinməsinə öz razılığını verir.

7.28. Bu Razılaşmanın müddəaları ilə nəzərdə tutulmuş və müştəri tərəfindən edilmiş əməliyyatlar üzrə qazanılmış keşbək, bonus, mil, dəqiqə, internet və s. həmin əməliyyatların sonradan ləğv ediləcəyi hallarda müştəri tərəfindən qazanılmış vəsaitin onun cari hesabından akseptsiz qaydada Bank tərəfindən silinməsinə öz razılığını verir.

7.29. Kartdan istifadə ilə bağlı digər şərt və qaydalar bu müqavilənin ödəniş kartları ilə bağlı müddəaları, əlavə razılaşmalar, Bankın daxili qaydaları, kartın şərtləri və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

7.30. Kredit xəttindən istifadəyə dair bu maddədə və tərəflərin razılaşmasında nəzərdə tutulmayan digər məsələlər bu müqavilənin 11-ci maddəsi ilə tənzimlənir.

7.31. Müştəriyə açılmış bank hesabı aşağıdakı hallarda bağlanılır:

7.31.1. Bank hesabı üzrə 1 (bir) il ərzində heç bir əməliyyat aparılmadıqda Bankın təşəbbüsü ilə birtərəfli qaydada;

7.31.2. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında;

7.31.3. Bank kartlarının verilməsi və istifadəsinə dair müddəalarda nəzərdə tutulmuş qaydada ödəniş kartları ləğv edilərsə;

7.31.4. Müştəri yerli və xarici ölkələrin, habelə beynəlxalq sanksiya siyahısına düşdükdə - Bank tərəfindən dərhal;

7.31.5. Kartlarının verilməsi və istifadəsi xidmətinin dayandırılması ilə;

7.31.6. Bu müqavilənin 3.6-cı bəndində nəzərdə tutulmuş digər hallarda.

7.32. Müştəri ona açılmış bank hesabları və onlarda olan pul vəsaitləri üzrə nəzarət və sahiblik hüququnun "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının qanununa əsasən daşınar əmlakın yüklülüyü ilə bağlı, yüklülük sahibinin göstərişlərinin həyata keçirilməsi məqsədilə Banka verilməsini təsdiq edir.

7.33. Müştərinın eyniləşdirilməsi məqsədilə ona kart verilərkən Bank tərəfindən həmçinin PİN-kod təqdim edilir. PİN-kod Müştərinin imzasının analoqu hesab olunur. Müştəri tərəfindən Kartın və ya onun PİN-kodunun üçüncü şəxslərə verilməsi qadağandır, Kart və PİN-kodla əlaqədar təhlükəsizlik tədbirlərinə əməl olunmalıdır. Kart üzrə aparılmış əməliyyatlar Müştəri tərəfindən aparılmış əməliyyatlar kimi qəbul olunur.

8. Bank seyfinin icarəsi

8.1. Bank "İcarəçi"yə Bankın depozitarisində yerləşən və əlamətləri İcarəçi ilə Bank arasında bağlanmış bank seyfinin təhvil-təsliminə dair Razılaşmada əks olunan seyfi icarəyə verir.
8.2. Bank seyfindən istifadə qaydaları aşağıdakılardan ibarətdir:
8.2.1. Seyfin istifadəsi Bankın adi iş günlərində saat 09:00-dan 17:30-dək həyata keçirilir.
8.2.2. "İcarəçi" və ya seyflərdən istifadə hüququ olan digər şəxs yalnız şəxsiyyəti təsdiq edən sənədi və seyfdən istifadə hüququna dair sənədi (etibarnaməni) təqdim etdikdə depozitariyə buraxılır.
8.2.3. Seyflər 2 (iki) müxtəlif quruluşlu açarın (Açar və Master-açar) istifadə edilməsi yolu ilə açılır. Master-açar Bankda saxlanılır, 2 (iki) ədəd eyni quruluşlu açar isə təhvil-təslim aktı ilə "İcarəçi"yə verilir. "İcarəçi" özündə olan açarların qorunmasını təmin etməli və onların itirilməsinə (oğurlanmasına, digər yolla üçüncü şəxslərə ötürülməsinə) yol verməməlidir.
8.2.4. "İcarəçi" tərəfindən depozit qutularının açarı itirildiyi və ya zədələndiyi təqdirdə, "İcarəçi" hər seyf qutusu üçün bank seyfinin təhvil-təsliminə dair Razılaşmada qeyd olunan vəsaiti Banka ödəməyi öhdəsinə götürür.
8.2.5. Seyflər məcburi açıldıqda seyflərin məcburi açılmasına görə çəkilən xərclər "İcarəçi" tərəfindən bu müqavilənin 8.2.4-cü bəndində nəzərdə tutulmuş vəsaitdən ayrılıqda Banka ödənilir.
8.2.6. Seyflərdə soyuq və odlu silahın, döyüş sursatının, partlayıcı, radioaktiv, kimyəvi, bakteroloji, narkotik, toksik, kəskin qoxulu və çirkləndirici, yüksək elektrik və maqnit sahəsi yaradan maddələrin, ərzaq mallarının, flora və fauna aləminin canlı üzvlərinin, həmçinin mülki dövriyyədən çıxarılmış əşyaların və Banka və/və ya üçüncü şəxslərə hər-hansı maddi və fiziki zərər vura bilən maddələrin və əşyaların saxlanması qadağandır və bu tip əşyaların saxlanmasına görə "İcarəçi" məsuliyyət daşıyır.
8.2.7. Seyflərin məqsədli istifadəsinə dair hər hansı şübhə yarandıqda və ya seyfdə saxlanılması qadağan edilən əşyaların saxlanmasına dair qanunvericiliyə uyğun olaraq hər hansı məlumat daxil olduqda, "İcarəçi" Bankın tələbinə əsasən dərhal Seyfi açır və saxlanc predmetini təqdim edir.
8.2.8. Seyflərin məqsədli istifadəsini yoxlamaq üçün Bank xüsusi texniki və digər vasitələri tətbiq edə bilər.
8.2.9. "İcarəçi" saxlanc predmetini seyfə təkbaşına yerləşdirir və Bankın seyflərin içindəkilərə dair məlumatı olmur. Bununla tərəflər qarşılıqlı etibar və konfidensiallıq prinsiplərindən çıxış edirlər.
8.2.10. "İcarəçi" depozitaridə 20 (iyirmi) dəqiqədən artıq qala bilməz. Qeyd edilmiş müddət bitdikdən sonra, "İcarəçi" depozitaridən çıxmadıqda, Bank Təhlükəsizliyi Departamentinin əməkdaşı depozitariyə daxil olmaq hüququna malikdir.
8.2.11. "İcarəçi"nin seyfdən hər dəfə istifadə etməsi zamanı Bank tərəfindən xüsusi cədvəldə qeydlər aparılır.
8.2.12. Bank seyfindən istifadə dayandırıldığı təqdirdə "İcarəçi" seyfin 2 (iki) ədəd açarını Banka geri qaytarır.

8.2.13. "İcarəçi"nin seçiminə əsasən 1 aylıq, 6 aylıq və 1 illik icarəyə götürülmüş seyfin icarə haqqı icarənin həmin müddətləri üçün İcarəçinin seyfdən istifadə edib-etməməsindən asılı olmayaraq Bank tərəfindən müəyyən edilmiş və https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən tariflər əsasında "İcarəçi" tərəfindən əvvəlcədən birdəfəyə ödənilir. Sözügedən müddətlərdən sonrakı müddətə görə icarə haqqı "İcarəçi" tərəfindən "İcarəçi"nin seçiminə əsasən aybaay və yaxud daha uzun müddət üçün "İcarəçi" tərəfindən müyyən edilmiş müddətin əvvəlində ödənilir.
8.2.14. Bank seyfindən icarə müddətləri bitdikdən sonra icarənin müddəti uzadılmadığı və seyflər boşaldılaraq hər iki açarı ilə birgə salamat vəziyyətdə Banka qaytarılmadıqda seyflər "İcarəçi"nin istifadəsində hesab edilir və Bank onlara növbəti ay üçün Bankın həmin an qüvvədə olan və Bankın https://www.bankrespublika.az/az/pages/tarifler internet səhifəsində qeyd edilən tarif cədvəlinə uyğun olaraq ödəniş hesablamaqla "İcarəçi"dən tələb edir. "İcarəçi" Bank tərəfindən belə bir tələb daxil olacağı təqdirdə onun dərhal icra edilməsi üçün bütün əmlakı ilə məsuliyyət daşıyır.
8.2.15. "İcarəçi" müqaviləni imzaladıqdan və icarə haqqını ödədikdən sonra seyflərdən istifadə hüququnu əldə edir.
8.2.16. Bank seyfindən istifadə dayandırıldıqda (icarə müddəti bitdikdə və s.) "İcarəçi" 1 (bir) gün ərzində seyfləri boşaldır və onların hər birini 2 (iki) açarla birgə istifadəyə yararlı vəziyyətdə Banka geri qaytarır. Əks təqdirdə, bu müqavilənin 8.2.4-cü və 8.2.14-cü bəndləri ilə nəzərdə tutulmuş cəriməni ödədikdən sonra depozitariyə buraxılır.
8.2.17. "İcarəçi" seyfi istənilən vaxt qaytara və bank seyfindən istifadəni dayandıra bilər. Bu zaman:

- Bank seyfindən istifadənin müddəti 1 (bir) ay və ya daha az olduqda istifadə olunmamış müddət üçün icarə haqqı qaytarılmır;
- Bank seyfindən istifadənin müddəti 1 (bir) aydan çox olduqda "İcarəçi" istifadə olunmamış müddət üçün icarə haqqını geri alır. Bu halda icarənin faktiki müddəti üçün icarə haqqı güzəştsiz tariflərlə yenidən hesablanır və yaranan fərq geri qaytarılan məbləğdən çıxılır.

8.2.18. "İcarəçi" Bank seyfindən istifadə dayandırıldıqdan (icarə müddəti bitdikdə və s.) sonra bu Müqavilənin 8.2.16-cı bəndində müəyyən edilmiş müddətdə açarları qaytarmadıqda və ya 3 (üç) aydan artıq müddətdə icarə haqqını ödəmədikdə Bank, seyfləri məcburi qaydada açа və saxlanc predmetini götürə bilər. Bu halda seyflərin məcburi açılacağı barədə "İcarəçi"yə bildiriş göndərilir. Seyflərin məcburi açılması bildiriş göndərildikdən 1 (bir) ay sonra texniki vasitələrin istifadə edilməsi yolu ilə həyata keçirilir.
8.3. **Bank seyfinin məcbur açılması halları aşağıdakılardan ibarətdir:**
8.3.1. Saxlanc predmetinin bu müqavilənin 8.2.6-cı bəndində göstərilən xassəli olmasına şübhə yarandıqda və "İcarəçi" bilavasitə Bankda olmadıqda, yaxud seyfi könüllü açmaqdan imtina etdikdə;
8.3.2. "İcarəçi"nin yazılı müraciəti əsasında, seyflərin hər 2 (iki) açarını itirdikdə və ya zədələdikdə;
8.3.3. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;
8.3.4. Bu müqavilənin 8.2.18-ci bəndində göstərilən hallarda;
8.3.5. Qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.
8.4. Seyflərin məqsədli istifadə olunmamasına kifayət qədər şübhə yarandıqda Bank "İcarəçi"yə saxlanc predmetini yoxlanması üçün təqdim etməyi təklif edir. Saxlanc predmetinə baxış Bank Təhlükəsizliyi Departamentinin əməkdaşının iştirakı ilə həyata keçirilir.

8.5. Seyflərin məqsədli istifadə olunmaması faktı aşkar edildikdə, Bank, aşağıdakı hərəkətləri etməyə haqlıdır:
8.5.1. "İcarəçi" bilavasitə Bankda olduqda, təxirəsalınmadan saxlanc predmetinin yoxlanması üçün onu təqdim etməyi tələb edir;
8.5.2. "İcarəçi" bilavasitə Bankda olmadıqda və ya saxlanc predmetini təqdim etməkdən imtina etdikdə, 3 (üç) nəfərdən az olmayan tərkibdə komissiyanın üzvlərinin iştirakı ilə seyflər açılır və bu barədə müvafiq akt tərtib edilir. Seyflər açıldıqdan sonra, saxlanc predmetinin Banka və/və ya üçüncü şəxslərə, yaxud ümumiyyətlə insanların sağlamlığına zərər vura biləcək əşyanın olması müəyyən edildikdə, saxlanc predmeti məhv edilir və ya səlahiyyətli dövlət orqanlarına təhvil verilir. Bu prosedur eyni qaydada müvafiq akt əsasında aparılır;
8.5.3. Əgər saxlanc predmeti Banka və/və ya üçüncü şəxslərə, yaxud ümumiyyətlə insanların sağlamlığına zərər vura biləcək əşya deyildirsə "İcarəçi"nin ÖMTA-da qeyd olunan əlaqə vasitələri üzrə onun 10 (on) gün ərzində Banka gəlməsi təklifi ilə bildiriş göndərilir və saxlanc predmetinin mühafizəyə götürülməsi aktı tərtib edilir. "İcarəçi" Banka gəldikdən sonra saxlanc predmeti ona qaytarılır;
8.5.4. "İcarəçi" Banka gəlmirsə, Bank saxlanc predmetini məhv edir və ya səlahiyyətli dövlət orqanlarına təhvil verir.
8.6. Seyflərə buraxılış qaydalarının pozulması halları istisna olmaqla, Bank, saxlanc predmetinin salamatlığına və tamlığına görə məsuliyyət daşımır və yalnız seyflərin salamatlığına cavabdehdir.
8.7. Bank seyfindən istifadə qaydaları pozulduğu təqdirdə "İcarəçi" Bankın tələbi ilə bu müqavilə ilə nəzərdə tutulmuş məbləğləri və Banka dəymiş zərəri tam şəkildə ödəyir.

9. İnkassasiya xidmətinin göstərilməsi

9.1. Bank, Müştərinin müraciəti əsasında ayrılmış nağd pul vəsaitinin müştərinin səlahiyyətli nümayəndəsinin iştirakı ilə əvvəlcədən müəyyənləşdirilmiş təyinat məntəqəsinə çatdırılmasını həyata keçirir, müştəri isə göstərilən xidmətə görə Banka müəyyənləşdirilmiş haqqı ödəyir.
9.2. **İnkassasiya xidmətinin göstərilməsi aşağıdakı qaydada həyata keçirilir:**
9.2.1. Müştəri müvafiq Sifarişi imzalamaq və təqdim etmək səlahiyyəti olan, həmçinin, pulu müşayiət edəcək şəxsin adını məktubla Banka bildirir.
9.2.2. Müştəri inkassasiya əməliyyatından bir gün əvvəl Banka bu müəyyən edilmiş formada və məzmunda imzalanmış Sifariş təqdim edir. Sifarişdə məbləğin həcmi, əməliyyatin dəqiq vaxtı, təyinat məntəqələri, Müştərinin pulunu təhvil verən/alan məsul işçisinin soyadı, adı, atasının adı və vətəndaşın şəxsiyyət vəsiqəsinin göstəriciləri dəqiq göstərilir.
9.2.3. Müştəri inkassasiya xidməti üçün nəzərdə tutulmuş komissiya haqlarını Banka ödəyir.
9.2.4. İnkassasiyanı həyata keçirən Bankın inkassatoru Müştərinin Sifarişində göstərilən səlahiyyətli şəxsindən nağd pul vəsaitini qəbul etdikdən sonra, kassa mədaxil qəbzini təqdim edir.
9.3. İnkassasiyanı həyata keçirən Bankın inkassatoru Müştərinin Sifarişində göstərilən səlahiyyətli şəxsinə nağd pul vəsaitini təhvil verərkən, müqabilində lazımi qaydada tərtib edilmiş və Banka təqdim edilmiş "İmza nümunələri vərəqəsi"ndə olan şəxslər tərəfindən təsdiqlənmiş pul çekini alır.

10. Törəmə maliyyə alətləri ilə əməliyyat

10.1. **Opsion əməliyyatı:**

10.1.1. Bank bu müqavilənin müvafiq əlavəsi hesab edilən Razılaşmaya uyğun olaraq müəyyən edilmiş məbləğdə, müəyyən edilmiş tarixdə və təsbit edilmiş məzənnədə xarici valyutanın satışını, Bank tərəfindən isə həmin valyutanın alışına dair münasibətləri tənzimləyir.

10.1.2. Bu müqavilənin 10.1.1-ci bəndində qeyd edilmiş Razılaşmaya əsasən Bankın aşağıdakı hüquqları vardır:

10.1.2.1. Bu müqavilənin 10.1.1-ci bəndində qeyd edilmiş Razılaşmada qeyd edilmiş xarici valyutanı almaq;

10.1.2.2. Müştəri tərəfindən bu müqavilə və onun müvafiq əlavəsi hesab edilən Razılaşma ilə nəzərdə tutulmuş öhdəliklər icra edilmədiyi təqdirdə bu müqaviləyə və Razılaşmaya birtərəfli şəkildə xitam vermək və dəymiş zərərin ödənilməsini tələb etmək.

10.1.3. Bu müqavilənin 10.1.1-ci bəndində qeyd edilmiş Razılaşmaya əsasən Müştərinin aşağıdakı hüquqları vardır:

10.1.3.1. Bankın üzərinə götürdüyü öhdəliklər yerinə yetirilmədiyi halda, bu müqaviləyə və onun müvafiq əlavəsi hesab edilən Razılaşmaya birtərəfli qaydada xitam vermək.

10.2. **Hedcinq əməliyyatı:**

10.2.1. Azərbaycan Respublikasında manatın məzənnə dəyişikliyinin əvvəlcədən proqnozlaşdırılmasının çətin olduğunu və məzənnə dəyişikliyi gözləntisini nəzərə alaraq və Müştərinin Bank qarşısında xarici valyutada kredit öhdəliklərinin icrasını təmin etmək üçün Bank və Müştəri əsas şərtləri bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən Razılaşmada qeyd edilmiş Hedcinq əməliyyatını həyata keçirə bilərlər.

10.2.2. Bu müqavilənin 10.2.1-ci bəndində qeyd edilmiş Razılaşmaya əsasən Bankın aşağıdakı hüquqları vardır:

10.2.2.1. Mövcud olan qarşılıqlı tələblərin icra müddəti çatmışsa və ya Müştəri vaxtından əvvəl öhdəliyi tam və ya qismən icra etmək üçün yazılı müraciət etmişdirsə, qarşılıqlı tələblərə onların əvəzləşdirilməsi yolu ilə xitam verilir. Qarşılıqlı tələblərin icra müddəti 10.2.1-ci bəndində qeyd edilmiş Razılaşmaya əsasən əsasən müəyyən edilir;

10.2.2.2. Xarici valyutanı Müştərinin bank hesabında bloklaşdırır və Müştərinin yalnız Bank qarşısında olan öhdəliklərinin icrası üçün istifadə edir;

10.2.2.3. Müştərinin Bank qarşısında bu müqavilə və bu müqavilənin 10.2.1-ci bəndində qeyd edilmiş Razılaşmaya əsasən istənilən digər əsasla icra edilməmiş öhdəliyi olduqda, Müştərinin bank hesabından pul vəsaitini birtərəfli qaydada öz xeyrinə silir;

10.2.2.4. Müştəri bu müqavilə və bu müqavilənin 10.2.1-ci bəndində qeyd edilmiş Razılaşmaya əsasən istənilən digər əsas üzrə Bank qarşısında hər hansı bir öhdəliyini icra etmədikdə və ya lazımi qaydada icra etmədikdə bu müqaviləyə və bu müqavilənin 10.2.1-ci bəndində qeyd edilmiş Razılaşmaya vaxtından əvvəl birtərəfli qaydada xitam verir;

10.2.2.5. Bank bu müqavilənin 10.2.1-ci bəndində qeyd edilmiş Razılaşmada nəzərdə tutulmuş tarixdə Müştərinin manat hesabında olan vəsaiti həmin Razılaşmada nəzərdə tutulan xarici valyutanın satış məzənnəsini aşmamaq şərtilə, Bankın kredit ödənişləri üçün nəzərdə tutduğu məzənnə ilə ABŞ dollarına konvertasiya edərək Müştərinin kredit ödənişinə yönəldir.

10.2.3. Bu müqavilənin 10.2.1-ci bəndində qeyd edilmiş Razılaşmaya əsasən Müştərinin aşağıdakı hüquqları vardır:

10.2.3.1. Bu müqavilə və Razılaşma üzrə Bankın öhdəliklərinin lazımi qaydada icra edilməsini tələb etmək;

10.2.3.2. Razılaşmada nəzərdə tutulmuş tarixdə manat hesabında olan vəsaitin Razılaşmada müəyyən edilmiş satış məzənnəsini aşmayan məzənnə ilə xarici valyutaya konvertasiya edilərək kredit öhdəliyinin icrasına yönəldilməsini tələb etmək;

10.2.3.3. Öhdəliyin vaxtından əvvəl tam və ya qismən icrası üçün Banka yazılı müraciət etmək və bu halda qanunla müəyyən edilmiş qaydada qarşılıqlı tələblərin əvəzləşdirilməsini tələb etmək;

10.2.3.4. Bankın hesabdan birtərəfli qaydada vəsait silməsi və ya konvertasiya aparması halında, qanunla müəyyən edilmiş hallarda və qaydada silinmənin əsası, məbləği və tətbiq edilmiş məzənnə göstərilməklə yazılı və ya elektron bildiriş almaq;

10.2.3.5. Razılaşma üzrə aparılmış hesablaşmalar barədə Bankdan çıxarış və ya hesabat tələb etmək;

10.2.3.6. Razılaşmaya vaxtından əvvəl xitam verildikdə yekun hesablaşmanın əsaslandırılmış hesablamasını almaq. Qarşılıqlı tələblər əvəzləşdirildikdən sonra Müştərinin xeyrinə qalan məbləğin 7 (yeddi) iş günü ərzində hesabına köçürülməsini tələb etmək.

10.3. Bu müqavilə və bu müqavilənin 10.2.1-ci bəndində qeyd edilmiş Razılaşma üzrə Bankın öhdəliklərinin icra edilməsini tələb edir.

II FƏSİL. KREDİT MƏHSULLARI

Bu fəsil Bankın təqdim etdiyi kredit məhsulları üzrə Tərəflər arasındakı münasibətləri tənzimləyir. Bu müqavilənin 11.1-11.4-cü bəndləri kredit məhsullarına dair ümumi şərtləri, 11.5-ci bənd Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq istehlak kreditinə dair spesifik şərtləri, 11.6-cı bənd isə digər kredit məhsullarına dair spesifik şərtləri müəyyən edir.

11. Kredit

11.1. **Birdəfəlik kredit**

11.1.1. Bank (Kreditverən) Müştərinin (Borcalanın) müraciətinə əsasən ona birdəfəlik kredit verə bilər.

11.1.2. Kredit kağız daşıyıcıda və ya elektron qaydada Tərəflər arasında müvafiq əlavə razılaşmaların (kredit razılaşması və ya əsas kredit limiti razılaşması) bağlanılması, habelə bu müqavilədə və (və ya) ona əlavə razılaşmalarda və ya Tərəflər arasındakı digər razılaşmada nəzərdə tutulan vasitələrlə Tərəflərin qarşılıqlı razılığı ilə verilir.

11.1.3. Borcalanın ödəniş cədvəllərində nəzərdə tutulmuş məbləğdən artıq ödənişlər aparması onu növbəti aylar üçün ödənişlərdən tam və ya qismən azad etmir.

11.1.4. Borcalana verilmiş kredit məbləği onun hesabından çıxarış vasitəsi ilə təsdiq edilir.

11.1.5. Tərəflər arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, kredit üzrə faizlər illik əsasla hesablanır və aylıq ödənilir. Faizlər illik faiz dərəcəsinin üç yüz altmışa bölünərək, borcun verildiyi faktiki günlərin (borcun verildiyi gün daxil, qaytarıldığı gün isə xaric olmaqla) sayına vurulmaqla hesablanır.

11.1.6. Müştəri krediti təyinatı üzrə istifadə etməlidir.

11.2. **Kredit xəttinin açılması**

11.2.1. Bank (Kreditverən) Müştərinin (Borcalanın) müraciətinə əsasən ona kredit xətti açа bilər.

11.2.2. Kredit xətti kağız daşıyıcıda və ya elektron qaydada Tərəflər arasında müvafiq əlavə razılaşmaların (kredit razılaşması və ya əsas kredit limiti razılaşması) bağlanılması, habelə bu müqavilədə və (və ya) ona əlavə razılaşmalarda və ya Tərəflər arasındakı digər razılaşmada nəzərdə tutulan vasitələrlə Tərəflərin qarşılıqlı razılığı ilə açılır.

11.2.3. Kredit xətti ödəniş kartı vasitəsilə açıldıqda ödəniş kartına dair Bank və Borcalan arasındakı münasibətlər bu müqavilənin ödəniş kartlarını tənzimləyən müvafiq müddəaları və onlar arasındakı digər müvafiq razılaşmalarla tənzimlənir.

11.2.4. Bank Borcalanın tələbi ilə hesabat dövrü üçün hər ay bank hesabı üzrə çıxarış verir.

11.2.5. Tərəflər arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, kredit üzrə faizlər illik əsasla hesablanır və aylıq ödənilir. Faizlər illik faiz dərəcəsinin üç yüz altmışa bölünərək, borcun verildiyi faktiki günlərin (borcun verildiyi gün daxil, qaytarıldığı gün isə xaric olmaqla) sayına vurulmaqla hesablanır.

11.2.6. Tərəflər arasında başqa qayda razılaşdırılmayıbsa, kredit xətti daxilində götürülən kreditlər ən geci kredit limitinin bitmə tarixinədək geri qaytarılmalıdır.

11.2.7. **Ödəniş kartı vasitəsilə verilən kredit xəttləri**

11.2.7.1. **Bütün növ əməliyyatlar üçün kredit xətti**

11.2.7.1.1. Kredit xətti üzrə nağd və nağdsız qaydada istifadə edilmiş kreditin müvafiq məbləğə qədər hissəsi növbəti ayın 15-nə qədər ödənilərsə, kreditin həmin hissəsinə faiz hesablanmır. Müvafiq məbləğdən artıq nağd və nağdsız qaydada istifadə edilmiş məbləğə istifadə edildiyi gündən şərtləşdirilmiş faiz dərəcəsi ilə faiz hesablanır. Hesablanmış faizlər növbəti ayın 10-u tarixinədək Banka ödənilməlidir.

11.2.7.1.2. Bu müqavilənin 11.2.7.1.1-ci yarımbəndinə uyğun olaraq kredit xətti üzrə istifadə edilmiş kreditin müvafiq məbləğdə hissəsi növbəti ayın 15-nə qədər ödənilməzsə, kreditin ödənilməmiş hissəsinə həmin ayın 16-dan etibarən şərtləşdirilmiş faiz dərəcəsi ilə faiz hesablanır. Hesablanmış faizlər növbəti ayın 10-u tarixinədək Banka ödənməlidir.

11.2.7.2. **Nağdsız əməliyyatlar üçün kredit xətti**

11.2.7.2.1. Kredit xətti üzrə nağdsız qaydada istifadə edilmiş kreditin müvafiq məbləğinə qədər hissəsi növbəti ayın 15-nə qədər ödənilərsə, kreditin həmin hissəsinə faiz hesablanmır.

11.2.7.2.2. Bu müqavilənin 11.2.7.2.1-ci bəndinə uyğun olaraq kredit xətti üzrə istifadə edilmiş kreditin müvafiq məbləğdə hissəsi növbəti ayın 15-nə qədər ödənilməzsə, kreditin ödənilməmiş hissəsinə həmin ayın 16-dan etibarən şərtləşdirilmiş faiz dərəcəsi ilə faiz hesablanır. Hesablanmış faizlər növbəti ayın 10-u tarixinədək Banka ödənməlidir.

11.2.7.2.3. Müştəri tərəfindən kredit məbləğinin nağd qaydada (ATM (bankomatdan məxaric), card to card (kartdan karta), card to account (kartdan hesaba), cash by cod (ATM-dən digər hesaba köçürmə), pos-cash (Pos-terminaldan məxaric), unique (mərc oyunlarında kartdan istifadə)) məxaric edildiyi tarixdən etibarən həmin məbləğə şərtləşdirilmiş faiz dərəcəsi ilə faiz hesablanır. Hesablanmış faizlər növbəti ayın 10-u tarixinədək Banka ödənilməlidir.

11.2.7.3. Bu bənddə qeyd edilmiş kreditin məbləğləri və faiz dərəcələrinin həddi müvafiq kredit xəttinin əldə edilməsi üçün Tərəflər arasında əl imzası və ya əl imzasının digər analoqları vasitəsilə bağlanılan əlavə razılaşmalar ilə müəyyən edilir.

11.3. **Overdraft**

11.3.1. Bank Borcalanın müraciətinə əsasən onun bank hesabında vəsaitin olub olmamasından asılı olmayaraq həmin razılaşmada qeyd edilmiş vəsaitin Borcalan tərəfindən istifadəsinə şərait yaradır və Borcalan bu vəsaitdən istifadə etdiyi gündən Bank ona müvafiq məbləğdə kredit
vermiş sayılır.

11.3.2. Overdraft krediti kağız daşıyıcıda və ya elektron qaydada Tərəflər arasında müvafiq əlavə razılaşmaların (kredit razılaşması və ya əsas kredit limiti razılaşması) bağlanılması, habelə bu müqavilədə və (və ya) ona əlavə razılaşmalarda və ya Tərəflər arasındakı digər razılaşmada nəzərdə tutulan vasitələrlə Tərəflərin qarşılıqlı razılığı ilə verilir.

11.3.3. Borcalan hesabdakı vəsaitdən artıq istifadə edilmiş vəsaiti (kredit məbləğini) razılaşmada qeyd edilmiş müddət ərzində hesablanmış faizləri ilə birlikdə razılaşmanın şərtlərinə əsasən Banka ödəməyi öhdəsinə götürür.

11.3.4. Borcalan Bankdan Bank qarşısında icra edilmiş öhdəliklərinə dair sənədin verilməsini tələb edə bilər.

11.3.5. Tərəflər arasındakı razılaşmada başqa qayda nəzərdə tutulmayıbsa, Müştərinin overdraft krediti olduqda onun bank hesabına daxil edilən pul vəsaitləri Bank tərəfindən akseptsiz qaydada dərhal silinərək overdraftın ödənilməsinə sərf edilə bilər.

11.3.6. Overdraft üzrə hər tranş üzrə ödənişlər həmin tranşın bitmə tarixində həyata keçirilməli, tranş üzrə əsas və faiz borcu, eləcə də hesablanmış dəbbə pulu və digər ödənişlər bağlanılmalıdır.

11.3.7. Bu müqavilənin overdraft kreditinə dair şərtləri Borcalanın bank hesabında kifayət qədər vəsait olmadan texniki səbəblərdən dolayı istifadə etməsi nəticəsində yaranan overdrafta (texniki overdraft) tətbiq edilmir. Texniki overdraft üzrə münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyinə və (və ya) Tərəflərin razılaşmasına uyğun olaraq tənzimlənir.

11.4. **Kredit limiti**

11.4.1. Bank (Kreditverən) Müştərinin (Borcalanın) müraciətinə əsasən ona kredit limiti açа bilər.

11.4.2. Bankın Borcalana kredit limiti ayırması onun kredit vermək öhdəliyini şərtləndirmir. Yəni, Bank ayrılmış kredit limiti daxilində kredit verməkdən imtina edə və (və ya) kreditin verilməsi üçün yeni risk dəyərləndirməsi və ya skorinq apara bilər.

11.4.3. Bank aşağıdakı hallarda Müştəriyə limit daxilində kredit verməkdən imtina etmək hüququna malikdir:

11.4.3.1. İqtisadi şəraitin dəyişməsi nəticəsində Müştərinin Bank qarşısında öhdəliklərin yerinə yetirilməsinə mənfi təsir göstərə biləcək risklər mövcud olduqda;
11.4.3.2. Kreditin verilməsindən sonra bazarda kredit faiz dərəcələrində Bank tərəfindən müəyyən edilmiş həddən çox faizlər dəyişdikdə;
11.4.3.3. Bankın kifayət qədər likvid vəsaiti olmadıqda və ya likvidlik mövqeyinin pisləşməsi və bu sahədə Mərkəzi Bank tərəfindən müəyyən edilmiş prudensial normativlərin pozulması riskləri mövcud olduqda;
11.4.3.4. Mərkəzi Bank tərəfindən müəyyən edilmiş prudensial normativlərinin pozulması riski olduqda;
11.4.3.5. Bankın maliyyə dayanıqlığının pisləşməsi riskləri mövcud olduqda;
11.4.3.6. Müştəri tərəfindən müqavilə ilə nəzərdə tutulmuş ödənişlər ödəniş qrafikinə uyğun icra edilmədikdə və ya gecikmələr yarandıqda;
11.4.3.7. Müştərinin digər öhdəlikləri (vergi borcları və sair) üzrə gecikmələri yarandıqda;
11.4.3.8. Müştərinin kredit tarixçəsi pisləşdikdə;
11.4.3.9. Kreditin ümidsiz kreditə çevrilməsi riski ilə bağlı Bankın əsaslı ehtimalları yarandıqda;
11.4.3.10. Müştərinin borc yükü artdıqda;
11.4.3.11. Müştərinin maliyyə vəziyyətində, əmlakında və onun təşkilati-hüquqi formasında kredit müqaviləsi üzrə şərtlərin yerinə yetirmə qabiliyyətinə mənfi təsir göstərə biləcək hər hansı bir dəyişiklik olduqda və ya bazar şəraitində Müştərinin mövcudluğu üçün əhəmiyyətli təhlükə yaradan dəyişiklik olduqda;
11.4.3.12. Müştərinin müflisləşməsi barədə məlumat əldə edildikdə, habelə Müştəri barədə cinayət işi başlandıqda, inzibati və ya cinayət məsuliyyətinə cəlb edildikdə;
11.4.3.13. Bankın kredit riskinin idarəedilməsi stategiyasına və siyasətinə əsasən müəyyən edilən Bankın daxili risk reytinqi üzrə Müştərinin risklilik dərəcəsi Bank üçün əlverişli olmayan səviyyəyə çatdıqda;
11.4.3.14. Müştəri müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edildikdə;
11.4.3.15. Müştərinin sahibkarlıq fəaliyyətinə istənilən səbəbdən xitam verildikdə və ya Müştəri vergi uçotundan çıxarıldıqda və ya riskli vergi ödəyicisi olduqda;
11.4.3.16. Məhkəmə və digər orqanlar tərəfindən Müştərinin gəlirlərindən və hesablarından məcburi icra ödənişlərinin (cərimə, sağlamlığa zərər vurma və s.), tutulmaların həyata keçirilməsi barədə qərar qəbul edildikdə;
11.4.3.17. Müştəriyə və Müştəri sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda onun ərinə/arvadına, yaxud hər hansı təminatçıya qarşı məhkəmədə onun əmlak vəziyyətini əhəmiyyətli dərəcədə pisləşdirən və ya pisləşdirə bilən iddia tələbi irəli sürüldükdə, göstərilən şəxslərin bu və ya digər əmlak (təminatçının girov (ipoteka) ilə yüklü edilmiş əmlakı) üzərində mülkiyyət hüquqlarına xitam veriləcəyi ilə bağlı ehtimallar yarandıqda və ya müvafiq orqanlar tərəfindən inzibati icraata başlandıqda və ya Müştəri ilə əlaqədar hər hansı cinayət üzrə ibtidai və məhkəmə araşdırmasının başlanılması və ya aparılması barədə məlumat daxil olduqda;
11.4.3.18. Müştəri tərəfindən qeyri-qanuni əməliyyatların aparılmasına dair şübhələr olduqda;
11.4.3.19. Müştəri tərəfindən kreditin müqavilə ilə nəzərdə tutulmuş təyinat üzrə istifadə etmədiyi müəyyən edildikdə;
11.4.3.20. Müştəri tərəfindən Bankı aldatmağa yönəlmiş hər hansı bir hərəkət aşkar olduqda, o cümlədən Müştərinin özünün sahibkarlıq fəaliyyəti, maliyyə və iqtisadi imkanları və kredit müqaviləsindən irəli gələn öhdəliklərin vaxtında və lazımi qaydada icrasına təsir edə biləcək digər faktlar haqqında verdiyi məlumatların və təqdim etdiyi sənədlərin həqiqətə uyğun olmadığı aşkar olduqda;

11.4.3.21. Müştəri tərəfindən onun kreditdən necə istifadə olunması, habelə şəxsi və təsərrüfat fəaliyyəti ilə bağlı maliyyə vəziyyətinin monitorinqi məqsədilə gəlmiş Bankın səlahiyyətli nümayəndələrinin vəzifələrini yerinə yetirməsinə şərait yaratmadıqda;
11.4.3.22. Müştəri tərəfindən Banka düzgün məlumat vermədikdə;
11.4.3.23. Müştəri Bank tərəfindən müəyyən edilmiş müddətdə özünün işgüzar fəaliyyəti haqqında Banka yazılı məlumat vermədikdə;
11.4.3.24. ESİ (Ekoloji, Sosial, İdarəetmə) faktorları üzrə tələblər Müştəri tərəfindən nəzərə alınmadıqda və ya pozulduqda;
11.4.3.25. Müştəri və ya təminatçı Bankın razılığı olmadan müqaviləyə əsasən ona məxsus hüquqları və öhdəlikləri üçüncü şəxslərə verdikdə;
11.4.3.26. Müştərinin Kredit(lər)dən Bank tərəfindən Müştəriyə bildirilmiş və istisna olunan fəaliyyət növü üzrə istifadə etdiyi müəyyən olunduqda;
11.4.3.27. Kredit öhdəliyinin icrasının təminatı itirildikdə və ya dəyəri azaldıqda və Müştəri Bank tərəfindən müəyyən edilmiş müddət ərzində təminatı əvəz etmədiyi və ya əlavə təminat təqdim etmədiyi halda və bu halda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;
11.4.3.28. Müqavilə üzrə Müştərinin öhdəliklərinin icrasını təmin etmək üçün bağlanmış girov, qarantiya və zaminlik müqaviləsi etibarsız hesab edildikdə və ya vaxtından əvvəl xitam verildikdə;
11.4.3.29. Təminatı təqdim edən tərəfindən ipoteka predmetinin qorunması və lazımi qaydada saxlanılması üzrə üzərinə götürdüyü öhdəliklər lazımi qaydada yerinə yetirilmədikdə.
11.4.4. Bu müqavilənin 11.5 və 11.6-cı maddələri kredit limitinin özünə yox, limit daxilində verilən kredit, kredit xətti, overdraft, qarantiya və digər məhsullara münasibətdə tətbiq edilir.
11.4.5. Tərəflər arasında başqa qayda razılaşdırılmayıbsa, kredit limiti daxilində götürülən bütün kreditlər (birdəfəlik kredit, kredit xətti, qarantiya, akkreditiv, invoysun diskontlaşdırılması və s.) ən geci kredit limitinin bitmə tarixinədək geri qaytarılmalıdır.

11.5. **İstehlak kreditlərinə dair ümumi şərtlər**[1]

11.5.1. **Borcun qaytarılması**

11.5.1.1. Kredit nağdsız qaydada geri qaytarılır. Bank Tərəfindən başqa qayda nəzərdə tutulmadıqda, Müştəri krediti Bankda açılmış və kreditin verilməsi üçün istifadə edilən hesaba köçürməklə geri qaytarır.
11.5.1.2. Kredit ödəniş terminalları vasitəsilə qaytarılarkən, tətbiq olunduqda, Müştəri ödəniş terminalında kreditin qaytarılması üçün nəzərdə tutulan funksiyadan istifadə etməlidir.
11.5.1.3. Kreditin qaytarıldığı gün kredit məbləğinin Bankın, yaxud onun göstərdiyi üçüncü şəxsin hesabına xidmət göstərən kredit təşkilatının və ya digər şəxsin hesabına mədaxil edildiyi gün hesab olunur.
11.5.1.4. Vəsaitlər hesaba mədaxil edildikdən sonra Bank tərəfindən dəbbə pulu, xərclər (əgər varsa), faiz və əsas borcun ödənilməsi məqsədilə silinir. Bu bənddə qeyd olunan ödəniş növbəliliyi ilə bağlı Bank öz mülahizəsinə əsasən başqa qayda müəyyən edə bilər.
11.5.1.5. Kredit xarici valyutada verilərsə, kreditin verilməsi tarixindən və manata nisbətən həmin xarici valyutanın məzənnəsinin dəyişməsindən asılı olmayaraq, borcun Banka qaytarılması zamanı yenidən hesablama (məzənnə fərqi) ödəniş anında, ödəniş yerinin məzənnəsi üzrə aparılır.
11.5.1.6. Borcalan xarici valyutada götürülmüş kredit üzrə manatın məzənnəsinin dəyişməsinin mümkünlüyünü bilir və bu halda o, xarici valyutada götürülmüş kreditin məzənnəsinin dəyişməsi riskini öz üzərinə götürür və məsuliyyət daşıyır.

[1] Bu bəndin müddəaları bu Müqavilə və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən istehlak krediti hesab edilən bütün kreditlərə münasibətdə tətbiq edilir.

11.5.1.7. Bank Borcalanın ona qarşı olan vaxtı çatmış öhdəliklərini onun Bankda olan istənilən hesabından akseptsiz qaydada silə bilər.
11.5.1.8. Tərəflərin razılaşmasında ayrı qayda nəzərdə tutulmadıqda kredit ödəniş qrafikinə uyğun olaraq geri qaytarılır. Kredit SMS və ya digər elektron məlumat mübadiləsi vasitələrilə verildikdə Bank geri qaytarılması üçün məbləğ və tarixləri SMS və ya digər vasitələrlə Müştəriyə bildirir.
11.5.1.9. Müştəri ödəniş qrafiki üzrə aylıq ödəməli olduğu borc məbləğindən əlavə həmin məbləğin 20 (iyirmi) faizindən daha çox vəsait ödəyərsə, Müştərinin ərizəsi (birdəfəlik və ya ümumi) əsasında artıq ödənilən vəsait saxlanıla və vaxtı çatdıqda ödəniş qrafiki üzrə növbəti ayların ödənişinə yönəldilə bilər.
11.5.2. **Borc vermək öhdəliyinin birtərəfli ləğvi**
11.5.2.1. Aşağıdakı hallarda Bank kredit öhdəliyini birtərəfli qaydada tam və ya qismən ləğv edə bilər:
11.5.2.1.1.Borcalanın əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə;
11.5.2.1.2.Borcalanın Banka hər hansı yanlış məlumat verməsi səbəbindən kreditin vaxtında qaytarılmayacağı açıq-aşkar bəlli olduqda; və ya
11.5.2.1.3.Borcalan kreditin verilməsi üçün Tərəflərin razılaşmasında nəzərdə tutulmuş öhdəliyini icra etmədikdə, o cümlədən təminat təqdim etmədikdə.
11.5.2.2. Bu bəndin məqsədləri üçün "tam və ya qismən ləğvetmə" dedikdə birdəfəlik və ya kredit limiti daxilində verilən kreditə, o cümlədən kredit xəttinin açılmasına dair razılaşmanın birtərəfli qaydada vaxtından əvvəl ləğvi və kreditin verilməsindən imtina başa düşülür.
11.5.3. **Kredit almaq öhdəliyinin ləğvi və kreditin vaxtından əvvəl qaytarılması**
11.5.3.1. Borcalan kredit üzrə pul vəsaitinin ona verildiyi gündən 30 (otuz) gün müddətində heç bir səbəb göstərmədən kreditdən imtina edə bilər. Yəni həmin müddət ərzində krediti tam həcmdə Banka qaytara bilər. Bu halda, Borcalan müqavilə üzrə verilmiş pul vəsaitini və həmin pul vəsaitinin verildiyi gündən qaytarıldığı günədək hesablanan faizləri ödəməlidir. Borcalan Bank tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının məbləğini Banka ödəməlidir.
11.5.3.2. Borcalan krediti istənilən vaxt xəbərdarlıq etmədən tamamilə və ya qismən Banka qaytara bilər. Bu halda, kreditin qalıq müddətinə görə hesablanmış faizlər və (və ya) digər haqlar vaxtından əvvəl ödənilmiş məbləğə mütənasib olaraq azaldılır.
11.5.3.3. Borcalan krediti Tərəflərin razılaşmasında göstərilən müddətdən əvvəl geri qaytardıqda (bu müqavilənin 11.5.5.1-ci yarımbəndində göstərilən hal istisna olmaqla) Bank Azərbaycan Respublikasının qanunvericiliyinə və bu müqaviləyə uyğun olaraq zərərin əvəzinin ödənilməsi üçün Borcalandan kompensasiya məbləği tələb edə bilər (istisna, kreditin verilmə tarixindən 1 aydan az vaxt keçibsə və ya kreditin bitmə tarixinə 1 aydan az vaxt alıbsa). Kompensasiya məbləğinin yuxarı həddi aşağıdakı kimi müəyyən edilir:
11.5.3.3.1. Kreditin müddətinin bitməsinə bir ildən çox müddət qaldıqda, vaxtından əvvəl ödənilmiş məbləğin 1 (bir) faizi;
11.5.3.3.2. Kreditin müddətinin bitməsinə bir il və daha az müddət qaldıqda, vaxtından əvvəl ödənilmiş məbləğin 0.5 (sıfır tam onda beş) faizi.
11.5.3.4. Borcalan tərəfindən son on iki ay ərzində kredit üzrə vaxtından əvvəl ödənilmiş məbləğ Azərbaycan Respublikası üzrə müəyyən edilmiş minimum əməkhaqqı məbləğinin qırx mislindən çox olarsa, Bank ona belə ödəmələr zamanı dəymiş zərəri məhkəmə qaydasında və ya zərərin baş verdiyi tarixdən sonra Borcalanla ayrıca razılıq əldə etməklə sübut etmək şərtilə bu müqavilənin 11.5.3.3-cü yarımbəndində göstərilmiş kompensasiya məbləğlərindən daha yüksək (dəymiş zərərə mütənasib) kompensasiya tələb edə bilər. Bu halda, Banka dəymiş zərər qaytarılan kreditin həmin kreditə dair

Tərəflərin razılaşmasında nəzərdə tutulan faiz dərəcəsi ilə vaxtından əvvəl ödənilmə anında Bankın borc verdiyi eyni təyinatlı kreditin faiz dərəcəsi arasındakı fərqdən ibarətdir.

11.5.3.5. Kompensasiya məbləği hər bir halda kreditin Borcalan tərəfindən vaxtından əvvəl ödənilməsi anı ilə müqavilənin müddətinin başa çatması anı arasındakı müddətdə ödənilməli olan illik faiz dərəcəsi üzrə hesablanmış faiz məbləğlərindən çox ola bilməz.

11.5.3.6. Overdraft üzrə vaxtından əvvəl geri qaytarılan vəsaitə görə kompensasiya məbləği tələb edilə bilməz.

11.5.3.7. Azərbaycan Respublikası qanunvericiliyində və bu müqavilədə nəzərdə tutulan hallarda Bank kreditin vaxtından əvvəl qaytarılmasına görə Borcalandan kompensasiya məbləği tələb edə bilməz.

11.5.3.8. Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulan hallarda Bank Borcalandan bu müqavilədə nəzərdə tutulandan daha yüksək kompensasiya məbləği tələb edə bilər.

11.5.4. **Dəbbə pulu və gecikdirilmə faizləri**

11.5.4.1. Borcalan kredit xətti borcu üzrə ödənişləri gecikdirdikdə Bank borcun gecikdirildiyi hər təqvim günü üçün gecikdirilən borc məbləğinin illik 42 (qırx iki) faizi həcmində Borcalandan dəbbə pulu tələb edə bilər. Dəbbə pulu yalnız borcun qaytarıldığı günədək ödənilməmiş əsas borc qalığı məbləğinə hesablanır.

11.5.4.2. Borcalan digər istehlak krediti üzrə ödənişləri gecikdirdikdə Bank ödənişlərin gecikdirilməsinə görə Borcalandan gecikdirilmə faizləri tələb edə bilər. Bu halda gecikdirilmə faizləri kredit üzrə illik faiz dərəcəsinə 5 (beş) faiz bəndi əlavə edilməklə hesablanır. Gecikdirilmə faizlərinin hesablanması 180 gündən çox davam edə bilməz. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Borcalandan həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

11.5.5. **Vaxtından əvvəl icra tələbi**

11.5.5.1. Bank aşağıdakı hallarda kreditin və həmin günədək hesablanmış faiz və (və ya) digər ödənişlərin vaxtından əvvəl qaytarılmasını Borcalandan tələb edə bilər:

11.5.5.1.1.Borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi (o cümlədən müqavilə bağlanılmazdan əvvəl baş vermiş və müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə Banka sonradan məlum olduqda) və ya Borcalanın Banka hər hansı yanlış məlumat verməsi səbəbindən kreditin vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;

11.5.5.1.2. Kredit üzrə vaxtı çatmış borcun (faizlər və (və ya) haqlar daxil olmaqla) 90 (doxsan) gün və ya daha çox müddətə gecikdirilməsi;

11.5.5.1.3. Kredit üzrə borcun (faizlər və (və ya) haqlar daxil olmaqla) ödənilməsi müddətlərinin ardıcıl olaraq iki dəfə pozulması (90 (doxsan) gündən az olmamaqla);

11.5.5.1.4. Borcalan borc öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, Bankın cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda. Bu yarımbəndin birinci cümləsi o halda tətbiq edilir ki, Borcalan Bank tərəfindən tələb irəli sürüldükdən sonra 2 (iki) ay ərzində təminatı əvəz etməmiş və ya əlavə təminat təqdim etməmiş olsun;

11.5.5.1.5. Borcun təyinatı Tərəflər arasındakı razılaşmada göstərildikdə Borcalan Banka borcun təyinatı üzrə istifadə edilməsinə bu müqavilədə nəzərdə tutulmuş qaydada nəzarət etməyə imkan vermədikdə və ya borc təyinatı üzrə istifadə olunmadıqda.

11.5.5.2. Bu maddədə Borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi dedikdə ödəmə qabiliyyətinin aşağı düşməsi, iş yerinin itirilməsi, əmək haqqının və ya gəlir mənfəətin azaldılması, Müştərinin borcun gəlirə nisbəti (BGN) əmsalının 45 (qırx beş) faizdən çox olması, borclunun əmlakı üzərinə həbs qoyulması, başqa kreditlərin götürülməsi nəticəsində borc yükünün artması, Borcalana

kredit verildikdən sonra digər şəxs(lər)in öhdəliyinin təminatı qismində Borcalanın özü və ya əmlakı çıxış etdikdə, Azərbaycan Respublikasının qanunvericiliyinə, habelə Borcverənin kredit risklərinin idarə edilməsi strategiyasına və siyasətinə əsasən müəyyən edilən Borcverənin daxili risk reytinqi üzrə Borcalanın risk dərəcəsi Borcverən üçün əlverişli olmayan səviyyəyə çatdıqda, kredit öhdəliyinin vaxtında icra edilməməsi və bunlarla məhdudlaşmayan başqa hallar nəzərdə tutulur.

11.5.6. **Monitorinq və nəzarət**

11.5.6.1. Bank kreditin təyinatı üzrə istifadə edilib-edilmədiyini öyrənmək üçün monitorinq həyata keçirə bilər. Monitorinq aşağıdakı yollarla həyata keçirilə bilər:

11.5.6.1.1.Borcalandan kreditin təyinatı üzrə istifadə edilməsini təsdiq edən sənədləri tələb etmək;

11.5.6.1.2.Soraqlaşma;

11.5.6.1.3.Açıq məlumat resurslarında araşdırma;

11.5.6.1.4.Borcalanın əvvəlcədən və ya sonradan verilmiş razılığı ilə informasiya ehtiyatlarından məlumatların əldə edilməsi;

11.5.6.1.5.Kredit müəyyən malların, xidmətlərin və ya işlərin əldə edilməsi üçün verildikdə əldə edilən (edilməli olan) mallarla, ximdətlərin və ya işlərin nəticələri ilə yerində tanış olmaq;

11.5.6.1.6.Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən digər yollarla.

11.5.6.2. Bank monitorinqi bu müqavilənin 11.5.6.1.5-ci yarımbəndi əsasında həyata keçirdikdə bu barədə Borcalana azı 1 (bir) təqvim günü əvvəlcədən məlumat verməlidir.

11.5.7. Məlumat əldə etmək hüququ

11.5.7.1. Borcalan kreditin müddəti ərzində Bankdan sorğu əsasında ödənişsiz olaraq kağız daşıyıcıda təqvim ili ərzində iki dəfə (müqavilədə daha əlverişli hal nəzərdə tutulmadıqda), digər davamlı daşıyıcıda isə istənilən zaman kreditin qalığı barədə hesabdan çıxarışı kreditin ödəniş qrafiki şəklində əldə edə bilər.

11.5.7.2. Ödəniş qrafikində ən azı həyata keçirilməli olan ödənişlər, belə ödənişlərin müddətləri, ödənişlərin strukturu, o cümlədən illik faiz dərəcəsi üzrə hesablanmış faizlər və tətbiq olunan digər əlavə xərclər göstərilir.

11.5.7.3. Bank hesabının kreditləşdirilməsi hallarında Bank Müştərini vaxtaşırı olaraq kağız və ya digər davamlı daşıyıcıda hesabdan çıxarış vasitəsilə aşağıdakılar barədə məlumatlandırır:

11.5.7.3.1. Hesabdan çıxarışın aid olduğu dövr;

11.5.7.3.2. Kreditləşdirilmənin tarixləri və məbləğləri;

11.5.7.3.3. Əvvəlki çıxarış üzrə balans və onun tarixi;

11.5.7.3.4. Cari çıxarış tarixinə yeni balans;

11.5.7.3.5. Müştəri tərəfindən edilmiş ödənişlərin məbləğləri və tarixləri;

11.5.7.3.6. Kredit üzrə faiz dərəcəsi;

11.5.7.3.7. Tətbiq edilən istənilən xərclər və digər haqlar;

11.5.7.3.8. Tətbiq edildikdə, ödənilməli olan minimum məbləğ.

11.5.8. **Məlumat təqdim etmək öhdəliyi**

11.5.8.1. Bank qanunvericiliyinə uyğun olaraq Bank Borcalanın borcları barədə neqativ və (və ya) pozitiv məlumatı Kredit Bürosuna və Bankın iştirakçısı olduğu borcalanların kredit reyestrini aparan hüquqi şəxslərə, qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət orqanlarına təqdim edə bilər.

11.5.8.2. Borcalan Azərbaycan Respublikasının qanunvericiliyində və (və ya) bu müqavilədə nəzərdə tutulan hallarda Bankın tələb etdiyi məlumatları ona təqdim etməyə borcludur.

11.5.8.3. Borcalanın maliyyə durumunda, əmlak vəziyyətində, onun barəsində məhkəmə icraatında olan və ya məhkəmə ilə nəticələnə biləcək bütün hallar barəsində dərhal Banka məlumat verməyə borcludur.

11.5.8.4. Kredit xəttinin ödəniş kartı vasitəsilə açıldığı hallarda ödəniş kartı itirildikdə, oğurlandıqda və ya digər şəkildə sahibliyi üçüncü şəxslərə keçdikdə, o cümlədən həssas ödəniş məlumatlarının üçüncü şəxslərə məlum olduğu aşkar edildikdə Müştəri 24 (iyirmi dörd) saat ərzində Banka məlumat verməlidir.

11.5.9. **Bildirişlər**

11.5.9.1. Bankın Borcalana olan bildirişləri, xəbərdarlıqları və digər sənədləri Borcalanın bu müqavilədə və ya müvafiq razılaşmada qeyd edilmiş ünvanına sifarişli məktub, elektron poçt və ya teleqramla, eləcə də təqdimetməni təsdiq edən digər üsulla çatdırıla bilər. Həmin ünvana göndərilmiş bildirişlər Borcalana çatdırılmış hesab olunacaqdır.

11.5.10. **Güzəşt müddəti**

11.5.10.1. Tərəflərin razılaşmasında nəzərdə tutulduqda Bank kreditin geri qaytarılmasına güzəşt müddəti təyin edə bilər. Güzəşt müddəti ərzində Borcalan yalnız faiz borcunu ödəyir. Müştəri güzəşt müddəti ərzində ödənişləri gecikdirdikdə Bank birtərəfli qaydada güzəştləri ləğv edə və Müştəriyə yeni ödəniş qrafiki təqdim edə bilər. Bu halda Müştəri kreditin geri qaytarılmasını yeni ödəniş qrafiki əsasında həyata keçirməlidir.

11.5.11. **Məsafədən istehlak kreditinin verilməsinin məhdudlaşdırılması**

11.5.11.1. Qüvvədə olan qanunvericilik aktlarında Borcalana belə hüququn verilməsi birbaşa nəzərdə tutulduğu halda, Borcalan istehlak krediti müqaviləsinin məsafədən bağlanılmasına və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsinə məhdudiyyət tətbiq edə bilər. Borcalan belə məhdudiyyət tətbiq etdikdə, Bank həmin məhdudiyyəti nəzərə almalı və belə məhdudiyyət mövcud olduğu halda istehlak krediti müqaviləsini məsafədən bağlamamalı və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik etməməlidir.

11.5.11.2. Bank tərəfindən bu müqavilənin 11.5.11.1-ci bəndində qeyd olunan məhdudiyyətin mövcudluğunun müəyyən edilməməsi və ya məhdudiyyətin mövcud olmasına baxmayaraq istehlak krediti müqaviləsinin məsafədən bağlanılması və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsi halında, Borcalan verilmiş (artırılmış) kredit üzrə öhdəlikdən azad edilir.

11.6. **Digər kredit məhsullarına dair ümumi şərtlər**[2]

11.6.1. **Borcun qaytarılması**

11.6.1.1. Kredit nağdsız qaydada geri qaytarılır. Bank tərəfindən başqa qayda nəzərdə tutulmadıqda, Müştəri krediti Bankda açılmış və kreditin verilməsi üçün istifadə edilən hesaba köçürməklə geri qaytarır.

11.6.1.2. Kredit ödəniş terminalları vasitəsilə qaytarılarkən, tətbiq olunduqda, Müştəri ödəniş terminalında kreditin qaytarılması üçün nəzərdə tutulan funksiyadan istifadə etməlidir.

11.6.1.3. Kreditin qaytarıldığı gün kredit məbləğinin Bankın, yaxud onun göstərdiyi üçüncü şəxsin hesabına xidmət göstərən kredit təşkilatının və ya digər şəxsin hesabına mədaxil edildiyi gün hesab olunur.

11.6.1.4. Vəsaitlər hesaba mədaxil edildikdən sonra Bank tərəfindən dəbbə pulu, xərclər (əgər varsa), faiz və əsas borcun ödənilməsi məqsədilə silinir. Bu bənddə qeyd olunan ödəniş növbəliliyi ilə bağlı Bank öz mülahizəsinə əsasən başqa qayda müəyyən edə bilər.

11.6.1.5. Kredit xarici valyutada verilərsə, kreditin verilməsi tarixindən və manata nisbətən həmin xarici valyutanın məzənnəsinin dəyişməsindən asılı olmayaraq, borcun Banka qaytarılması zamanı yenidən hesablama (məzənnə fərqi) ödəniş anında, ödəniş yerinin məzənnəsi üzrə aparılır.

[2] Bu bəndin müddəaları bu Müqavilə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq istehlak krediti hesab edilməyən kreditlərə münasibətdə tətbiq edilir.

11.6.1.6. Borcalan xarici valyutada götürülmüş kredit üzrə manatın məzənnəsinin dəyişməsinin mümkünlüyünü bilir və bu halda o, xarici valyutada götürülmüş kreditin məzənnəsinin dəyişməsi riskini öz üzərinə götürür və məsuliyyət daşıyır.
11.6.1.7. Bank Borcalanın ona qarşı olan vaxtı çatmış öhdəliklərini onun Bankda olan istənilən hesabından akseptsiz qaydada silə bilər.
11.6.1.8. Tərəflərin razılaşmasında ayrı qayda nəzərdə tutulmadıqda kredit ödəniş qrafikinə uyğun olaraq geri qaytarılır. Kredit SMS və ya digər elektron məlumat mübadiləsi vasitələrilə verildikdə Bank geri qaytarılması üçün məbləğ və tarixləri SMS və ya digər vasitələrlə Müştəriyə bildirir.
11.6.1.9. Kiçik, orta və iri sahibkarlara ayrılan kredit xətti daxilində hər tranş üzrə tranşın verildiyi tarixdən 1 (bir) ay sonrakı tarix (növbəti ayın eyni günü) ödəniş tarixi hesab edilir. Bu bəndin birinci cümləsində nəzərdə tutulan müddət növbəti aylar üçün də tətbiq edilir.
11.6.1.10. Müştəri ödəniş qrafiki üzrə aylıq ödəməli olduğu borc məbləğinin 120 (yüz iyirmi) faizindən daha çox məbləğ ödəyərsə, Müştərinin ərizəsi (birdəfəlik və ya ümumi) əsasında artıq ödənilən vəsait saxlanıla və vaxtı çatdıqda ödəniş qrafiki üzrə növbəti ayların ödənişinə yönəldilə bilər;
11.6.1.11. Kredit xəttinə vaxtından əvvəl xitam verildikdə, açılmış kredit xəttinin 2%-i miqdarında komissiya haqqı Banka ödəniləcəkdir.
11.6.2. Borc vermək öhdəliyinin birtərəfli ləğvi
11.6.2.1. Aşağıdakı hallarda Bank kredit öhdəliyini birtərəfli qaydada tam və ya qismən ləğv edə bilər:
11.6.2.1.1. Borcalanın əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə;
11.6.2.1.2. Borcalanın Banka hər hansı yanlış məlumat verməsi səbəbindən kreditin vaxtında qaytarılmayacağı açıq-aşkar bəlli olduqda; və ya
11.6.2.1.3. Borcalan kreditin verilməsi üçün Tərəflərin razılaşmasında nəzərdə tutulmuş öhdəliyini icra etmədikdə, o cümlədən təminat təqdim etmədikdə;
11.6.2.1.4. ESİ faktorları üzrə tələblər Müştəri tərəfindən nəzərə alınmadıqda və ya kobud qaydada pozulduqda.
11.6.2.2. Bu bəndin məqsədləri üçün "tam və ya qismən ləğvetmə" dedikdə birdəfəlik və ya kredit limiti daxilində verilən kreditə, o cümlədən kredit xəttinin açılmasına dair razılaşmanın birtərəfli qaydada vaxtından əvvəl ləğvi və kreditin verilməsindən imtina başa düşülür.
11.6.3. **Kredit almaq öhdəliyinin ləğvi və kreditin vaxtından əvvəl qaytarılması**
11.6.3.1. Borcalan kredit məbləği ona verilənədək kreditin alınmasından tam və ya qismən birtərəfli qaydada imtina edə bilər. Bu halda Borcalan Bank tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının məbləğini Banka ödəməlidir.
11.6.3.2. Borcalan kreditin verildiyi gündən qaytarıldığı günədək hesablanmış faizləri və (və ya) haqları ödəməklə, krediti vaxtından əvvəl qaytara bilər. Bu halda Bank kreditin vaxtından əvvəl qaytarılması nəticəsində ona dəyən zərərin əvəzini Borcalandan tələb edə bilər.
11.6.3.3. Borcalan sahibkarlıq subyekti olduqda, Bankın fəaliyyət növünü və kreditin verilməsi üçün Bankın sərf etdiyi resursların (vaxt, işçi qüvvəsi, maliyyə vəsaiti, ehtiyatların yaradılması və s.) effektiv idarəetməsini nəzərə alaraq, Borcalan ödəniş cədvəli üzrə ödəməli olduğu aylıq məbləğin 20 (iyirmi) faizindən çox hissəsini vaxtından əvvəl qaytardıqda və bu müqaviləyə uyğun olaraq həmin vəsait əsas borcun ödənilməsinə yönəldildikdə Bank aşağıdakı məbləğlərdə komissiya haqqının ödənilməsini tələb edə bilər:
11.6.3.3.1. Aqro və (və ya) mikro kreditlər üzrə:

a. <u>Əsas borc üzrə vaxtından əvvəl qismən ödəniş edildikdə</u> - edilən ödəniş qalıq əsas borcun neçə faizini təşkil edirsə, növbəti 2 (iki) ayın faiz məbləğinin cəminin həmin faizi qədər;

b. Əsas borc tam ödənildikdə - aşağıdakılardan daha aşağı olan məbləği:

b-1. Müddətin sonunadək ödəniş cədvəlində göstərilmiş və ödənilməmiş bütün faiz məbləğləri; və ya

b-2. Ödəniş cədvəlində olan növbəti 2 (iki) ayın faiz borcu

11.6.3.3.2. Kiçik, orta və iri sahibkarlara verilən kreditlər üzrə (aqro kreditlər daxil deyil):

a. Əsas borc üzrə vaxtından əvvəl qismən ödəniş edildikdə - edilən ödəniş kredit üzrə qalıq əsas borcun neçə faizini təşkil edirsə, cari ödəniş cədvəli üzrə (silinmədən öncəki ödəniş cədvəli) növbəti 2 (iki) ayın faiz məbləğlərinin cəminin həmin faizi qədər;

b. Əsas borc tam ödənildikdə - aşağıdakılardan daha aşağı olan məbləği:

b-1. Müddətin sonunadək ödəniş cədvəlində göstərilmiş və ödənilməmiş bütün faiz məbləğləri; və ya

b-2. Ödəniş cədvəlində olan (silinmədən öncəki ödəniş cədvəli) növbəti 2 (iki) ayın faiz borcu.

11.6.3.3.4. Kreditin "aqro və (və ya) mikro kredit" və ya "kiçik, orta və iri sahibkarlara verilən kredit" olması Tərəflərin razılaşmasında müəyyən edilir.

11.6.4. **Gecikdirmə faizləri**

11.6.4.1. Bank Borcalanın kredit üzrə ödənişləri gecikdirməsinə görə ondan əlavə faizlər (gecikdirmə faizləri) tələb edə bilər. Bu halda gecikdirmə faizləri kredit üzrə illik faiz dərəcəsinə öhdəliyin icra edilmə günü üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi əlavə edilməklə hesablanır.

11.6.4.2. Əgər Banka dəyən zərər gecikdirmə faizlərinin məbləğindən çoxdursa, Bank Borcalandan həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

11.6.5. Vaxtından əvvəl icra tələbi

11.6.5.1. Bank aşağıdakı hallarda kreditin və həmin günədək hesablanmış faiz və (və ya) digər ödənişlərin vaxtından əvvəl qaytarılmasını Borcalandan tələb edə bilər:

11.6.5.1.1. Borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi (o cümlədən müqavilə bağlanılmazdan əvvəl baş vermiş və müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə Banka sonradan məlum olduqda) və ya Borcalanın Banka hər hansı yanlış məlumat verməsi səbəbindən kreditin vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;

11.6.5.1.2. Kredit üzrə vaxtı çatmış borcun (faizlər və (və ya) haqlar daxil olmaqla) 90 (doxsan) gün və ya daha çox müddətə gecikdirilməsi;

11.6.5.1.3. Kredit üzrə borcun (faizlər və (və ya) haqlar daxil olmaqla) ödənilməsi müddətlərinin ardıcıl olaraq iki dəfə pozulması (90 (doxsan) gündən az olmamaqla);

11.6.5.1.4. Borcalan borc öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, Bankın cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda. Bu yarımbəndin birinci cümləsi o halda tətbiq edilir ki, Borcalan Bank tərəfindən tələb irəli sürüldükdən sonra 2 (iki) ay ərzində təminatı əvəz etməmiş və ya əlavə təminat təqdim etməmiş olsun.

11.6.5.1.5. Borcun təyinatı Tərəflər arasındakı razılaşmada göstərildikdə Borcalan Banka borcun təyinatı üzrə istifadə edilməsinə bu müqavilədə nəzərdə tutulmuş qaydada nəzarət etməyə imkan vermədikdə və ya borc təyinatı üzrə istifadə olunmadıqda;

11.6.5.1.6. ESİ faktorları üzrə tələblər Müştəri tərəfindən nəzərə alınmadıqda və ya kobud qaydada pozulduqda.

11.6.5.2. Bu maddədə Borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi dedikdə ödəmə qabiliyyətinin aşağı düşməsi, iş yerinin itirilməsi, əmək haqqının və ya gəlir mənfəətin azaldılması, borclunun əmlakı üzərinə həbs qoyulması, başqa kreditlərin götürülməsi nəticəsində borc yükünün artması, kredit öhdəliyinin vaxtında icra edilməməsi və bunlarla məhdudlaşmayan başqa hallar nəzərdə tutulur. Müştərinin əmlak vəziyyətini yoxlamaq üçün Bank onun vəziyyətini yerində yoxlaya, əməliyyatlarını, vergi bəyannaməsini və digər sənədləri nəzərdən keçirə bilər. Müştəri Bankın onun vəziyyətini yerində yoxlamasına şərait yaratmalı və onun tələb etdiyi sənədləri 2 (iki) iş günü ərzində təqdim etməlidir.

11.6.6. **Monitorinq və nəzarət**

11.6.6.1. Bank kreditin təyinatı üzrə istifadə edilib-edilmədiyini, habelə Müştəri tərəfindən ESİ faktorların öz biznes fəaliyyətində nəzərə alınıb-alınmadığını müəyyən etmək üçün monitorinq həyata keçirə bilər. Monitorinq aşağıdakı yollarla həyata keçirilə bilər:

11.6.6.1.1. Borcalandan kreditin təyinatı üzrə istifadə edilməsini təsdiq edən sənədləri tələb etmək;

11.6.6.1.2. Soraqlaşma;

11.6.6.1.3. Açıq məlumat resurslarında araşdırma;

11.6.6.1.4. Borcalanın əvvəlcədən və ya sonradan verilmiş razılığı ilə informasiya ehtiyatlarından məlumatların əldə edilməsi;

11.6.6.1.5. Kredit müəyyən malların, xidmətlərin və ya işlərin əldə edilməsi üçün verildikdə əldə edilən (edilməli olan) mallarla, ximdətlərin və ya işlərin nəticələri ilə yerində tanış olmaq;

11.6.6.1.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən digər yollarla.

11.6.6.2. Bank monitorinqi bu müqavilənin 11.6.6.1.5-ci yarımbəndi əsasında həyata keçirdikdə bu barədə Borcalana azı 1 (bir) təqvim günü əvvəlcədən məlumat verməlidir.

11.6.7. **Məlumat əldə etmək hüququ**

11.6.7.1. Borcalan kreditin müddəti ərzində Bankdan sorğu əsasında Bankın tariflərinə uyğun olaraq kağız və ya digər davamlı daşıyıcıda kreditin qalığı barədə hesabdan çıxarışı kreditin ödəniş qrafiki şəklində əldə edə bilər.

11.6.7.2. Ödəniş qrafikində ən azı həyata keçirilməli olan ödənişlər, belə ödənişlərin müddətləri, ödənişlərin strukturu, o cümlədən illik faiz dərəcəsi üzrə hesablanmış faizlər və tətbiq olunan digər əlavə xərclər göstərilir.

11.6.8. **Məlumat təqdim etmək öhdəliyi**

11.6.8.1. Bank qanunvericiliyinə uyğun olaraq Bank Borcalanın borcları barədə neqativ və (və ya) pozitiv məlumatı Kredit Bürosuna və Bankın iştirakçısı olduğu borcalanların kredit reyestrini aparan hüquqi şəxslərə, qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət orqanlarına təqdim edə bilər.

11.6.8.2. Borcalan Azərbaycan Respublikasının qanunvericiliyində və (və ya) bu müqavilədə nəzərdə tutulan hallarda Bankın tələb etdiyi məlumatları ona təqdim etməyə borcludur.

11.6.8.3. Borcalanın maliyyə durumunda, əmlak vəziyyətində, onun barəsində məhkəmə icraatında olan və ya məhkəmə ilə nəticələnə biləcək bütün hallar barəsində dərhal Banka məlumat verməyə borcludur.

11.6.8.4. Kredit xəttinin ödəniş kartı vasitəsilə açıldığı hallarda ödəniş kartı itirildikdə, oğurlandıqda və ya digər şəkildə sahibliyi üçüncü şəxslərə keçdikdə, o cümlədən həssas ödəniş məlumatlarının üçüncü şəxslərə məlum olduğu aşkar edildikdə Müştəri 24 (iyirmi dörd) saat ərzində Banka məlumat verməlidir.

11.6.9. **Bildirişlər**

11.6.9.1. Bankın Borcalana olan bildirişləri, xəbərdarlıqları və digər sənədləri Borcalanın bu müqavilədə və ya müvafiq razılaşmada qeyd edilmiş ünvanına sifarişli məktub və ya teleqramla, eləcə də təqdimetməni təsdiq edən digər üsulla çatdırıla bilər. Həmin ünvana göndərilmiş bildirişlər Borcalana çatdırılmış hesab olunacaqdır.

11.6.10. **Güzəşt müddəti**
11.6.10.1. Tərəflərin razılaşmasında nəzərdə tutulduqda Bank kreditin geri qaytarılmasına güzəşt müddəti təyin edə bilər. Güzəşt müddəti ərzində Borcalan yalnız faiz borcunu ödəyir. Müştəri güzəşt müddəti ərzində ödənişləri gecikdirdikdə Bank birtərəfli qaydada güzəştləri ləğv edə və Müştəriyə yeni ödəniş qrafiki təqdim edə bilər. Bu halda Müştəri kreditin geri qaytarılmasını yeni ödəniş qrafiki əsasında həyata keçirməlidir.
11.7. Bu maddənin məqsədləri üçün "Borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi" dedikdə Borcalanın iş yerinin itirilməsi, əmək haqqının azaldılması, əmlakı üzərinə həbs qoyulması, başqa kreditlərin götürülməsi nəticəsində borc yükünün artması, kredit öhdəliyinin vaxtında icra edilməməsi və öhdəliyin vaxtında icra edilməsinə maneə yaradan hallar başa düşülür.
11.8. **Müştəri tərəfindən ESİ (Ekoloji, Sosial və İdarəetmə) faktorlarına uyğunluğun təmini**
Müştərilər fəaliyyəti zamanı aşağıda qeyd olunan ESİ faktorlarına diqqət yetirməli və bu sahədə mövcud pozuntuların aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görməlidir:
11.8.1. **Ekoloji faktorlar:**
11.8.1.1. Ətraf mühitin qorunması ilə bağlı icrası məcburi ekoloji tələblərə və normativlərə riayət etmək;
11.8.1.2. Müştərinin fəaliyyət ilə bağlı müvafiq icazə və ya lisenziya əldə edilməlidirsə, bu cür fəaliyyəti yalnız müvafiq icazə və razılığın əldə edilməsində sonra həyata keçirilmək;
11.8.1.3. Şirkətin idarəedilməsi və fəaliyyəti zamanı, ciddi ekoloji zərərli fəaliyyətlə məşğul olmamaq (məsələn, qanunsuz tullantıların atılması, ağacların və meşələrin məhv edilməsi, su hövzələrinin çirkləndirilməsi və s.);
11.8.1.4. Müştərinin fəaliyyət növü birbaşa ətraf mühitə zərərli fəaliyyətdirsə, vurulan ekoloji zərərin aradan qaldırılması üçün bərpa və reabilitasiya işləri aparmaq.
11.8.2. **Sosial Pozuntular:**
11.8.2.1. İşçilərinin istismarı, qanunvericiliklə müəyyən olunmuş minimum əməkhaqqı miqdarından aşağı və təhlükəli iş şəraitinin təqdim edilməsi, diskriminasiya və ya uşaq əməyindən istifadə hallarına yol verməmək, universal qəbul edilmiş insan hüquqlarına hörmət edilməsi.
11.8.3. **İdarəetmə Pozuntuları:**
11.8.3.1. Birbaşa və ya dolayı yolla çirkli pulların yuyulmasında, qeyri-qanuni gəlirlərin qanuniləşdirilməsində, korrupsiyada, bilərəkdən vergidən yayınmada və ya hər hansı digər qanunsuz fəaliyyətdə iştirak etməyəcəklər;
11.8.3.2. Tərəfdaşları və əməkdaşlarının çirkli pulların yuyulması, korrupsiya və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı qanunvericiliyi pozmasının qarşısını almaq üçün uyğun prosedurlar tətbiq edəcəklər;
11.8.3.3. Korporativ idarəetmə prinsiplərinə açıq-aşkar zidd şəkildə fəaliyyət göstərməmək, Biznes əməliyyatlarında şəffaflıq və hesabatlılığın təmin edilməsinə səy göstərmək.

12. Qarantiya

12.1. Bank Müştərinin müraciətinə əsasən bağlanmış müvafiq razılaşmaya əsasən (Bundan sonra "Razılaşma" adlandırılacaq) müştərinin Benefisiarına (Müştəri ilə bağlanmış müqaviləyə əsasən (alğı-satqı, xidmət və s.) müştəridən həmin müqavilə üzrə öhdəliyin icrasını tələb etmək hüququna malik olan şəxs) təqdim edilən Bank zəmanəti verir. Bank zəmanətinin müddəti, məbləği, muzd, komissiya haqları və s. spesifik şərtlər razılaşmada qeyd edilir.
12.2. Qarantiya Tərəflər arasındakı razılaşmaya uyğun olaraq birdəfəlik və ya kredit limiti daxilində verilə bilər.

12.3. **Qarantiyadan istifadə ilə bağlı tərəflərin hüquq və vəzifələri aşağıdakılardan ibarətdir:**
12.3.1. **Bank:**
12.3.1.1. Benefisiar tərəfindən tələbi irəli sürülərkən, ona qoşulmalı sənədlərin siyahısını müəyyən edir və bunları qarantiya məktubunda göstərir;
12.3.1.2. Əgər Benefisiarın tələbi və ya ona qoşulmuş sənədlər qarantiya şərtlərinə uyğun deyildirsə və ya qarantiyada təyin edilmiş müddət qurtardıqdan sonra Banka təqdim edilmişdirsə, bu tələbi ödəməkdən imtina edir;
12.3.1.3. Razılaşmaya uyğun olaraq xərcləri, ödənişləri müştərinin hesablarından silir;
12.3.1.4. Qarantiya üzrə Benefisiara ödənilmiş məbləğlərin əvəzinin ödənilməsini müştəridən reqress qaydasında tələb edir;
12.3.1.5. Müştərinin Benefisiar qarşısında əsas öhdəliklərini lazımınca icra etmədiyi halda, razılaşmanın müddəti bitənədək Benefisiarın tələbi ilə, müştərinin Benefisiara olan borcunu qarantiya məbləği həcmində ödəyir;
12.3.1.6. Benefisiarın tələbini aldıqdan sonra bu barədə ləngimədən müştəriyə məlumat verir və tələbin surətini ona aid bütün sənədlərlə birlikdə müştəriyə təqdim edir;
12.3.1.7. Qoşulmuş sənədlərlə birlikdə Benefisiarın tələbinə qarantiyada göstərilmiş müddətdə baxır, həmin tələbin və ona qoşulmuş sənədlərin qarantiya şərtlərinə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirməyə ciddi diqqət göstərir.
12.3.2. **Müştəri:**
12.3.2.1. Razılaşmaya uyğun olaraq, muzdun, xərclərin, ödənişlərin Bank tərəfindən öz hesablarından silinməsinə razılaşır;
12.3.2.2. Benefisiar qarşısında götürdüyü öhdəliklərini lazımınca və vaxtında icra edir;
12.3.2.3. Həmin öhdəliklərini icra etdikdən dərhal sonra bu barədə Banka məlumat verir;
12.3.2.4. Bank Benefisiarın tələblərini ödədiyi təqdirdə razılaşma ilə nəzərdə tutulmuş qaydada Bankın reqress tələblərini, ona vurulmuş bütün ziyanlar daxil olmaqla ödəyir;
12.3.2.5. Benefisiar tərəfindən qarantiyaya vaxtından əvvəl xitam verilməsi və ya qarantiyanın müddətinin bitməsi ilə bağlı müvafiq məktubun Bankın tələbi ilə aidiyyatı şəxslərə çatdırılmasını təmin edir;
12.3.2.6. Razılaşmada qeyd edilmiş öhdəliklərin icrası ilə bağlı Qarant tərəfindən çəkilmiş bütün xərclərin (qarantiyanın verilməsi ilə bağlı qeyri-rezident banklara ödənilən məbləğlər də daxil olmaqla) öz hesablarından silinməsinə razılaşır.
12.4. Benefisiar tərəfindən qarantiya üzrə tələb irəli sürüldükdə tələb aşağıdakı qaydada ödənilir:
12.4.1. Müştərinin Bankdakı hesabında mövcud olan vəsaitdən akseptsiz qaydada silməklə və ya Müştərinin ödəniş tapşırığı ilə (Bankın seçiminə əsasən) hesabdakı pul vəsaiti hesabına, Müştərinin təqdim etdiyi əlavə pul vəsaiti hesabına və (və ya) qarantiyanın təminatı olaraq götürülən öhdəliyin təminatı vasitəsi hesabına - 3 (üç) iş günü ərzində; və ya
12.4.2. Bu müqavilənin 12.4.1-ci yarımbəndində nəzərdə tutulan qaydada və müddətdə tələbin ödənilməsi mümkün olmadıqda Bank tələbin ödənilməsi üçün lazımi həddə Müştəriyə kredit ayırır və ayrılmış kredit hesabına tələb ödənilir.
12.5. Qarantiya üzrə tələbin ödənilməsi üçün Müştəriyə kredit ayrıldıqda kredit üzrə münasibətlər bu müqavilənin 11-ci maddəsi və Tərəflər arasında bağlanılmış razılaşmalar ilə tənzimlənir.
12.6. Qarantiya verilməsinə görə Müştəridən xidmət haqqı qismində muzd və/ və ya komissiya haqları alınır. Muzd qarantiya məbləğinin faiz nisbətində müəyyən olunur. Faizlər Müştəri tərəfindən, tərəflərin qarşılıqlı razılaşması ilə təyin edilmiş faizlərin ödəniş cədvəlinə əsasən hər ay ödəmə (və ya hesabdan silinmə) yolu ilə aparılır.

12.7. Faizlərin hesablanması Qarantiyanın açıldığı gündən başlayaraq Qarantiyanın bağlandığı günədək hər gün üçün hesablanır.
12.8. Faizlər ildə 360 gün, ayda 30 gün olmaqla hesablanır.
12.9. Qarantiya üzrə Benefisiara mənsub olan, Banka qarşı tələb irəli sürmək hüququ başqa şəxsə verilə bilməz.
12.10. Qarantiya üzrə muzd, komissiya haqqı, əlavə xidmətlər üzrə əlavə komissiya haqları, müxbir banklar tərəfindən Bankdan tutulan komissiya haqları, poçt, teleqraf, telefon və s. haqları, o cümlədən Bankın məruz qaldığı istənilən xərci Müştəri Banka ödəməlidir. Qarantiya üzrə ödənilməli olan muzd, komissiya haqqı və faiz ödənişləri, o cümlədən kredit üzrə faiz və digər ödənişlər Razılaşmada nəzərdə tutulur;
12.10.1. Qarantiyanın verilməsinə görə muzdun ödənilməsi qaydası: Qarantiyaya vaxtından əvvəl xitam barədə tələb gəldikdə tərəflərin razılaşması ilə ayrı qayda müəyyən edilə bilər.
12.11. Qarantın Benefisiar qarşısında qarantiyada nəzərdə tutulan öhdəliyi qarantiya verilmiş məbləğin ödənilməsi ilə məhdudlaşır.
12.12. Qarantın Benefisiar qarşısında qarantiya üzrə öhdəliyinə aşağıdakı hallarda xitam verilir:
12.12.1. Qarantiya verilmiş məbləğ Benefisiara ödənildikdə;
12.12.2. Qarantiyada müəyyənləşdirilmiş müddət qurtardıqda;
12.12.3. Benefisiar qarantiya üzrə hüquqlarından imtina etdikdə və onu Qaranta qaytardıqda;
12.12.4. Benefisiar Qarantı onun öhdəliyindən azad etməsi barədə yazılı ərizə vermək yolu ilə qarantiya üzrə hüquqlarından imtina etdikdə.
12.13. Benefisiarın qarantiya üzrə pul məbləği ödənilməsinə dair tələbi qarantiyada göstərilmiş sənədlər qoşulmaqla, Qaranta yazılı formada təqdim edilməlidir. Tələbdə və ya ona qoşmada Benefisiar Prinsipalın təminatı üçün qarantiya verilmiş əsas öhdəliyi pozmasının nədən ibarət olduğunu göstərməlidir.
12.14. Benefisiarın tələbi Qaranta qarantiyada müəyyənləşdirilmiş verilmə müddəti qurtaranadək təqdim edilməlidir.
12.15. Qarantiyaya dair Razılaşma üzrə "Qarant"a ödəniləcək ödənişlər ödəmə tarixində cari hesab vasitəsi ilə həyata keçiriləcəkdir. Vəsaitlər hesaba mədaxil edildikdən sonra "Qarant" tərəfindən dəbbə pulu, xərclər (əgər varsa), faiz və əsas borcun ödənilməsi məqsədi ilə akseptsiz qaydada silinir.
12.16. **Bu müqavilənin "Qarantiya"ya dair şərtləri Müştəri ilə Qarantiyaya dair müvafiq razılaşmanın bağlanması ilə qüvvəyə minəcəkdir.**

13. Akkreditiv

13.1. Akkreditiv üzrə Bank və Müştəri arasında bağlanılan müvafiq razılaşmaya əsasən Bank Müştəriyə Benefisiarın xeyrinə həmin razılaşmada göstərilən şərtlərlə kreditləşdirilə bilən akkreditiv açır, Müştəri isə öz növbəsində həmin razılaşmada və bu müqavilədə göstərilən qaydada muzdu və komissiya haqqını, o cümlədən akkreditiv kreditləşdirildikdə hesablanan faizləri, komissiya haqlarını və digər ödənişləri Banka ödəməyi öhdəsinə götürür.
13.2. Tərəflər arasındakı razılaşmada başqa qayda nəzərdə tutulmadıqda akkreditiv üzrə komissiya haqqı müvafiq akkreditivin açılması üzrə razılaşmanın imzalanmasından sonra dərhal ödənilir. Akkreditiv üzrə muzd akkreditiv məbləğinin faiz nisbətində müəyyən olunur. Akkreditiv üzrə illik faiz dərəcəsi dərhal və ya müvafiq ödəniş qrafiki üzrə ödənilir. Tərəflər arasındakı razılaşmada illik faiz dərəcəsinin ödənilməsi mexanizmi ilə bağlı qeyd yoxdursa, illik faiz dərəcəsi dərhal ödənilir.
13.3. Bank akkreditivin icrası üçün digər bankı icraçı bank olaraq cəlb edə bilər.

13.4. Benefisiar akkreditivin icrası üçün lazımi sənədləri ("icra sənədləri") Banka təqdim etdikdə Bank akkreditivi icra edir. Akkreditivin icrası üçün icraçı bank cəlb edildikdə, icraçı bank icra sənədlərini qəbul edə bilər. Lakin, bu, Bankın həmin sənədləri tələb etmək hüququnu məhdudlaşdırmır.
13.5. İcra sənədlərinin siyahısı Müştəri və Bank arasında bağlanılan razılaşmada müəyyən edilir. İcra sənədlərinin siyahısı icraçı banka və ya Benefisiarın özünə məlumat verməklə bildirilir.
13.6. İcra sənədlərindən hər hansı biri Banka (və ya icraçı banka) təqdim edilmədikdə, o cümlədən tələb və müvafiq sənədlər akkreditivin bitmə tarixindən sonra təqdim edildikdə Bank akkreditivin icrasından imtina edir.
13.7. Bank (və (və ya) icraçı bank) icra sənədlərinin yalnız formal baxımdan qaydada olmasını yoxlayır. Yəni, əgər sənəd Banka təqdim edilmişdirsə, Bank həmin sənədlərin məzmununun Azərbaycan Respublikasının qanunvericiliyinə və Müştəri ilə Benefisiar arasında olan razılaşmanın tələblərinə uyğunluğunu və sənədi imzalayan şəxslərin imza hüquqlarını yoxlamağa borclu deyil.
13.8. İcra sənədlərinin Banka (və ya icraçı banka) təqdim edilməsi akkreditiv üzrə tələbin irəli sürülməsi hesab edilir.
13.9. İcra sənədləri Banka təqdim edildikdə tələb aşağıdakı qaydada ödənilir:
13.9.1. (i) Müştərinin Bankdakı hesabında mövcud olan vəsaitdən akseptsiz qaydada silməklə və ya Müştərinin ödəniş tapşırığı ilə (Bankın seçiminə əsasən) hesabdakı pul vəsaiti hesabına,
(ii) Müştərinin təqdim etdiyi əlavə pul vəsaiti hesabına və (və ya) (iii) akkreditivin təminatı olaraq götürülən öhdəliyin təminatı vasitəsi hesabına - 3 (üç) iş günü ərzində; və ya
13.9.2. Bu müqavilənin 13.9.1-ci yarımbəndində nəzərdə tutulan qaydada və müddətdə tələbin ödənilməsi mümkün olmadıqda Bank tələbin ödənilməsi üçün lazımi həddə Müştəriyə birdəfəlik kredit ayırır və ayrılmış kredit hesabına tələb ödənilir.
13.10. Akkreditiv bu Razılaşmanın 13.9.2-ci bəndində nəzərdə tutulan qaydada icra edildikdə Müştəriyə ayrılmış kreditin xüsusi şərtləri Tərəflər arasındakı razılaşmada müəyyən edilir. Kreditə dair digər şərtlər (kreditin qaytarılması, vaxtından əvvəl tələb edilməsi, gecikdirilməsi və s.) bu müqavilədə həmin növ kredit üzrə nəzərdə tutulan qaydada tətbiq edilir.
13.11. Akkreditivin vaxtından əvvəl xitam barədə tələb gəldikdə tərəflərin razılaşması ilə əlavə muzd ödənilməsi müəyyən edilə bilər.

14. İnvoys diskontlaşdırılması

14.1. Bank Müştərinin icrası müvafiq sənədlərlə təsdiqlənən məhsul və ya xidmət üzrə üçüncü şəxslərə qarşı olan pul tələb(lər)ini (invoysları) qəbul edərək Müştəriyə kreditin verilməsi yolu maliyyələşdirir, Müştəri isə bu müqavilənin və bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən Razılaşmanın şərtlərinə əsasən borc pul vəsaitinin Banka vaxtında və tam şəkildə ödənilməsini təmin edir.
14.2. Bank tərəfindən Müştərinin maliyyələşdirilməsi zamanı kreditin valyutası Müştəri ilə üçüncü şəxslər arasında bağlanmış malın alğı-satqısına və ya xidmətlərin göstərilməsinə dair müqavilələrdə qeyd edilmiş müqavilə məbləğinin valyutasından fərqli valyutada da ifadə oluna bilər.
14.3. Müştəri onunla üçüncü şəxslər arasında bağlanmış malın alğı-satqısına və ya xidmətlərin göstərilməsinə dair müqavilələrə əsasən üzərinə düşən öhdəlikləri tamamilə icra etdiyi müqavilələrə dair "pul tələb(lər)ini" (invoysları), üçüncü şəxslər tərəfindən alğı-satqı dəyərinin ödənilməsi üçün müqavilə ilə tələb edilən və üçüncü şəxslərə verilən sənədlərin surətini Banka təqdim edəcəkdir.
14.4. Müştəri üçüncü şəxslər tərəfindən müvafiq müqavilə üzrə ödənişlərin Banka edilməsini təmin etməlidir. Üçüncü şəxslər tərəfindən Müştəriyə ödəniş edildiyi təqdirdə Müştəri həmin pul vəsaitini dərhal Banka ödəyəcəkdir. Bununla belə, Bank Müştərinin hesabına maliyyələşdirilmiş tələb üzrə pul

vəsaiti daxil olduğu təqdirdə həmin pul vəsaitini Bankın cari məzənnəsinə uyğun olaraq konvertasiya etmək də daxil olmaqla akseptsiz qaydada silmək hüququna malikdir.
14.5. Müştəri tərəfindən birdən çox şəxslərlə bağlanmış müqavilələr üzrə Banka təqdim edilmiş invoyslara əsasən Müştərinın hesabına daxil olan ödənişlər və (və ya) Müştərinin hesabında olan vəsait ən çox gecikmə gününə malik olan invoysun ödənişi üzrə silinir.
14.6. Müştəri tərəfindən Banka təqdim edilmiş invoysda qeyd olunan əmlaklar üçüncü şəxslər tərəfindən və ya hər hansı bir səbəbdən geri qaytarıldığı təqdirdə Müştəri ona verilmiş pul vəsaitini, faiz və komissiyaları dərhal Banka ödəyir.
14.7. Müştəri tərəfindən Banka təqdim edilmiş invoysda qeyd olunan mallar daha aşağı dəyərli malla əvəz edildiyi təqdirdə, bu zaman Müştəri əvəz edilmiş malın dəyəri ilə əvvəlki malın dəyəri arasında yaranmış və ona ödənilmiş pul vəsaitini, faiz və komissiyaları dərhal Banka ödəyir.
14.8. Müştəri ilə üçüncü şəxslər arasında bağlanmış malın alğı-satqısına və ya xidmətlərin göstərilməsinə dair müqavilələr üzrə müəyyən edilmiş dəyər (qiymət) hər hansı bir səbəbdən azaldığı təqdirdə, Müştəri azalmış dəyər (qiymət) həddində, bu müqavilə çərçivəsində və müvafiq Razılaşmaya əsasən verilmiş pul vəsaitini, faiz və komissiyaları dərhal Banka ödəyir.
14.9. Müştəri ilə üçüncü şəxslər arasında bağlanmış malın alğı-satqısına, işlərin görülməsinə və ya xidmətlərin göstərilməsinə dair müqavilələrə hər hansı bir səbəbdən xitam veriləcəyi təqdirdə, Müştəri bu müqavilə çərçivəsində və müvafiq Razılaşmaya əsasən verilmiş pul vəsaitini, faiz və komissiyaları dərhal Banka ödəyir.
14.10. Bu maddədə nəzərdə tutulan kreditə dair münasibətlər bu müqavilənin 11-ci maddəsi və Müqaviləyə əlavə razılaşmalar ilə tənzimlənir.

15. Faktorinq

15.1. Müştəri Üçüncü şəxslərə (Bundan sonra Borclu adlandırılacaq) qarşı olan pul tələbini Banka güzəşt edir, Bank isə güzəşt edilmiş pul tələbinin müqabilində Müştəriyə pul vəsaiti verməklə onu maliyyələşdirir. Banka güzəşt edilən pul tələbinin miqdarı Müştəri tərəfindən Banka təqdim edilən müraciətdə əks olunan məbləğdən ibarət olacaq, güzəşt edilən pul tələbinin maliyyələşdirilən hissəsi, valyutası, illik faiz dərəcəsi, qüvvədə olma müddəti və s. Spesifik şərtlər isə bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən Razılaşmada göstəriləcəkdir.
15.2. Bank tərəfindən Müştəriyə göstərilən Faktorinq xidməti aşağıdakılardan ibarətdir:
15.3. Bank Müştərinin debitor öhdəliyini satın alır və bunun müqabilində Müştəriyə Razılaşmada ifadə olunmuş pul vəsaitini verir;
15.4. Alınmış debitor öhdəliklərinə münasibətdə kreditor qismində çıxış edir, Borclu tərəfindən öhdəliklərin icra edilməsini tələb edir, Borcludan alınan maliyyə vəsaitini toplayır.
15.5. Bank güzəşt edilən tələb üzrə Borcluya rəsmi yazılı bildiriş göndərərək ondan tələb edilən borcun güzəşt edildiyi Kreditor və güzəşt edilən məbləğ barəsində ətraflı məlumat verir.
15.6. Borclu tərəfindən güzəşt edilmiş tələb üzrə öhdəliklərin qarşısında icrası onu eyni tələblər üzrə Bank qarşısında olan öhdəlikdən azad edir.
15.7. Güzəşt edilən pul tələbinin qarşılığında (bura ƏDV məbləği daxil deyildir) ödənilməli olan pul vəsaiti Bankda açılmış müvafiq bank hesabına mədaxil etmək yolu ilə ödənilir.
15.8. Güzəşt olunmuş pul vəsaitinə görə faizlər Bank tərəfindən bildirişdə qeyd olunan hesaba ödənilən məbləğdən akseptsiz qaydada tutulur. Müştəri güzəşt olunan pul tələbinin qarşılığında verilən pul vəsaitinə görə hesablanmış illik faizləri və cərimələri ödəyir.
15.9. Güzəşt edilmiş tələblərlə bağlı Borclu tərəfindən ona ödənilmiş pul vəsaitlərini dərhal Banka ödəyir.

15.10. Güzəşt edilmiş tələblər üzrə Müştəriyə aid olan bütün hüquq və vəzifələr müvafiq Razılaşmanın bağlandığı andan Banka keçir.
15.11. Müştərinin tələb hüququ Banka keçdiyi məqamda mövcud olmuş həcmdə və şərtlərlə keçir. Tələb hüququ ilə yanaşı, öhdəliyin icrasını təmin edən hüquqlar, habelə tələblə bağlı olan digər hüquqlar, o cümlədən, ödənilməmiş cərimələrə hüquq Banka keçir.
15.12. Müştəri qəbul edir ki, Bankın, bu müqaviləyə əsasən Müştəriyə ödəməli olduğu istənilən məbləği, Müştəri ilə qarşılıqlı razılıq olmadan, Müştərinin Banka ödəməli olduğu istənilən məbləğin əvəzi olaraq saxlamaq hüququ vardır.
15.13. Müştəri qəbul edir ki, Bank tərəfindən satın alınmış debitor öhdəlikləri üzrə ödənişlərin təyin edilməsi və toplanması hüququ yalnız Banka məxsusdur. Bu səbəbdən də Bank ona güzəşt edilmiş debitor öhdəlikləri üzrə qanunvericilikdə müəyyən edilmiş bütün hüquqi prosedurları başlaya və apara, o cümlədən, Borcluya qarşı iddiaçı qismində çıxış edə bilər.
15.14. Müştərinin Borclu ilə bağlamış olduğu müqavilə üzrə öz öhdəliklərini icra etməməsi, Borclunun güzəşt edilmiş tələb üzrə Banka ödəmiş olduğu pulun geri tələb edilməsi üçün əsas ola bilməz.
15.15. Borclu tərəfindən güzəşt edilən pul tələbinin hamısının və ya bir hissəsinin Razılaşmada nəzərdə tutulduğu müddətdən tez qaytarılması, "Müştəri"yə onun tərəfindən əvvəlcədən ödənilmiş faiz və komissiyaların tələb edilməsi hüququ vermir.
15.16. Borclu tərəfindən istənilən an Müştərinin Bankda mövcud olan hesabına maliyyələşdirilmiş tələb üzrə vəsait daxil olduqda Bank müvafiq vəsaiti öhdəliyin icrası məqsədi ilə akseptsiz qaydada silmək hüququna malikdir.
15.17. **Faktorinqdən istifadə ilə bağlı tərəflərin hüquq və vəzifələri aşağıdakılardan ibarətdir:**
15.17.1. **Bank:**
15.17.1.1. Bu müqavilə çərçivəsində və bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunan Razılaşmalara əsasən güzəşt edilən tələbin real olmasını təsdiq edən sənədləri Müştəridən tələb edir;
15.17.1.2. Güzəşt edilmiş tələbin real olmasını müəyyən etmək üçün zəruri araşdırma aparır və sənədlər toplayır;
15.17.1.3. Güzəşt edilən pul tələbinin alınmasından sonra həmin tələbin ödənilməsi ilə bağlı Borcluya müraciət edir;
15.17.1.4. Güzəşt edilən pul tələbinin alınmasından sonra həmin tələbin ödənilməsini Borcludan tələb edir;
15.17.1.5. Güzəşt edilən pul tələbi Borclu tərəfindən ödənilmədiyi halda həmin tələbin ödənilməsini məhkəmə qaydasında və ya qanunla müəyyən edilmiş digər formada tələb edir;
15.17.1.6. Güzəşt edilmiş pul tələbi Borclu tərəfindən ödənilmədiyi halda həmin məbləğin və vurulmuş ziyanın Müştəri tərəfindən ödənilməsini reqress qaydasında tələb edir və həmin məbləği Müştərinin bütün hesablarından akseptsiz qaydada silir və/və ya məhkəmə qaydasında tələb edir;
15.17.1.7. Müştəri ilə Borclu arasında güzəşt edilmiş pul tələbinə aid olan bütün yazışmaları, bildiriş və digər sənədləri Müştəridən tələb edir;
15.17.1.8. Borclu tərəfindən istənilən an Müştərinin Bankda mövcud olan hesabına maliyyələşdirilmiş tələb üzrə vəsait daxil olduqda müvafiq vəsaiti öhdəliyin icrası məqsədi ilə akseptsiz qaydada silir;
15.17.1.9. Qanunvericiliyə uyğun Faktorinq üzrə Faktora aid olan digər hüquqlar malikdir;
15.17.1.10. Güzəşt edilmiş pul tələbinin müqabilində Müştəriyə Razılaşmada qeyd edilən məbləğdə pul vəsaitini verir;
15.17.1.11. Faktor olaraq Banka aid olan tələbləri tam və vaxtında icra edir;
15.17.1.12. Borclu və güzəşt olunmuş öhdəlik ilə bağlı ona məlum olmuş məlumatların məxfiliyini qoruyur.

15.17.2. **Müştəri:**
15.17.2.1. Bankdan Razılaşma ilə müəyyən olunmuş məbləğdə pul vəsaitini alır;
15.17.2.2. Borclu ilə aralarında tələblərin güzəştini qadağan edən və ya məhdudlaşdıran hər hansı bir razılaşmanın olmamasına zəmanət verir;
15.17.2.3. Güzəşt edilən tələblərin real olmasına və qanuni sənədlərə əsaslanmasına təminat verir;
15.17.2.4. Bu xidmət üzrə əldə edilən tələblərin tam həcmdə və vaxtında faktor olaraq Banka keçməsini təmin edir;
15.17.2.5. Bu xidmət üzrə Müştəriyə aid tələbləri tam və vaxtında icra edir;
15.17.2.6. Bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunan Razılaşmada qeyd edilmiş illik faizləri və komissiyaları Banka ödəyir;
15.17.2.7. Güzəşt edilmiş pul tələbini digər üçüncü şəxslərin xeyrinə güzəşt etmir;
15.17.2.8. Faktor olaraq Banka güzəşt edilmiş pul tələblərinin etibarlılığı üçün məsuliyyət daşıyır;
15.17.2.9. Zərurət olduqda Bankın tələbi ilə Borcluya münasibətdə güzəşt edilmiş pul tələbi üzrə Müştərinin adından çıxış edir və digər zəruri hərəkətlər etmək hüququnu verən müvafiq etibarnaməni Banka təqdim edir;
15.17.2.10. Müştəri ilə Borclu arasında güzəşt edilmiş pul tələbinə aid olan bütün yazışmaları, bildiriş və digər sənədləri, müqavilələrin əslini, hesab-fakturaları və Borcluya aid bütün məlumatları Banka təqdim edir;
15.17.2.11. Bankın razılığı olmadan Borclu şəxslə bağlanmış və pul tələbinin güzəşt edildiyi müqavilə şərtlərinə əlavə və dəyişikliklər etmir.
15.18. Müştəri ilə Borclu arasında bağlanmış malın alğı-satqısına və ya xidmətlərin göstərilməsinə dair müqavilələrə hər hansı bir səbəbdən xitam veriləcəyi təqdirdə, Müştəri bu müqavilə çərçivəsində və müvafiq Razılaşmaya əsasən verilmiş pul vəsaitini, faiz və komissiyaları dərhal Banka ödəyir.

16. Elektron bank xidməti

16.1. Elektron bank xidməti sahəsində, bu müqavilənin ümumi müddəalarına uyğun olaraq Bank Müştəri ilə elektron bank xidmətinə dair ayrıca müqavilələri bağlamağı zəruri hesab edə bilər. Əgər Müştəri ilə bağlanılan elektron xidmətə dair istənilən müqavilənin şərtləri və müddəaları ilə bu müqavilənin elektron xidmətə dair müddəaları arasında ziddiyyət yaranarsa, bu müqavilənin şərtləri və müddəaları üstün qüvvəyə malikdir.
16.2. Bank bu müqavilə üzrə təklif olunan elektron xidmətləri öz mülahizəsi ilə, Müştəri tərəfindən təqdim olunan identifikasiya məlumatları əsasında təqdim edir. Əgər qanunvericiliklə başqa hal nəzərdə tutulmayıbsa, Bank Müştəridən əlavə informasiyanı sorğu etmək hüququnu özündə saxlayır.
16.3. **İdentifikasiya məlumatlarından istifadə etməklə və elektron sənəd dövriyyəsi vasitələri ilə imzalanmış Bank xidmətlərinə aid istənilən müraciət və Razılaşma çatdırılmış və bağlanılmış "yazılı sənəd" hesab olunur**.
16.4. **Müştəri razılaşır ki, Müştəri tərəfindən identifikasiya məlumatlarından istifadə etməklə, elektron sənəd dövriyyəsi vasitələri və/və ya qanunvericiliklə qadağan olunmayan digər üsullarla Bank Xidmətlərinə dair Banka müraciət edilməsi və müvafiq Razılaşmaların bağlanması, aparılan istənilən əməliyyatlar, Müştəri tərəfindən aparılan əməliyyatlar kimi qəbul olunacaqdır və identifikasiya məlumatları hər hansı mübahisə predmeti qismində çıxış etmir**.
16.5. Bank Müştərinin səlahiyyətli nümayəndələrinə müvafiq şifrələr daxil olan məlumat daşıyıcısını təqdim edəcək və bu müqavilənin ayrılmaz hissəsi olan Elektron İmzanın Təsdiqi üzrə Akt tərtib olunacaqdır.

16.6. Şifrələr olan məlumat daşıyıcısının Müştəri tərəfindən qəsdən üçüncü şəxslərə verilməsi və ya Müştərinin kobud ehtiyatsızlığı nəticəsində yuxarıda qeyd olunan informasiyanın üçüncü şəxslərin əlinə keçməsi nəticəsində baş verəcək hər hansı bir zərərə görə Bank məsuliyyət daşımır.
16.7. Bank Müştəriyə əvvəlcədən heç bir bildiriş vermədən, bir tərəfli qaydada Bank xidmətləri sahəsində bank xidmətlərinin istənilən hissəsinə əlavələr etmək, istənilən hissəsini çıxartmaq və ya dəyişmək hüququnu özündə saxlayır.
16.8. Bank yenilikləri, müxtəlif aksiyalar və digər vacib məlumatlar ilk öncə Bankın internet səhifəsində yerləşdirilir. Bu məlumatlar, həmçinin elektron poçt vasitəsilə Müştərinin nəzərinə çatdırıla bilər.
16.9. Bankın internet səhifəsində təqdim etdiyi xidmətlər "Bank Respublika OJSC [AZ]" SSL sertifikatı ilə mühafizə olunur.
16.10. Müştəri qəbul edir ki, identifikasiya məlumatları vasitəsilə ona göndərilən məlumatların üçüncü şəxslərin əlinə keçməsinə görə bütün risklər (real zərər, əldən çıxmış fayda, bütün digər ziyan) onun üzərinə düşür.
16.11. Müştəri tərəfindən qeyd edilən identifikasiya məlumatları və digər verilənlər Müştərinin son verilənləri kimi qəbul edilir və onlar, Müştərinin Bankla olan bütün münasibətlərinə (müqavilələr də daxil olmaqla) aid edilir. Bu məqsədlə, əvvəl təqdim edilən identifikasiya məlumatları və digər verilənlər qüvvədən düşmüş hesab olunur.
16.12. Bank tərəfindən bu müqavilə çərçivəsində çatdırılmalı olan bütün məlumatlar ÖMTA-da qeyd olunan identifikasiya məlumatları vasitəsi ilə Müştəriyə göndəriləcəkdir. Göndərilmiş məlumatlar Müştəri tərəfindən qəbul edilmiş sayılır.
16.13. Elektron bank xidməti müqaviləsi üzrə Bankla onlayn informasiya mübadiləsi aparmaq üçün Bank hər hansı ödəniş almayacaqdır.
16.14. **Bankın hüquq və vəzifələri:**
16.14.1. Bank Müştəri ilə bağlı istənilən məlumatın konfidensiallığını təmin etməlidir;
16.14.2. Müştərinin özü barəsində Banka yazılı şəkildə təqdim etdiyi identifikasiya məlumatları, onun öz əl imzasının analoqu kimi qəbul olunur, bu səbəbdən, Bank həmin məlumatları təqdim edən üçüncü şəxsin bu müqavilə çərçivəsində hər hansı sərəncamını icra edərkən, onun sərəncamı Müştərinin sərəncamına bərabər tutulur. Bu baxımdan Bank Müştərinin qarşılaşdığı hər hansı itkilərə görə məsuliyyət daşımır;
16.14.3. Elektron bank xidmətin həyata keçirilməsi zamanı istənilən borcun silinməsi ilə əlaqədar səhv əməliyyatlar aparıldıqda, Bank Müştərinin razılığını almadan aparılmış əməliyyatların ləğvini həyata keçirə bilər;
16.14.4. Bank Müştəri tərəfindən qeyd olunan identifikasiya məlumatlarından yalnız qanunvericilik çərçivəsində heç bir sui-istifadəyə yol vermədən istifadə edəcəkdir. Bu məqsədlə zərurət yaranarsa, Bank, göstərilən xidmətin dayandırılmasını da həyata keçirə bilər.
16.15. **Müştərinin hüquq və vəzifələri:**
16.15.1. Müştəri ona məxsus identifikasiya məlumatlarının təhlükəsizliyini təmin etməli, həmin məlumatları heç kimlə bölüşməməli, üçüncü şəxslərin onlardan istifadə edə bilməsi üçün şərait yaratmamalıdır;
16.15.2. Bank heç bir halda sms və ya email vasitəsilə identifikasiya məlumatları ilə bağlı sorğu göndərməyəcəkdir. Bu səbəbdən telefon, e-mail və ya başqa bir mənbədən bənzər bir tələb ilə qarşılaşsa, Müştəri heç bir məlumat verməməlidir;
16.15.3. Müştəri razılaşır ki, elektron xidmətin göstərilməsi zamanı avadanlıqlarda, şəbəkədə, əlaqə xətlərində baş verən istənilən nasazlıqlara görə Bank məsuliyyət daşımır. Bu zaman hər hansı itkilərə görə risk Müştərinin üzərinə düşür;

16.15.4. Müştəri Banka yazılı şəkildə əlavə ərizə ilə müraciət edərək identifikasiya məlumatlarında dəyişikliklər edə bilər;
16.15.5. Müştəri Banka yazılı şəkildə əlavə ərizə ilə müraciət edərək və ya müvafiq proqramdan istifadə etməklə elektron bank xidmətindən imtina edə bilər. Müştərinin belə bir imtinası bu müqavilənin "Elektron bank xidməti"nə dair müddəalarının qüvvədən düşməsi deməkdir.
16.15.6. Müştəri göstərilən identifikasiya məlumatlarında hər hansı dəyişiklik olduqda, dərhal Bankı yazılı şəkildə məlumatlandırmalıdır. Əgər o, identifikasiya məlumatlarında aparılmış dəyişikliklər ilə əlaqədar məlumatı Banka təqdim etməsə, bu məlumatlar əsasında Bank tərəfindən göndərilmiş məlumatlar, Müştəriyə şəxsən çatdırılmış hesab olunacaqdır.

17. Bu müqavilə ilə nəzərdə tutulmuş bank xidmətlərinin bənddə qeyd edilən xidmət platforması üzərindən elektron qaydada məsafədən göstərilməsi proseduru

17.1. **Elektron sənəd mübadiləsi yolu ilə Bank xidmətlərindən istifadə aşağıdakı qaydada həyata keçiriləcəkdir:**

17.1.1. **<u>Bank hesabının açılması, aparılması və bağlanması:</u>**

Bank saytı, SMS və E-mail vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, SMS, e-mail) biri ilə müraciəti göndərir;
- Müştərinin identifikasiya üsulları (telefon nömrəsinə OTP-kodun göndərilməsi) vasitəsi ilə identifikasiya edilir;
- Müştəri təsdiq üsulları (telefon nömrəsinə göndərilən OTP-nin (analoq imzanın) daxil edilməsi ilə) vasitəsi ilə təsdiq edilir;
- Əməliyyata dair ərizə və rekvizitlər müştəriyə göndərilən OTP kod (analoq imza) ilə təsdiqlənir.

RİS platforması vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Platforma vasitəsi ilə müraciət göndərir;
- Bankın Məlumat Mərkəzinin əməkdaşı tərəfindən müştərinin identifikasiyası (videozənglə) aparılır;
- Müştəriyə müqavilə və sənədlər göndərilir;
- Müqavilə və sənədlər gücləndirilmiş imza vasitəsilə təsdiqlənir;
- Rekvizitləri göndərilir və müştəri tərəfindən "qəbul edirəm" düyməsini sıxmaqla təsdiqlənir.

Mobil tətbiq vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə mobil tətbiqdən istifadə edərək müraciəti göndərir;
- Müştərinin identifikasiyası üçün telefon nömrəsinə OTP göndərilir;
- Müştəri OTP-ni (analoq imzanı) mobil tətbiqdə xüsusi bölməyə daxil edir;
- Əməliyyata dair ərizə və rekvizitlər müştəriyə göndərilən OTP kod (analoq imza) ilə təsdiqlənir).

17.1.2. **<u>AZİPS, XÖHKS və İPS üzrə köçürmələr:</u>**

Bank saytı, e-mail vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, e-mail) biri ilə müraciəti göndərir;
- Müştərinin identifikasiya üsulları (e-mail ünvana linkin və telefon nömrəsinə OTP-kodun göndərilməsi, Məxfi kod və telefon nömrəsinə göndərilən OTP-kodun (analoq imzanın) daxil edilməsi) vasitəsi ilə identifikasiya edilir;
- Müştəri təsdiqi üsulları (e-mail vasitəsilə göndərilən linkə OTP-nin daxil edilməsi, məxfi kodun və telefon nömrəsinə göndərilən OTP-nin (analoq imzanın) daxil edilməsi) vasitəsi ilə təsdiq edilir;
- Ödəniş tapşırığı e-mail vasitəsi ilə banka göndərilir və yoxlanılır (yoxlama daxili limitlərdən asılı olaraq müvafiq struktur tərəfindən aparılır);
- AML yoxlamaların aparılması təmin edilir;
- Vəsait köçürülür.

Mobil tətbiq vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə mobil tətbiqdən istifadə edərək müraciəti göndərir;
- Müştərinin identifikasiyası üçün telefon nömrəsinə OTP göndərilir;
- Ödəniş tapşırığı e-mail vasitəsi ilə banka göndərilir və yoxlanılır (yoxlama daxili limitlərdən asılı olaraq müvafiq struktur tərəfindən aparılır);
- AML yoxlamaların aparılması təmin edilir;
- Vəsait köşürülür.

17.1.3. **SWIFT üzrə ölkəxarici köçürmələr:**

Bank saytı, e-mail vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, e-mail) biri ilə müraciəti göndərir;
- Müştərinin identifikasiya üsulları (e-mail ünvana linkin və telefon nömrəsinə OTP-kodun göndərilməsi, Məxfi kod və telefon nömrəsinə göndərilən OTP kodun (analoq imza) daxil edilməsi) vasitəsi ilə identifikasiya edilir;
- Müştəri təsdiqi üsulları (e-mail vasitəsilə göndərilən linkə OTP-nin daxil edilməsi, məxfi kodun və telefon nömrəsinə göndərilən OTP-nin daxil edilməsi) vasitəsi ilə təsdiq edilir;
- Müqavilənin və digər sənədlərin banka fiziki olaraq göndərilməsi (kuryer vasitəsilə və ya müştəri tərəfindən şəxsən) və yoxlanılması həyata keçirilir;
- AML yoxlamaların aparılması təmin edilir;
- Vəsait köçürülür.

Mobil tətbiq vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə mobil tətbiqdən istifadə edərək müraciəti göndərir;
- Müştərinin identifikasiyası üçün telefon nömrəsinə OTP göndərilir;
- Müqavilənin və digər sənədlərin banka fiziki olaraq göndərilməsi (kuryer vasitəsilə və ya müştəri tərəfindən şəxsən) və yoxlanılması həyata keçirilir;
- AML yoxlamaların aparılması təmin edilir;
- Vəsait köşürülür.

17.1.4. **<u>Ödəniş kartlarının əldə olunması və istifadə edilməsi:</u>**

Bank saytı, SMS və E-mail vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, SMS, e-mail) biri ilə müraciəti göndərir;
- Müştəri identifikasiya üsulları (telefon nömrəsinə OTP-kodun göndərilməsi) vasitəsi ilə identifikasiya edilir;
- Müştəri təsdiq üsulları (telefon nömrəsinə göndərilən OTP-nin (analoq imza) daxil edilməsi) vasitəsi ilə təsdiq edilir:
- Hesab açılandan sonra ərizənin və rekvizitlərin müştəriyə göndərilən OTP kod ilə təsdiqlənməsi həyata keçirilir;
- Sifariş edilən kart hazırlanır;
- Müştəri tərəfindən kartların təhvil alınması prosesi telefon nömrəsinə göndərilən OTP kod ilə təsdiqləməsi, PİN kodun telefon nömrəsinə göndərilməsi təmin edilir.

RİS platforması vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri platforma vasitəsi ilə müraciəti göndərir;
- Məlumat Mərkəzinin əməkdaşı tərəfindən müştərinin identifikasiyasının (videozənglə) aparılması həyata keçirilir;
- Müştəriyə müqavilə və sənədlərin göndərilməsi təmin edilir;
- Müqavilə və sənədlər gücləndirilmiş imza vasitəsilə təsdiq edilir;
- Sifariş edilən kart hazırlanır;
- Müştəri tərəfindən kartların təhvil alınması prosesinin videoqeydiyyatının aparılması və telefon nömrəsinə göndərilən OTP kod (analoq imza) ilə təsdiqlənməsi, PİN kodun telefon nömrəsinə göndərilməsi təmin edilir.

Mobil tətbiq vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə mobil tətbiqdən istifadə edərək müraciəti göndərir;
- Müştərinin identifikasiyası üçün telefon nömrəsinə OTP göndərilir;
- Müştərinin OTP kodu (analoq imza) mobil tətbiqdə xüsusi bölməyə daxil edilir;
- Hesab açıldıqdan sonra ərizə və rekvizitlər müştəriyə göndərilən OTP kod ilə təsdiqlənir;
- Sifariş edilən kartın hazırlanır;
- Müştəri tərəfindən kartların təhvil alınması prosesi telefon nömrəsinə göndərilən OTP kod ilə təsdiqlənməsi, PİN kodun telefon nömrəsinə göndərilməsi təmin edilir.

17.1.5. <u>Əmək haqqı və korporativ kartların əldə olunması və istifadə edilməsi:</u>

Bank saytı və e-mail vasitəsi ilə aşağıdakı qaydada:

Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, SMS, e-mail) biri ilə müraciəti göndərir;
- Müştəri identifikasiya üsulları (telefon nömrəsinə OTP-kodun göndərilməsi) vasitəsi ilə identifikasiya edilir;
- Telefon nömrəsinə göndərilən OTP-nin (analoq imza) daxil edilməsi ilə müştəri təsdiq edilir;
- Müştəriyə müqavilə və sənədlər göndərilir;
- Müqavilə və sənədlər müştəriyə göndərilən OTP kod ilə təsdiqlənir;
- Müştəri tərəfindən əməkdaşların Ş/V məlumatları ümumi fayl olaraq sayta yüklənir;
- Sifariş edilən kartlar hazırlanır;
- Müştəri tərəfindən kartların təhvil alınması prosesi telefon nömrəsinə göndərilən OTP kod ilə təsdiqlənməsi təmin edilir.

17.1.6. **<u>Biznes kartların əldə olunması və istifadə edilməsi:</u>**

Bank saytı, SMS və e-mail vasitəsi ilə aşağıdakı qaydada:
Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya vasitəsi ilə müvafiq müraciət üsullarından (link, SMS, e-mail) biri ilə müraciəti göndərir;
- Müştəri identifikasiya üsulları (telefon nömrəsinə OTP-kodun göndərilməsi) vasitəsi ilə identifikasiya edilir;
- Telefon nömrəsinə göndərilən OTP-nin (analoq imza) daxil edilməsi ilə müştəri təsdiq edilir;
- Müştəriyə müqavilə və sənədlər göndərilir;
- Müqavilə və sənədlər müştəriyə göndərilən OTP kod ilə təsdiqlənir;
- Sifariş edilən kartlar hazırlanır;
- Müştəri tərəfindən kartların təhvil alınması prosesi telefon nömrəsinə göndərilən OTP kod ilə təsdiqlənməsi təmin edilir.

Mobil tətbiq vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə mobil tətbiqdən istifadə edərək müraciəti göndərir;
- Müştərinin identifikasiyası üçün telefon nömrəsinə OTP göndərilir;

- OTP kodun (analoq imza) daxil edilməsi ilə müqavilə və sənədlərin hazırlanması təmin edilir;
- Sifariş edilən kartlar hazırlanır;
- Müştəri tərəfindən kartların təhvil alınması prosesi telefon nömrəsinə göndərilən OTP kod ilə təsdiqlənməsi təmin edilir.

17.1.7. **Törəmə maliyyə alətləri ilə əməliyyat:**

Bank saytı və e-mail vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, SMS, e-mail) biri ilə müraciəti göndərir;
- Müştəri identifikasiya üsulları (telefon nömrəsinə OTP-kodun göndərilməsi) vasitəsi ilə identifikasiya edilir;
- Təhlildən sonra təklif edilən şərtlər müştəriyə göndərilir;
- Şərtlər qəbul edildikdə müştəriyə göndərilən OTP kod sayta və ya e-mail-ə daxil edilir;
- Müqavilə OTP kod (analoq imza) ilə təsdiqlənir.

Mobil tətbiq vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə mobil tətbiqdən istifadə edərək müraciəti göndərir;
- Təhlildən sonra təklif edilən şərtlər müştəriyə göndərilir;
- Şərtlər qəbul edildikdə müştəriyə göndərilən OTP Mobil Tətbiqə daxil edilir;
- Müqavilə OTP kod (analoq imza) ilə təsdiqlənir.

17.1.8. **Hesabdan çıxarışın əldə edilməsi:**

Bank saytı, SMS, Telefon və e-mail vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, SMS, Telefon, e-mail) biri ilə müraciəti göndərir;
- Müştəri aşağıdakı identifikasiya üsulları vasitəsi ilə identifikasiya edilir:

17.1.8.1. e-mail ünvana linkin göndərilməsi və telefon nömrəsinə OTP-kodun göndərilməsi;
17.1.8.2. məxfi kodun və telefon nömrəsinə göndərilən OTP-kod daxil edilməsi.

- Müştərinin seçiminə uyğun olaraq hesabdan çıxarış e-mail ünvanda və ya saytdakı şəxsi kabinetdə əks etdirilir.

17.1.9. **Nağdsız mübadilə əməliyyatının (Konvertasiyanın) aparılması:**

Bank saytı vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə bank saytından istifadə edərək müraciəti göndərir;
- Müştəri aşağıdakı identifikasiya üsulları vasitəsi ilə identifikasiya edilir:

17.1.9.1. e-mail ünvana linkin göndərilməsi və telefon nömrəsinə OTP-kodun göndərilməsi;
17.1.9.2. məxfi kodun və telefon nömrəsinə göndərilən OTP-kod daxil edilməsi.

- Mübadilə sifarişi üzrə əməliyyat təsdiq üsullarından (telefona daxil olan OTP-nin sayta daxil edilməsi, məxfi kodun və telefon nömrəsinə göndərilən OTP kodun (analoq imza) daxil edilməsi) biri vasitəsi ilə təsdiq edilir;
- Mübadilə əməliyyatı aparılır.

17.1.10. **Kreditlərin verilməsi, Overdraft, kredit xəttlərinin açılası (Plastik kart vasitəsi ilə kredit xəttlərinin açılması da daxil olmaqla):**

Bank saytı və e-mail vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, e-mail) biri ilə müraciəti göndərir;
- Müştərinin razılıq ərizələrinə əsasən iş yerindən arayış, kredit tarixçəsi sorğulanır;
- Müştəriyə zəng olunaraq identifikasiya edilir, kreditin təyinatı öyrənilir;
- Təhlildən sonra təklif edilən şərtlər müştəriyə SMS vasitəsi ilə göndərilir;
- Şərtlər qəbul edildikdə 9144 və ya 0502419144 nömrəsinə təsdiq edilir (1 cavabı yazılır);
- Kredit rəsmiləşdirilir və vəsait cari hesabdan kart hesabına köçürülür.
- Kartla kredit xətti olduqda, kartın təhvil alınması prosesi OTP kodla təsdiqlənir, SMS və PİN-kod göndərilir;
- Tranşla kredit xətti olduqda hər ödəniş tranşından əvvəl müraciət OTP kod ilə təsdiqlənir.

SMS vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə SMS- dən istifadə edərək müraciəti göndərir;
- Müştərinin razılıq ərizələrinə əsasən iş yerindən arayış, kredit tarixçəsi sorğulanır;
- Müştəriyə zəng olunaraq identifikasiya edilir, kreditin təyinatı öyrənilir;
- Təhlildən sonra təklif edilən şərtlər müştəriyə SMS vasitəsi ilə göndərilir;
- Şərtlər qəbul edildikdə 9144 və ya 0502419144 nömrəsinə təsdiq edilir (1 cavabı yazılır);
- Kredit rəsmiləşdirilir və vəsait cari hesabdan kart hesabına köçürülür.
- Kartla kredit xətti olduqda, kartın təhvil alınması prosesi OTP kodla təsdiqlənir, SMS və PİN-kod göndərilir;
- Tranşla kredit xətti olduqda hər ödəniş tranşından əvvəl müraciət OTP kod ilə təsdiqlənir.

Mobil tətbiq vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə mobil tətbiqdən istifadə edərək müraciəti göndərir;
- Müştərinin razılıq ərizələrinə əsasən iş yerindən arayış, kredit tarixçəsi sorğulanır;
- Müştəriyə zəng olunaraq identifikasiya edilir, kreditin təyinatı öyrənilir;
- Təhlildən sonra təklif edilən şərtlər müştəriyə SMS vasitəsi ilə göndərilir;
- Şərtlər qəbul edildikdə 9144 və ya 0502419144 nömrəsinə təsdiq edilir (1 cavabı yazılır);
- Kredit rəsmiləşdirilir və vəsait cari hesabdan kart hesabına köçürülür.

- Kartla kredit xətti olduqda, kartın təhvil alınması prosesi OTP kodla təsdiqlənir, SMS və PİN-kod göndərilir;
- Tranşla kredit xətti olduqda hər ödəniş tranşından əvvəl müraciət OTP kod ilə təsdiqlənir.

17.1.11. **Qarantiyanın verilməsi:**

Bank saytı və e-mail vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, e-mail) biri ilə müraciəti göndərir;
- Müştər identifikasiya üsulları (telefon nömrəsinə OTP-kodun göndərilməsi) vasitəsi ilə identifikasiya edilir (əlavə olaraq Bank müştəridən müqavilənin və digər sənədlərin fiziki olaraq təqdim edilməsini tələb edə bilər);
- Sənədlər fiziki olaraq Banka təqdim edilir;
- Təhlildən sonra təklif edilən şərtlər müştəriyə göndərilir;
- Şərtlər qəbul edildikdə müştəriyə göndərilən OTP kod sayta və ya e-mail-ə daxil edilir;
- Müqavilə OTP kod (analoq imza) ilə təsdiqlənir;
- Qarantiya məktubu müştəri tərəfindən Banka yaxınlaşmaqla təhvil alınır.

Mobil tətbiq vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə mobil tətbiqdən istifadə edərək müraciəti göndərir;
- Təhlildən sonra təklif edilən şərtlər göndərilir;
- Şərtlər qəbul edildikdə nömrəyə göndərilən OTP kod mobil tətbiqə daxil edilir;
- Müqavilə OTP kod (analoq imza) ilə təsdiqlənir;
- Qarantiya məktubu müştəri tərəfindən Banka yaxınlaşmaqla təhvil alınır.

17.1.12. **Akkreditiv, İnvoys Diskontlaşdırılması, Faktorinqin verilməsi:**

Bank saytı və e-mail vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə müvafiq müraciət üsullarından (link, e-mail) biri ilə müraciəti göndərir;
- Müştəri identifikasiya üsulları (telefon nömrəsinə OTP-kodun göndərilməsi) vasitəsi ilə identifikasiya edilir;
- Müqavilə və digər sənədlər Banka fiziki olaraq göndəririlir (kuryer vasitəsi ilə və müştəri tərəfindən şəxsən);
- Təhlildən sonra təklif edilən şərtlər müştəriyə göndərilir;
- Şərtlər qəbul edildikdə Müştəriyə göndərilən OTP kod sayta və ya e-mail-ə daxil edilir;
- Müqavilə OTP kod (analoq imza) ilə təsdiqlənir.

Mobil tətbiq vasitəsi ilə aşağıdakı qaydada:

- Müştəri Bankla qarşılıqlı razılığına əsasən ÖMTA-da qeyd edilmiş identifikasiya məlumatlarından istifadə etməklə şəxsi imzaya bərabər hesab edilən analoq imza vasitəsi ilə mobil tətbiqdən istifadə edərək müraciəti göndərir;
- Müqavilə və digər sənədlər Banka fiziki olaraq göndəririlir (kuryer vasitəsi ilə və müştəri tərəfindən şəxsən);
- Təhlildən sonra təklif edilən şərtlər müştəriyə göndərilir;
- Şərtlər qəbul edildikdə nömrəyə göndərilən OTP kod mobil tətbiqə daxil edilir;
- Müqavilə OTP kod (analoq imza) ilə təsdiqlənir.

17.2. **Bu müqavilənin 17.1-ci bəndində qeyd edilən xidmətlər və onlardan istifadə qaydasına müştəri məmnuniyyətini təmin etmək habelə həyata keçiriləcək əməliyyatların təhlükəsizliyini təmin etmək məqsədilə Bank tərəfindən əlavə, dəyişikliklər (kart və digər əməliyyatlara dair Beynəlxalq Ödəniş sistemi qaydalarında və yerli qanunvericilikdə baş verən dəyişikliklər də daxil olmaqla) edilə bilər və əlavə, dəyişikliklər olunacağı təqdirdə bu barədə məlumat bankın rəsmi saytında öz əksini tapacaqdır. Bu əlavə, dəyişikliklərə Müştəri tərəfindən riayət edilməməsi Müştərinin bank xidmətlərindən imtinası üçün əsasdır.**

17.3. **Bu müqavilənin 17.1-ci bəndində qeyd edilən xidmət platformalarından hər hansı biri və ya bir neçəsindən istifadə olunması Bank tərəfindən müəyyən olunur.**

17.4. **Bu müqavilənin 17.1-ci maddəsində qeyd edilən xidmətlərin göstərilməsi üçün əlavə eyniləşdirmə tədbirləri və əməliyyatların təhlükəsizliyi baxımından hər xidmət üzrə əlavə olaraq Bank tərəfindən Müştərinin videozəng və ya canlı görüş vasitəsilə eyniləşdirilməsi həyata keçirilə bilər. Müştəri tərəfindən videozəngdən və ya canlı görüşdən imtina edilməsi Bankın həmin xidmətin göstərilməsindən imtina üçün əsasdır.**

17.5. **Xidmət platforması üzərindən şəxsi imzaya bərabər hesab olunan analoq imzadan istifadə etməklə bank xidmətlərindən istifadə olunması Bank tərəfindən Müştəriyə ÖMTA-da qeyd olunmuş əlaqə kanalları vasitəsilə və ya Bankın** www.bankrespublika.az **internet səhifəsində məlumat verildikdən sonra göstəriləcəkdir.**

18. Fors major

18.1. Tərəflərin istək və arzularından asılı olmayan, qabaqcadan bilinməsi və ya ağlabatan vasitələrin köməyi ilə qarşısının alınması mümkün olmayan şərait üzündən, o cümlədən, daşqın, yanğın, sel, yersürüşməsi, zəlzələ, silahlı iğtişaşlar, mülki iğtişaşlar, elektrik xətlərinin və (və ya) rabitə-dalğa siqnalının kəsilməsi, epidemiyalar, blokada, embarqo, zəlzələlər, başqa təbii fəlakət, yaxud hökumətin qadağa tədbirləri nəticəsində tərəflər müqavilə şərtlərini tam və ya qismən, yaxud lazımi qaydada icra edə bilmədiklərinə görə məsuliyyətdən azad edilirlər.
18.2. Bu müqavilənin 18.1-ci bəndində göstərilən halların mövcud olduğu müddət ərzində müqavilənin icrası mümkün olmadıqda, onun icrası həmin müddətə dayandırılır və qeyd olunan hallar aradan qalxdığı təqdirdə tərəflərin razılığı ilə müqavilə davam edə bilər və ya müqaviləyə xitam verilə bilər.

19. Ətraf mühit və sosial məsələlər

19.1. Müştəri və Bank ətraf mühit və sosial məsələlərin əhəmiyyətliliyi barədə ortaq iradəyə sahibdirlər. Buna görə də, bu müqavilə çərçivəsində əldə edilən hər hansı xidmətdən, maliyyə vəsaitindən və digər əmlakdan ətraf mühitə zərər vuran və ya mənfi sosial təsirlərə səbəb olan və ya ola biləcək fəaliyyət üçün istifadə edilməməlidir.
19.2. Bu müqavilənin 19.1-ci bəndini nəzərə alaraq, Müştəri aşağıdakıları təsdiq və bəyan edir:
19.2.1. Müştəri Bankın göstərdiyi xidmətlərdən, ondan əldə etdiyi pul vəsaiti və ya digər əmlakdan ətraf mühitə zərər vuran və mənfi sosial təsirlərə səbəb olan fəaliyyət (qadağan edilmiş fəaliyyət) üçün istifadə etməyəcək;
19.2.2. Ətraf mühit və sosial məsələlərə dair ona qarşı qaldırılmış hər hansı iddia olduğu, məhkəmə və ya dövlət orqanı qərarı olduğu təqdirdə Banka dərhal məlumat verəcək;
19.2.3. Ətraf mühit və sosial məsələlərə dair Azərbaycan Respublikasının qanunvericiliyinə əməl edəcək.
19.3. Bu maddənin məqsədləri üçün qadağan edilmiş fəaliyyət aşağıdakılardan ibarətdir:
19.3.1. Azərbaycan Respublikasının qanunvericiliyinə, beynəlxalq konvensiya və müqavilələrə əsasən qeyri-qanuni hesab edilən və ya beynəlxalq səviyyədə sanksiyalara məruz qalan hər hansı məhsul və xidmətlərin (əczaçılıq məhsulları, pestisidlər və herbisidlər, ozon parçalayan maddələr və s.) təqdim edilməsi;
19.3.2. Əsas fəaliyyət növü olaraq silah və döyüş sursatlarının istehsalı və ya təqdim edilməsi;
19.3.3. Əsas fəaliyyət növü olaraq spirtli içkilərin istehsalı və ya ticarəti (pivə və şərab istisna olmaqla);
19.3.4. Əsas fəaliyyət növü olaraq tütün və tütün məhsullarının istehsalı və ya ticarəti;
19.3.5. Əsas fəaliyyət növü olaraq qumar, kazino və onlara bərabər tutulan digər fəaliyyət növləri;
19.3.6. Radioaktiv materialların istehsalı və ya ticarəti (radioaktiv maddələrdən əhəmiyyətsiz və ya adekvat dərəcədə istifadə edilən tibbi avadanlıqların, keyfiyyətə nəzarət avadanlıqlarının və digər avadanlıqların istehsal və ticarətinə şamil edilmir);
19.3.7. Qapalı (bağlanmamış) asbest liflərinin və polixlorlu bifenillərin istehsalı və ya ticarəti (asbestin tərkibinin 20%-dən az olduğu asbest sement örtüyünün istehsalı və ticarətinə şamil edilmir);
19.3.8. Uzunluğu 2,5 km-dən artıq torlardan istifadə edərək dəniz mühitində torla balıq ovu;
19.3.9. Məcburi[3] və uşaq[4] əməyinin istifadə edildiyi fəaliyyətlər;

[3] "Məcburi əmək" əmək dedikdə fiziki şəxsdən onun könüllü olaraq yerinə yetirmədiyi iş və ya xidməti zorakılıq yolu və ya cəza hədəsi ilə tələb etmək başa düşülür.
[4] "Uşaq əməyi" dedikdə iqtisadi cəhətdən istismar xarakteri daşıyan və ya uşağın təhsili üçün təhlükəli olan və ya manea yarada biləcək, yaxud uşağın sağlamlığına, fiziki, əqli, mənəvi, əxlaqi və ya sosial vəziyyətinə zərər vura biləcək işə cəlb edilməsi başa düşülür.

19.3.10. Tropik nəmli meşələrdə kommersiya məqsədilə ağac kəsmə;
19.3.11. Davamlı şəkildə idarə olunan meşələrdən başqa ağac və ya digər meşə təsərrüfatı məhsullarının istehsalı və ya ticarəti;
19.3.12. Yüksək həcmdə təhlükəli kimyəvi maddələrin istehsalı, ticarəti, saxlanması və ya daşınması, o cümlədən təhlükəli kimyəvi maddələrin[5] kommersiya məqsədləri üçün istifadəsi;
19.3.13. Yerli əhalinin razılığı olmadan onların mülkiyyətində olan torpaqlara təsir edən istehsal və ya fəaliyyət;
19.3.14. Kömür mədənçiliyi, kömürün daşınması və kömürlə işləyən elektrik stansiyaları üzrə fəaliyyət;
19.3.15. Pornoqrafiya və fahişəliklə bağlı fəaliyyət;
19.3.16. Əhalinin sıx yaşadığı yerlərin və kritik infrastrukturların məhv edilməsi;[6]
19.4. Bu müqavilənin 19.3.12 və 19.3.13-cü maddələri yalnız mikro sahibkarlara münasibətdə tətbiq edilir.

20. Əlavə şərtlər

20.1. Bu müqavilədə başqa cür nəzərdə tutulmadıqda, müqaviləyə tərəflərin qarşılıqlı razılığına əsasən müqavilə üzrə bütün öhdəliklər qarşılıqlı şəkildə yerinə yetirildiyi hallarda xitam verilə bilər. Müqaviləyə xitam verilməsi Müştərini müqaviləyə xitam verilməsinədək yaranmış, lakin icra edilməmiş öhdəliklərin icrasından azad etmir.
20.2. Bu müqavilənin 18-ci bəndində göstərilən halların mövcud olduğu müddət ərzində müqavilənin icrası mümkün olmadıqda, onun icrası həmin müddətə dayandırılır. Müqavilənin 18-ci bəndində qeyd olunan hallar aradan qalxdığı təqdirdə tərəflərin razılığı ilə müqaviləyə xitam verilə bilər.
20.3. Bank 14 (on dörd) təqvim günü əvvəlcədən Müştəriyə məlumat verməklə bu müqaviləyə birtərəfli qaydada xitam verilə bilər.
20.4. Müştəri tərəfindən Öz Müştərini Tanı Anketi (ÖMTA) imzalanır. Həmin Anket müştəriyə dair bütün fərdi məlumatları və müştəri ilə əlaqə vasitələrini özündə əks etdirir.
20.5. Müştəri ilə Bankın təklif etdiyi xidmətlərə dair müvafiq Razılaşma bağlanılır. Həmin Razılaşma bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilir və gələcəkdə Müştəri ilə Bank arasında sözügedən xidmətlərin tətbiqindən irəli gələn məsələlər bu müqavilə və həmin razılaşma ilə tənzimlənir.
20.6. Müştəri şərtləri ilə tanış olduğu və onun tərəfindən razılaşmanın imzalanması yolu ilə təsdiq etdiyi bu müqavilə (KBXM) və ona ediləcək Əlavələr ilə istənilən vaxt tanış ola biləcəyini dərk edir.
20.7. Bank tərəfindən bu müqavilənin müddəaları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq birtərəfli qaydada dəyişdirilə bilər.
20.8. Bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən müvafiq Razılaşmalara əsasən kreditlərin verilməsi Müştərinin bank hesabından çıxarış vasitəsi ilə təsdiq ediləcəkdir.
20.9. Müştəri Bank tərəfindən təqdim olunan bu müqavilənin 17-ci bəndində qeyd edilmiş xidmət platforması vasitəsi ilə məsafədən xidmət aldığı zaman müraciət və/və ya aidiyyatı sənədlərin Öz Müştərini Tanı Anketində (ÖMTA) təqdim olunan identifikasiya məlumatlarından istifadə edilməklə təsdiq olunmasına razılığını bildirir.
20.10. Qanunvericilikdə və bu müqavilədə nəzərdə tutulmuş hallar istisna olmaqla Bank, onun tərəfindən emissiya edilmiş ödəniş alətlərini aşağıdakı məqsədlərlə bloklaşdırmaq hüququna malikdir:
20.10.1. Ödəniş alətinin təhlükəsizliyinin təmin olunması;

[5] "Təhlükəli kimyəvi maddələr" dedikdə benzin, kerosin və digər neft məhsulları başa düşülür.
[6] "Məhv etmə" dedikdə torpaqdan və ya sudan istifadədə əsaslı, uzunmüddətli dəyişiklik nəticəsində ərazinin bütövlüyünün pozulması və ya ciddi şəkildə zəifləməsi və ya ərazinin yaşayış üçün öz rolunu qoruyub saxlamaq qabiliyyətini itirməsi başa düşülür.

20.10.2. Ödəniş alətinin dələduzluq məqsədilə və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasının qarşısının alınması;
20.10.3. Müştərinin Kredit ayrılmış ödəniş alətləri üzrə öhdəliklərini yerinə yetirə bilməməsi təhlükəsinin qarşısının alınması.
20.11. Müştəri bu müqavilədə nəzərdə tutulan bank əməliyyatlarını (bank xidmətlərini) nümayəndə vasitəsilə həyata keçirmək istədiyi halda, nümayəndənin səlahiyyətlərini təsdiq edən etibarnamədə həyata keçiriləcək bank əməliyyatı (və ya əməliyyatlar) aydın, birmənalı və dəqiq şəkildə göstərilməlidir. Ümumi xarakterli və ya həyata keçiriləcək bank əməliyyatının (bank xidmətinin) növünü müəyyən etməyə imkan verməyən səlahiyyət ifadələri Bank tərəfindən həmin əməliyyatın icrası üçün kifayət hesab edilmir. Bank, təqdim edilmiş etibarnamədə icra ediləcək bank əməliyyatı (bank xidməti) aşkar şəkildə müəyyən edilmədiyi hallarda, müvafiq əməliyyatı icra etməkdən imtina etmək hüququna malikdir.
20.12. **MÜŞTƏRİ BU MÜQAVİLƏNİ ELEKTRON QAYDADA TƏSDİQ EDƏRƏK BU MÜQAVİLƏ İLƏ NƏZƏRDƏ TUTULMUŞ ŞƏRTLƏRLƏ BANK XİDMƏTLƏRİNİN (KREDİT VƏ QEYRİ-KREDİT) GÖSTƏRİLMƏSİNƏ DAİR MÜRACİƏTİNİN BU MÜQAVİLƏNİN MÜDDƏALARININ MÜŞTƏRİ ÜÇÜN MƏCBURİ HÜQUQİ QÜVVƏYƏ MALİK OLMASI ÜÇÜN SƏBƏB OLDUĞUNU VƏ BAĞLANILAN MÜVAFİQ RAZILAŞMALARIN BU MÜQAVİLƏNİN AYRILMAZ TƏRKİB HİSSƏSİ OLDUĞUNU QƏBUL EDİR.**

Müqavilənin icrası ilə bağlı hər hansı şikayət və ya iradlarınız yaranarsa, aşağıda qeyd olunmuş telefon nömrələri ilə əlaqə saxlaya bilərsiniz:	
Müvafiq struktur bölmə: Müştərilərlə Əlaqələri İdarəetmə Departamentinin Maliyyə Xidmətləri İstehlakçılarının Müraciətlərinə Baxılması Şöbəsi	*Telefon: +99412 598 08 00, daxili: 1505; 1499* *+99450 6 144 144* *E-mail:* info@bankrespublika.az https://www.bankrespublika.az/az/form/muraciet
Azərbaycan Respublikasının ərazisində (Naxçıvan Muxtar Respublikası istisna olmaqla) yerləşən filial və şöbələrin müştəriləri, o cümlədən bank xidmətlərindən elektron qaydada istifadə edən müştərilər üçün - Azərbaycan Respublikasının Mərkəzi Bankı	*Telefon: (+994 12) 493 50 58* *Qaynar xətt: (+994 12) 966* *Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 167, AZ1029*

Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən filial və şöbələrin müştəriləri üçün - Azərbaycan Respublikasının Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi	*Whatsapp xətti: +99460 400 22 44:* *Qaynar xətt: 2244*